# Zəfərin mübarək, Azərbaycan!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 239 (30933) 8 noyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham Əliyev Zəfər Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə sosial media hesablarında paylaşım edib.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident, Əziz Qardaşım!**

Vətən müharibəsində Zəfərin beşinci ildönümü münasibətilə xalqım adından və öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu şanlı Zəfərdən sonra həyata keçirilən sülh prosesi çərçivəsində atılan konstruktiv addımların davamlı bir razılaşma ilə nəticələnəcəyinə ümid edirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun rifahına xidmət edəcək və Qafqazın qlobal siyasətdə strateji əhəmiyyətini daha da artıracaqdır.

Azad edilmiş vətən torpaqlarının sürətli dirçəlişi və yenidən qurulmasında əldə edilən irəliləyiş təqdirəlayiqdir. Bu əlamətdar günün ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci hesab etdiyi qardaş Azərbaycanın həm regionda, həm də ondan kənarda inamlı addımlarla nail olduğu irəliləyişin şahidi olmaqdan böyük qürur hissi keçirir.

"Bir millət, iki dövlət" prinsipi ilə qurulmuş yüksəksəviyyəli münasibətlərimiz və öz gücünü ortaq taleyimizdən alan sarsılmaz qardaşlıq bağlarımız keçmişdə olduğu kimi, bu gün də möhkəmlənməkdə davam edir.

Güclü təməl üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və bütün sahələrdə nümayiş etdirdiyimiz xüsusi əməkdaşlıq regional sülhün, etimadın və sabitliyin ən vacib sütunlarından birinə çevrilmişdir.

Şübhəsiz ki, Sizin müdrik rəhbərliyinizlə can Azərbaycanın əldə etdiyi nailiyyətlər bundan sonra da regionumuzun çiçəklənməsinə əhəmiyyətli töhfələr verəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı, dost və qardaş Azərbaycan xalqına xoş günlər və rifah arzulayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

# Slovakiya Azərbaycanın önəmli tərəfdaşıdır

## Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik edərək bununla bağlı keçiriləcək hərbi parada dəvətə görə təşəkkürünü bildirdi.

Qonaq, həmçinin Slovakiyanın Baş naziri Robert Fitsonun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Slovakiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyətinin sabah Bakıda keçiriləcək Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda iştirakını yüksək qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ABŞ Prezidentinin iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması məqsədilə imzalanmış sənədlərin tarixi əhəmiyyətinə toxunaraq, bunun regionda davamlı sülhün təmin edilməsində rolunu vurğuladı.

Robert Kalinak Prezident İlham Əliyevin Slovakiyaya səfərini məmnunluqla gözlədiklərini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında qarşılıqlı anlaşma və dəstəyə əsaslanan ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirildi, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-sənaye sahələrində genişləndirilməsi üçün imkanların olduğu diqqətə çatdırıldı.

Həmçinin Slovakiyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əlaqələrinin genişləndirilməsinə göstərdiyi dəstəyə toxunuldu.

***AZƏRTAC***

## 8 Noyabr Zəfəri müstəqil dövlətçiliyin ən qiymətli uğurudur



Səhifə ➩ 4-5

## Zəfər yürüşünün Şuşa zirvəsi



Səhifə ➩ 12

## Qəhrəmanlıqla yazılmış şərəf və ləyaqət salnaməmiz



Səhifə ➩ 6

## Zəngəzur dəhlizi: Azərbaycan və İranın yeni birgə layihələri



Səhifə ➩ 10

## "Saqqallı qadağa" ortaq maraqlara əngəl törədir



Səhifə ➩ 10

## "Azəri–Çıraq–Günəşli" yataqlar bloku müstəqilliyin xidmətində

Səhifə ➩ 21

# Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə məhdud tərkibdə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 7-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin məhdud tərkibdə görüşü olub.**



Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı.

Dövlətimizin başçısı və Pakistanın Baş naziri birgə foto çəkdirdilər.

Görüşdə dövlətimizin başçısı Vətən müharibəsində şanlı Qələbənin beşinci ildönümü münasibətilə sabah Bakıda keçiriləcək hərbi paradda iştiraka görə Məhəmməd Şahbaz Şərifə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında qardaşlığın nümunəsi kimi qiymətləndirdi.

Parada dəvətə görə minnətdarlığını bildirən Pakistanın Baş naziri burada iştirak etməkdən məmnunluğunu vurğuladı. Qonaq Prezident İlham Əliyevi və xalqımızı möhtəşəm Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edərək, paytaxt İslamabadın Azərbaycanın Qələbəsi şərəfinə ölkəmizin üçrəngli Bayrağı ilə bəzədildiyini diqqətə çatdırdı.



Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyi bildirildi, Azərbaycan və Pakistanın beynəlxalq təşkilatlarda bir-birinə göstərdikləri qarşılıqlı dəstəyə toxunuldu. İkitərəfli ticarət dövriyyəsində artım məmnunluqla vurğulanaraq, siyasi münasibətlərimizin ruhuna uyğun olaraq iqtisadi-ticari əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan tərəfindən Pakistandan idxal olunan düyüyə və 15 adda digər məhsula güzəştli ticarət tariflərinin tətbiqinin iqtisadi-ticari əlaqələrin inkişafında mühüm amil olduğu bildirildi.

Bu ilin birinci yarısında Hökumətlərarası Komissiyanın iclasının uğurla keçirildiyi xatırlandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə edildi.

Hökumət nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin tezliklə qarşılıqlı səfərlər həyata keçirməsi ilə bağlı razılıq əldə olundu.

İşğaldan azad olunmuş ərazilərimizdə icra edilən bərpa və quruculuq işlərində Pakistan şirkətlərinin iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə ikitərəfli münasibətlərimizin perspektivləri müzakirə edildi.

# Prezident İlham Əliyev və Pakistanın Baş naziri birgə nahar ediblər



**Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif birgə nahar ediblər.**

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana səfərə gəlib

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif noyabrın 7-də Azərbaycana səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.




# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və qardaş Azərbaycan xalqını Zəfər Günü münasibətilə şəxsən öz adımdan və bütün Qırğız xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası böyük uğurlar qazanıb, beynəlxalq aləmdə layiqli yer tutub və sabit inkişaf edir.

Əminəm ki, Qırğızıstan və Azərbaycan arasında siyasi, iqtisadi-ticari və mədəni-humanitar əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə möhkəmlənəcək və dərinləşəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Zati-alinizə və Sizin simanızda Azərbaycan Respublikasının Hökumətinə və qardaş Azərbaycan xalqına Zəfər Gününün beşinci ildönümü, həmçinin Dövlət Bayrağı Günü münasibətilə səmimi-qəlbdən təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Azərbaycana, Hökumətinizə və xalqınıza daha böyük tərəqqi və rifah arzulayıram. Qürur duyduğumuz dostluq, qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin daha da inkişaf edib möhkəmlənəcəyinə əminliyimi bildirirəm.

Zati-aliləri, hörmətli qardaşım, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji effektivliyi fondunun yaradılması və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I); 2024, № 5 (I kitab), maddə 515) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. adından "məqsədi və fəaliyyət" sözləri çıxarılsın;

1.2. 2.1-ci bənd ləğv edilsin;

1.3. 2.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.2.9-cu və 2.2.10-cu yarımbəndlər əlavə edilsin:

"2.2.9. enerji effektivliyi fondunun vəsaitini idarə edir;

2.2.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.".

2. 3-cü hissə üzrə:

2.1. aşağıdakı məzmunda 3.1.34-1-ci yarımbənd əlavə edilsin:

"3.1.34-1. enerji effektivliyi fondunun vəsaiti hesabına "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 15.1-ci maddəsində nəzərdə tutulmuş stimullaşdırıcı tədbirləri həyata keçirir;

2.2. 3.1.39-cu yarımbəndə "vəsaitlərindən" sözündən sonra ", habelə enerji effektivliyi fondunun vəsaitindən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**

general-mayor Kənan Əlihüseyn oğlu Seyidova

general-mayor Ağamir Əzizxan oğlu Sultanova

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Zaur Qəzənfər oğlu Yusifliyə

polkovnik Ümüdvar Əzizalı oğlu Quliyevə

polkovnik Anar Tofiq oğlu Hüseynova

polkovnik Etibar İsmayıl oğlu Məhərrəmova

**"kontr-admiral" ali hərbi rütbəsi**

1-ci dərəcəli kapitan Şahin Oruc oğlu Məmmədova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslərin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycanın Milli Qəhrəmanı" adı ilə**

Qurbanov Vaqif Bəxtiyar oğlu – baş leytenant (ölümündən sonra)

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Quliyev Akif Bayram oğlu – ehtiyatda olan baş gizir

**"İgidliyə görə" medalı ilə**

Binyatov Gülbudağ Əli oğlu – ehtiyatda olan polkovnik-leytenant

Əliyev Başir İman oğlu – ehtiyatda olan mayor

Cəlilov Elman Səyyad oğlu – ehtiyatda olan kapitan

Şalbuzov Tofik Şıxbala oğlu – ehtiyatda olan baş gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilsinlər:

**“Azərbaycanın Milli Qəhrəmanı” adı ilə:**

Teymurov Pəncəli Nurməmməd oğlu – gizir (ölümündən sonra)

**“Azərbaycan Bayrağı” ordeni ilə**

Ələsgərov Əlvan Əsədulla oğlu – 3-cü dərəcəli kapitan

**2-ci dərəcəli “Rəşadət” ordeni ilə**

Abbasəliyev Yasin Yusif oğlu – polkovnik

**3-cü dərəcəli “Rəşadət” ordeni ilə**

İslamzadə Namiq Sərəfruz oğlu – general-leytenant
Nuriyev Ramin Sabir oğlu – polkovnik
Əmirov Zakir Oruc oğlu – polkovnik-leytenant

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Babayev Aqil İnşallah oğlu – general-mayor
Məmmədov Əyyub Vəli oğlu – general-mayor

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Həsənov Arif Həsən oğlu – general-mayor
İbrahimov Elmir Zülfüqar oğlu – general-mayor
Kazımov Elnur Sadıq oğlu – general-mayor
Nəbiyev Ceyhun Həsən oğlu – general-mayor
Niftullayev Zaur Rəşid oğlu – general-mayor
Abdulxalıqov İlqar Səftər oğlu – polkovnik
Alıyev Fuad Məhəmmədəli oğlu – polkovnik
Bağırov Vüsal Fazil oğlu – polkovnik
Dəmirov Rüstəm Nadir oğlu – polkovnik
Dünyamalıyev Əziz Dünyamalı oğlu – polkovnik
Əsədullayev Asif Azadxan oğlu – polkovnik
Gözəlov Bəxtiyar Telman oğlu – polkovnik
Həsənov Anar Məmmədzadə oğlu – polkovnik
Xəlilov Ramil Vəlixan oğlu – polkovnik
İbrahimov İbrahim Əzizağa oğlu – polkovnik
İbrahimov Şəhadət Əlövsət oğlu – polkovnik
Qəhrəmanov Şahin Orduxan oğlu – polkovnik
Məmmədov İntiqam Qəhrəman oğlu – polkovnik
Mirzəyev Anar Mehman oğlu – polkovnik
Soltanov Bağır Eyvaz oğlu – polkovnik
Sulxayev Aslan Əlixan oğlu – polkovnik
Yusibov Zəfər Qəzənfər oğlu – polkovnik
Ağamalıyev Teymur Ələsgər oğlu – polkovnik-leytenant
Ələkbərov Rasim Vahidoviç – 2-ci dərəcəli kapitan
Kərimov Nihad Məmmədhəsən oğlu – polkovnik-leytenant
Məmmədov Rəşad Arif oğlu – polkovnik-leytenant
Siracov Sirac Məmmədağa oğlu – 2-ci dərəcəli kapitan
Zülfüqarov Əli Salman oğlu – polkovnik-leytenant
Abbaszadə Abbas Zahir oğlu – mayor
Əhmədzadə Fuad Nadir oğlu – mayor
Əzimov Cavid İsa oğlu – mayor
Həsənov Mərdalı Mircəlil oğlu – mayor
İsayev Ehtiram Teymur oğlu – mayor
Kələşov Cahangir İlham oğlu – mayor
Əhmədov Pərviz Zahid oğlu – kapitan

**“Vətən uğrunda” medalı ilə**

Xəlilov Vasif Tofiq oğlu – general-mayor
Allahverdiyev Babək Asəf oğlu – polkovnik
Əlizadə Elqar Məmmədsadıq oğlu – polkovnik
Əsgərov Əliyar Arif oğlu – polkovnik
Əzizov Elvin Tofiq oğlu – polkovnik
Fətullayev İlkin Oruc oğlu – polkovnik
Hacıyev Elçin Akif oğlu – polkovnik
Hüseynov Bəhruz Səməd oğlu – polkovnik
Xəlilov Səməd Adil oğlu – polkovnik
İsmayılov Abasqulu Süleyman oğlu – polkovnik
Kərimov Mehman Abdulla oğlu – polkovnik
Quliyev Vüsal Aslan oğlu – polkovnik
Quliyev Zaur Hikmət oğlu – 1-ci dərəcəli kapitan
Məmmədov Azər Xutbəddin oğlu – polkovnik
Mirzəyev İntiqam Fərəməz oğlu – polkovnik
Muxtarov Rəşadət Tofiq oğlu – ədliyyə polkovniki
Orucov Mehman Qurbanəli oğlu – polkovnik
Bəhramzadə Məhəmməd Əsəbəli oğlu – polkovnik-leytenant
Əliyev Amid Adil oğlu – polkovnik-leytenant
Həsənov Elşən Rövşən oğlu – polkovnik-leytenant
Həsənov Elvin Asif oğlu – polkovnik-leytenant
Hüseynov Sabit Vəkil oğlu – polkovnik-leytenant
İbrahimov Tural Hikmət oğlu – polkovnik-leytenant
Qurbanəliyev Sərxan Zülfüqar oğlu – polkovnik-leytenant
Manafov Ağabala Elşad oğlu – polkovnik-leytenant
Məmmədov Rüfət Firudin oğlu – polkovnik-leytenant
Mürsəlov Şirəli Rizvan oğlu – polkovnik-leytenant
Rzayev Rafiq Qurban oğlu – polkovnik-leytenant
Salmanov Rafael Faiq oğlu – polkovnik-leytenant
Zeynalov Heydər Teymur oğlu – polkovnik-leytenant
Abdullayev Aqşin İsmayıl oğlu – mayor (ölümündən sonra)
Cəfərov Heydər Əkrəm oğlu – mayor
Əhmədov Elmin Tanırverdi oğlu – mayor
Əmirov Əfqan Fəxrəddin oğlu – mayor
Hacəliyev Şahin Hacəli oğlu – mayor
Hacıyev Teymur Ədalət oğlu – ehtiyatda olan mayor
İsmayılov Nicat İlyas oğlu – mayor
Məmmədov Vaqif Alxalovoviç – mayor
Rüstəmov Coşqun Rüfət oğlu – mayor
Səfərov Həsən İlqar oğlu – mayor
Şahbazzadə Səlim Elman oğlu – mayor
Tapdıqov Pərviz Ələkbər oğlu – mayor
Vəliyev Elçin Vəli oğlu – 3-cü dərəcəli kapitan
Abbasov Hüseyn Rizvan oğlu – kapitan
Abutalıbov Ramil Yaşar oğlu – kapitan
Əliyev Fəqan Ramiz oğlu – kapitan
Əzizli Ziya Bəy Əliqismət oğlu – kapitan
Həsənli Arif Fizuli oğlu – kapitan
Həsənli Kəmaləddin Camaləddin oğlu – kapitan
İsmayılov Orxan Elxan oğlu – kapitan
İsmayılov Sahil Fərman oğlu – kapitan
Qədirli Vüqar Ağakərim oğlu – kapitan
Mancanov Abdurəhman Fəxrəddin oğlu – kapitan
Məmmədli Sahil Səfalı oğlu – kapitan
Nəcəfli Damət Elşad oğlu – kapitan
Orucov Emil Alik oğlu – kapitan
Rzayev Məhəbbət Səfiyar oğlu – kapitan
Salahov Vaqif Əliyar oğlu – kapitan
Sarıyev Sabutay Asif oğlu – kapitan
Şakirov Sərvət Seyid oğlu – kapitan
Ağazadə Məlik Mehman oğlu – baş leytenant
Dədəkişiyev Cavid Gülbaba oğlu – baş leytenant (ölümündən sonra)
Haşımlı Tural Əbdül oğlu – baş leytenant (ölümündən sonra)
Həsənov Firudin Valeh oğlu – baş leytenant
Həsənov Xəyyam Asif oğlu – baş leytenant
Həsənov Ziya Niyazi oğlu – baş leytenant (ölümündən sonra)
İbayev Ağaxan Azər oğlu – baş leytenant
Nəzərov Şahlar Yaşar oğlu – baş leytenant (ölümündən sonra)
Orucəliyev Qabil Əbdüləli oğlu – leytenant (ölümündən sonra)
Şirinov Sahil Həsrət oğlu – leytenant (ölümündən sonra)
Əliyev Kənan Adil oğlu – baş gizir
Kərimov Əhməd Şərif oğlu – baş gizir
Murtuzayev Narvik Minbala oğlu – baş gizir
Niftullayev Vasid Sadiq oğlu – baş gizir
Abdullazadə Nurlan Rasim oğlu – gizir (ölümündən sonra)
Ağayev Rusif İbrahim oğlu – miçman (ölümündən sonra)
Hümmətov Orxan Kazım oğlu – gizir (ölümündən sonra)
Qarayev Dilsuz Məmmədağa oğlu – gizir (ölümündən sonra)
Qasımov İlqar Vüqar oğlu – gizir
Tağıyev Rahim Qara oğlu – gizir (ölümündən sonra)
Zeynallı İlqar Ayaz oğlu – gizir (ölümündən sonra)
Abidov Babək Vəfadar oğlu – kiçik gizir (ölümündən sonra)
Baxışov Seymur Qulamhüseyn oğlu – kiçik gizir (ölümündən sonra)
Bayramov Sərxan Oqtay oğlu – kiçik gizir (ölümündən sonra)
Cavadzadə Şahin Yaşar oğlu – kiçik gizir (ölümündən sonra)
Fərəczadə Toğrul Habil oğlu – kiçik gizir (ölümündən sonra)
Hüseynov Bəxtiyar Rafayıl oğlu – kiçik gizir (ölümündən sonra)
Qasımov Teymur Sabir oğlu – kiçik gizir (ölümündən sonra)
Qurbanov Tural Gürşad oğlu – kiçik gizir (ölümündən sonra)
Müstəcəbov Orxan Ələsgər oğlu – kiçik gizir (ölümündən sonra)
Novruzov Ravil Elman oğlu – kiçik gizir (ölümündən sonra)
Səfərov Elimdar Səlimxan oğlu – kiçik gizir (ölümündən sonra)
Şeydayev Şeyda Bəslan oğlu – çavuş
Əsgərov Təbriz Hamlet oğlu – kiçik çavuş (ölümündən sonra)
Quliyev Səyyar Qınyaz oğlu – kiçik çavuş (ölümündən sonra)
Məmmədov Elşad Dönməz oğlu – baş əsgər (ölümündən sonra)
Abdullayev Qulam Əbdül oğlu – əsgər
Adilzadə Adil Kamran oğlu – əsgər (ölümündən sonra)
Axundov Əbdülməcid Nadirşah oğlu – əsgər (ölümündən sonra)
Alıyev Vüsal İlham oğlu – əsgər (ölümündən sonra)
Bağırov Emin İmran oğlu – əsgər (ölümündən sonra)
Bağırov Sərxan Azər oğlu – əsgər (ölümündən sonra)
Bağırzadə Firdovsi Əliş oğlu – əsgər (ölümündən sonra)
Bayramov Şulan Bayram oğlu – əsgər (ölümündən sonra)
Cəbrayılov Ömər Məzahir oğlu – əsgər (ölümündən sonra)
Cəfərov Zakir Nazim oğlu – əsgər (ölümündən sonra)
Dadaşov Tural Sabir oğlu – əsgər (ölümündən sonra)
Daşdəmirov Xəyyam Məhəmməd oğlu – əsgər (ölümündən sonra)
Dəmirli Altun Fərman oğlu – əsgər (ölümündən sonra)
Dəmirli Hüseyn Zeynal oğlu – əsgər (ölümündən sonra)
Əliyev Orxan Məhəmməd oğlu – əsgər (ölümündən sonra)
Əsgərli Nurlan Bayram oğlu – əsgər (ölümündən sonra)
Əzizzadə Xaliq Həsən oğlu – əsgər (ölümündən sonra)
Hacıağayev Cabbarxan İlham oğlu – əsgər (ölümündən sonra)
Hüseynov Ayaz Ələkbər oğlu – əsgər (ölümündən sonra)
Xeyirbəyov Əmiraslan Xəlil oğlu – əsgər (ölümündən sonra)
İbrahimov Mahmud Azər oğlu – əsgər (ölümündən sonra)
İslamov Əlizaman Fərrux oğlu – əsgər (ölümündən sonra)
İsmayılov Nazim Əfqan oğlu – əsgər (ölümündən sonra)
Qasımov Nurlan Cəmil oğlu – əsgər (ölümündən sonra)
Qasımov Teymur Mikayıl oğlu – əsgər (ölümündən sonra)
Qayıbov Elvin Sədrəddin oğlu – əsgər (ölümündən sonra)
Qədimov Zülfü Rəhim oğlu – əsgər (ölümündən sonra)
Quliyev Mahir Qadir oğlu – əsgər (ölümündən sonra)
Qurbanlı Fəxrəddin Seyfəddin oğlu – əsgər (ölümündən sonra)
Məmmədov Murad Vaqif oğlu – əsgər (ölümündən sonra)
Məmmədov Ülvin Camaləddin oğlu – əsgər (ölümündən sonra)
Mirzəyev Elvin Azadxan oğlu – əsgər (ölümündən sonra)
Mirzəyev Mahir Sabir oğlu – əsgər (ölümündən sonra)
Mirzəyev Məhəbbət Ədalət oğlu – əsgər (ölümündən sonra)
Mirzəyev Nurəddin Etimad oğlu – əsgər (ölümündən sonra)
Muradov Rizvan Telman oğlu – əsgər (ölümündən sonra)
Mustafazadə Elçin Arif oğlu – əsgər (ölümündən sonra)
Nəsirov Röyal İmran oğlu – əsgər (ölümündən sonra)
Niftalılı Rəşad Şakir oğlu – əsgər (ölümündən sonra)
Novruzov Fəraim Nadir oğlu – əsgər (ölümündən sonra)
Nurayev Rəvan İsmayıl oğlu – əsgər (ölümündən sonra)
Səmədov Elşən Səlim oğlu – əsgər (ölümündən sonra)
Süleymanov Vüqar Natiq oğlu – əsgər (ölümündən sonra)
Şirəliyev Kamran Faiq oğlu – əsgər (ölümündən sonra)
Vahabzadə Mikayıl Yaqub oğlu – əsgər (ölümündən sonra)
Zəkərəyev Nazim Nadir oğlu – əsgər (ölümündən sonra)

**“İgidliyə görə” medalı ilə**

Xankişiyev İlqar İmran oğlu – polkovnik
Sulxayev Rəfail Əli oğlu – polkovnik
Eybalıyev Bəhmən Mirzə oğlu – polkovnik-leytenant
Əliyev Afiq Əli oğlu – polkovnik-leytenant
İbrahimov Adil İbrahim oğlu – polkovnik-leytenant
Məmmədov Mehman Rüstəm oğlu – polkovnik-leytenant
Məmmədov Sərxan Süleyman oğlu – polkovnik-leytenant
Nəsirov Sabir Səbran oğlu – polkovnik-leytenant
Tarverdiyev Hilal Əjdər oğlu – polkovnik-leytenant
Abuşov Elşad Ərzulla oğlu – mayor
Eynullayev Ruslan Həzrətəli oğlu – mayor
Səmədov Mirhaşim Nəcəfəli oğlu – mayor
Əfəndiyev Coşqun Səlim oğlu – kapitan
Hüseyinli Toğrul Sahib oğlu – kapitan
Əsgərov Sunay Tağı oğlu – baş leytenant
Məhərrəmov Nurlan Sahib oğlu – baş leytenant
Nəsibli Xəzər İntiqam oğlu – baş leytenant
Şirəlizadə Elsevər Zabit oğlu – baş leytenant
Yaqubov Hümbət Arzu oğlu – baş leytenant
Əliyev Ceyhun Alxan oğlu – leytenant
Quluyev Etibar Nizami oğlu – leytenant
Cəfərov Asif Kamil oğlu – gizir
Hüseynov Kamran Davud oğlu – gizir
Bozuyev Yalçın Bəylər oğlu – baş çavuş
Əliyev Emil Ehtiram oğlu – baş çavuş
Həsənov Şamo Lütviyar oğlu – çavuş
Məmmərzəyev Məhəmməd Murğuz oğlu – əsgər

**“Cəsur döyüşçü” medalı ilə**

Səfərli Ramil Fərman oğlu – polkovnik
Əlizadə Nihad Bəhman oğlu – mayor
Hüseynov Vüqar Vidadi oğlu – mayor
Kərimov Anar Hidayət oğlu – mayor
Quliyev Vüqar Məhəmməd oğlu – mayor
Rəsulzadə Rəsul Cavid oğlu – mayor
Səfərov İsmayıl Talıb oğlu – mayor
Hüseynli Etibar Cavid oğlu – kapitan
Quliyev Qadir Famil oğlu – kapitan
Musazadə Elçin İsa oğlu – kapitan
Nəsirli Laçın Çingiz oğlu – kapitan
Abdullayev Aslan Mətləb oğlu – baş leytenant
Nəcəfov Asif Malik oğlu – baş leytenant
Ocaxverdiyev Nemət Nazim oğlu – baş leytenant
Bağırov Nemət Xanlar oğlu – leytenant
Əlizadə Emil Zaur oğlu – leytenant
Qarayev Səddam Abdulhəmid oğlu – baş gizir
Həsənov Röyam Famil oğlu – gizir
Əhmədov Qurban Vidadi oğlu – baş çavuş
Qasımov Akif Engels oğlu – çavuş
Yusibov Qiyas Əliyusif oğlu – çavuş
Abuzərov Müslüm Şahin oğlu – kiçik çavuş
Əliyev Elmar Cavanşir oğlu – əsgər

**“Döyüşdə fərqlənməyə görə” medalı ilə**

Əliyev Hüseyn İsbəndiyar oğlu – tibb xidməti polkovniki
Əhmədov Cavid Sevindik oğlu – polkovnik-leytenant
İbrahimov Emin Fətəli oğlu – polkovnik-leytenant
Cəfərli Ayaz Qorxmaz oğlu – mayor
Gözəlov Əlqəm Əhəd oğlu – mayor
Hüseynli Tural Fərhad oğlu – mayor
Hüseynov Mansur Samit oğlu – mayor
Mustafayev Vaqif Nemət oğlu – mayor
Həsənli Sənan Rəşid oğlu – kapitan
Hüseynzadə Ülvi Elçin oğlu – kapitan
Nəsirli Cavad Cəlal oğlu – kapitan
Qurbanov Fərman Beybala oğlu – baş leytenant
Məmmədov Kamran Lətif oğlu – baş leytenant
Alyarov Elman Məhərrəm oğlu – leytenant
Əliyev Orxan Əliyar oğlu – leytenant
Qafarov Nazim Mehman oğlu – baş gizir
Qurbanov Əli Yadigar oğlu – baş gizir
Əskər-zadə Yadigar Fərhad oğlu – gizir
Kərimov Rauf Yusif oğlu – gizir
Muradov Rahim Rəfail oğlu – gizir
Musayev Vüqar Arif oğlu – gizir
Novruzov Elmidar Mehman oğlu – gizir
Əzizov Rahib Müslüm oğlu – çavuş
Səmədov Səməd Şəmsəddin oğlu – çavuş
Əliyev Zaur Qoca oğlu – əsgər
Mirzəyev Dəyanət Səxavət oğlu – əsgər
Şirəliyev Ramiz Əkbər oğlu – əsgər

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Aslanov Rüfət Talıb oğlu – polkovnik
Atakişiyev Məzahir Mirzə oğlu – polkovnik
Bayramov Vüqar Əsəd oğlu – polkovnik
Əliyev Mütəllim Rəhim oğlu – polkovnik
Əzizov Yengibar Səmənd oğlu – polkovnik
Həbibullahov Seymur Musa oğlu – polkovnik
Məmmədov Yəhya Səməd oğlu – polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu – polkovnik
Nəbiyev Ramil Ramiz oğlu – polkovnik
Paşayev Vüqar Murad oğlu – tibb xidməti polkovniki
Rəhimov Elşən Nütvəli oğlu – polkovnik
Şabanov Mübariz Əziz oğlu – polkovnik
Şıxlinski Vüqar Zakir oğlu – polkovnik
Tarverdiyev Anar Xanverdi oğlu – polkovnik
Abbasov Vüqar Malik oğlu – polkovnik-leytenant
Abdullayev Azər Abazər oğlu – polkovnik-leytenant
Abdullayev Teymur Ağabəy oğlu – polkovnik-leytenant
Axundov Elsevər Elşən oğlu – polkovnik-leytenant
Axundov Rais Nadir oğlu – polkovnik-leytenant
Aslanov Novruz Tacı oğlu – polkovnik-leytenant
Atayev Rusif Elşən oğlu – polkovnik-leytenant
Bayramov Ramil Yusif oğlu – polkovnik-leytenant
Bəxtiyarov Cabir Elman oğlu – polkovnik-leytenant
Cəbrayılov Şəhriyar Vahid oğlu – polkovnik-leytenant
Əmirov Şükür Ağamir oğlu – polkovnik-leytenant
Fətullayev Anar Şahrza oğlu – polkovnik-leytenant
Hadıyev Elman Əbülfət oğlu – polkovnik-leytenant
Hüseynov Əkbər Ənvər oğlu – polkovnik-leytenant
Xoyluyev Vüsal Sərraf oğlu – polkovnik-leytenant
Xudeynatov Elnur Kamal oğlu – polkovnik-leytenant
İskəndərov Elnur Qurban oğlu – polkovnik-leytenant
Quliyev İsmayıl Zirəddin oğlu – polkovnik-leytenant
Maksudov Bəhruz Azər oğlu – polkovnik-leytenant
Məhərrəmov Roman Rafiq oğlu – polkovnik-leytenant
Mərdanov Mərdan Gülbaba oğlu – polkovnik-leytenant
Nəzərov Xəndan Aydın oğlu – polkovnik-leytenant
Səfərov Siyavuş Akif oğlu – polkovnik-leytenant
Şalanov Azər Əli oğlu – polkovnik-leytenant
Zalov Emil Fuad oğlu – polkovnik-leytenant
Zeynalov Ziya Vaqif oğlu – polkovnik-leytenant
Abbaszadə Məiş Sadiq oğlu – mayor
Ağasiyev Rəşad Zeynal oğlu – mayor
Balıyev Turac Vidadi oğlu – mayor
Əbilov Cavid Səyavuş oğlu – mayor
Əliyev Məfdun Tahir oğlu – mayor
Əsgərov Cəlal Elçin oğlu – mayor
Əsgərov Mübariz Tahir oğlu – mayor
Əzizov Asim Əziz oğlu – mayor
Xantəmirov Şamil Şahsəddin oğlu – mayor
İbrahimov Abdal Rafiq oğlu – mayor
İsmixanov Əhmədağa Nürəliyeviç – mayor
Kəlbiyev Rasim Faiq oğlu – mayor
Kərimov Şəhriyar İxtiyar oğlu – mayor
Qarayev Elvin Telman oğlu – mayor
Mamedov Vüqar Əli oğlu – mayor
Namazov Samir İkram oğlu – mayor
Novruzəliyev Pərviz Yaqub oğlu – mayor
Orucov Mahmud Həmid oğlu – mayor
Paşayev Ziyad Məmmədxan oğlu – mayor
Ramazanov Rafiq Gündüz oğlu – mayor
Seyidov Mirməhəmməd Mirəhməd oğlu – mayor
Şərifov Nadir Tahir oğlu – mayor
Vəliyev Cəfər Şıxeyib oğlu – mayor
Zamanov Yaşar Yusifəli oğlu – mayor
Abdullayev Cəmil Səxavət oğlu – kapitan
Cəfərov Ayxan Seymur oğlu – kapitan
Əhmədov Rəşadət Fərman oğlu – kapitan
Əliyev Elvin İnqilab oğlu – kapitan
Əliyev Rzali Rəşid oğlu – kapitan
Əsədov Eltun Sərbəst oğlu – kapitan
Heybətli Seymur Hikmət oğlu – kapitan
Hüseynov Pənah Filman oğlu – kapitan
Xəlilov Qəhrəman Tahir oğlu – kapitan
İskəndərov Vüsal Vahid oğlu – kapitan
Kərimov Sabir İlham oğlu – kapitan
Qasımov Röyal Sədrəddin oğlu – kapitan
Məmmədov Kənan Qaryağdı oğlu – kapitan
Məmmədov Məhəmməd Həsən oğlu – kapitan
Muradov Emin İftixar oğlu – kapitan
Namazov İlqar Vüqar oğlu – tibb xidməti kapitanı
Nəsirov Fəhmin Nurəddin oğlu – kapitan
Oruclu Əmiraslan İbrahim oğlu – kapitan-leytenant
Paşayev Fariz Yusif oğlu – kapitan
Rəhmanov Orxan Tofiq oğlu – kapitan
Səfərov Şahin Elsevər oğlu – kapitan
Şalbuzov Nail Çərkəs oğlu – kapitan
Umudov Mehman Adil oğlu – kapitan
Dünyamalıyev Röyal Adil oğlu – baş leytenant
Əliyev Azad Məhəmmədşah oğlu – baş leytenant
Həsənzadə Bünyad Əlibala oğlu – baş leytenant
Həşimov Əfqan Fuad oğlu – baş leytenant
İbrahimli İsa Vidadi oğlu – baş leytenant
Məmmədov Rövşən Üzeyir oğlu – baş leytenant
Muğalov İsa Mahir oğlu – baş leytenant
Paşazadə Heydər Yalçın oğlu – baş leytenant
Soltanov Tural Hərbi oğlu – baş leytenant
Ələkbərov Xəyyam Ələkrəm oğlu – leytenant
Vəliyev Elvin Nizaməddin oğlu – leytenant
Bayramov Tahir Pirnazar oğlu – baş gizir
Əmirov Tərzan Oktay oğlu – baş gizir
Hacıyev Kənan Kamran oğlu – baş gizir
Həsənov Asəf Müslüm oğlu – baş gizir
Həsənov Babək Ataş oğlu – baş gizir
Hüseynov Amil Adil oğlu – baş gizir
Hüseynov Pərvin Elxan oğlu – baş gizir
Məmmədov Baxşalı İdris oğlu – baş gizir
Muxtarlı Tərlan Ataş oğlu – baş gizir
Ovçiyev İlkin Müzaməddin oğlu – baş gizir
Rəşidov Mənsur Tahir oğlu – baş gizir
Səfərov Cavidan Fərhad oğlu – baş gizir
Sultanov Yusif Seyfəddin oğlu – baş gizir
Vəlişov Mərdan Vaqif oğlu – baş gizir
Abbaslı Kənan Rasim oğlu – gizir
Abbasov Elvin İlham oğlu – gizir
Alıyev Elmir İlqar oğlu – gizir
Alıyev Elmir Pərviz oğlu – gizir
Dövlətov Ramid Balaxan oğlu – gizir
Əlizadə Cavid Balayar oğlu – gizir
Əlizadə Rəşad Allahqulu oğlu – gizir
Əmirov Namiq Əmir oğlu – gizir
Fətəliyev Xanlar Barat oğlu – miçman
Xəlilov Yolçu Qorçu oğlu – gizir
Xidirov Yəhya Rasim oğlu – gizir
İsgəndərov Bəhruz Allahverdi oğlu – gizir
Quliyev Bahadur Məmməd oğlu – gizir
Mehdiyev Vüqar Qədir oğlu – gizir
Məmmədov Ravid Rantik oğlu – gizir
Mikaylov Elşad İsrayıl oğlu – gizir
Niftəliyev Əhməd Sahib oğlu – gizir
Pəncəliyev Təbriz Sərdar oğlu – gizir
Sadıqov Xəqani Akif oğlu – gizir
Şahmuradov Rəşad Dilşad oğlu – gizir
Tarıverdiyev Rahib Razin oğlu – gizir
Allahyarlı Ayxan Şöhrəd oğlu – baş çavuş
Kiçibəyov Elvin Yüzbəy oğlu – baş çavuş
Musayev Musa Mirzalı oğlu – baş çavuş
Yaqubov Şəhriyar Əflatun oğlu – baş çavuş
Alışov Pünhan Vidadi oğlu – çavuş
Allahverdiyev Əli Mehman oğlu – çavuş
Cəfərov Elgün Adışirin oğlu – çavuş
İsayev İskəndər Sevindik oğlu – çavuş
Kazımov Rəvan Fərhad oğlu – çavuş
Abbasov Elvin Bəylər oğlu – kiçik çavuş
Qasımov Eyvaz Arzuman oğlu – istefada olan kiçik çavuş
Alagözov Fərrux Mikayıl oğlu – baş əsgər
Cəbrayılov Elçin Tufan oğlu – əsgər
Tapdıqov Ziyaməddin Akif oğlu – əsgər
Usubov Araz Afis oğlu – əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

# 8 Noyabr Zəfəri müstəqil

## *Nəsillər bu tarixlə*



***Müsahibimiz Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevdir***

***– Cənab baş prokuror, elə söhbətimizin əvvəlində istərdim Sizi və rəhbərlik etdiyiniz respublika prokurorluq orqanlarının bütün işçilərini Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 8 Noyabr – Zəfər Günü münasibətilə redaksiyamız adından təbrik edəm. Bizim üçün bilmək maraqlıdır, Baş prokuror kimi fəaliyyət göstərdiyiniz dövrə təsadüf edən 44 günlük Vətən müharibəsində qazanılan Zəfər 5 il əvvəl Sizdə hansı təəssüratlar yaratdı?***

– Belə möhtəşəm bir bayram münasibətilə Azərbaycan Prokurorluğunun əməkdaşlarını və məni təbrik etdiyinizə görə minnətdarlığımı bildirirəm. Eyni zamanda, mən də xalqımızı, "Xalq qəzeti"nin redaksiyasını və sizin simanızda bütün media nümayəndələrini 8 Noyabr – Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Təbii, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan belə möhtəşəm qələbənin bu vəzifədə çalışdığım dövrə təsadüf etməsi məni son dərəcə qürurlandırır. Çünki yaşadığımız dövr dünyada gedən kəskin siyasi-iqtisadi proseslər, qarşıdurmalar, bir çox regionlarda alovlanan lokal münaqişələr fonunda, Ermənistanın havadarlarının dünyanın nəhəng aktorları olduğu, eyni zamanda, ölkəmizə qarşı münasibətlərin heç də birmənalı olmadığı bir şəraitdə, əraziləri dünyanın gözü qarşısında 30 ilə yaxın işğal altında qalan Azərbaycanın Silahlı Qüvvələrinin misilsiz qələbə qazanması şübhəsiz, məni son dərəcə qürurlandırdı. Səmimi etiraf edim ki, bir vətəndaş olaraq, qazandığımız bu Zəfər məni son dərəcə duyğulandırdı. Sual edə bilərsiniz ki, nə üçün?

Xatırlayırsınızsa, Ümummilli liderimiz Heydər Əliyevin 100 illik yubileyi zamanı sizə verdiyim müsahibədə qeyd etmişdim ki, mən Rusiya Federasiyasında təhsil almış və bir müddət o ölkədə hüquq-mühafizə orqanlarında çalışmışam. O dövrdə Ermənistanın torpaqlarımıza təcavüz edib ərazilərimizi işğal etməsini heç cür qəbul edə bilmirdim. Ancaq bu, acı bir reallıq idi və mənim kimi ölkədən kənarda yaşayıb-işləyən minlərlə soydaşımızın ürək ağrısına çevrilmişdi. Ona görə 2020-ci ildə Prezidentimizin müstəsna xidmətləri sayəsində 44 günlük Vətən müharibəsində qazanılan bu Zəfər bizim yaralarımıza məlhəm oldu, şərəfimizi göylərə qaldırdı.

İkinci bir tərəfdən, belə tarixi dövrdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin komandanlığı ilə respublikanın Baş prokuroru kimi rəhbərlik etdiyim prokurorluq orqanlarının ölkənin Konstitusiyası və qanunvericiliyi ilə üzərinə düşən vəzifələri qüsursuz yerinə yetirməsi, əlbəttə, mənim üçün böyük şərəf idi. Əməkdaşlarımızla Zəfər bayramı ərəfəsində müzakirələr aparanda, onların Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu Qələbənin canlı şahidi olmalarının məhz bizlərə nəsib olmasından necə qürurla danışdıqlarının çox tez-tez şahidi oluram. Bu, illərlə qəlbimizdə dolaşan müqəddəs arzumuz idi və təbii ki, gerçəkləşəndə bizə böyük qürur və sevinc yaşatdı. Əlbəttə, bizim kollektivin bütün əməkdaşları çalışdılar ki, bu Zəfərin qazanılmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər. Bəzən hətta lazım olandan daha çox işlədilər, bundan yorulmadılar, qüvvələrini əsirgəmədilər, çünki torpaqlarımızın erməni işğalından xilas olması, ərazi bütövlüyümüzün bərpası və vüqarımızın, qürurumuzun özümüzə qaytarılması kimi son dərəcə mühüm və qiymətli dəyərlərdən söhbət gedirdi.

***– Ümumiyyətlə, suverenliyimizin pozulması, 30 ilə yaxın işğal altında qalması, Sizcə bu nə üçün baş verdi? Və 30 ildən sonra Azərbaycanın belə bir qalibiyyətə imza atacağına, ərazi bötövlüyünü bərpa edəcəyinə nə qədər inanırdınız?***

– Toxunduğunuz məsələ çox dərin və geniş bir mövzudur, hətta mən deyərdim, bir müsahibəyə sığan söhbət deyil. Amma müəyyən qədər yığcam və əhatəli şəkildə bunu açıqlamağa çalışacağam. Düşünürəm, siz də şahidi olmusunuz ki, Azərbaycan 1990-cı illərdə müstəqilliyini qazananda çox mürəkkəb bir vəziyyətlə üz-üzə idi. Həmin illərdə Azərbaycanda hakimiyyət başına gələn təsadüfi və naşı şəxslərin qeyri-peşəkar idarəçiliyi və yarıtmaz fəaliyyətləri sayəsində ölkəmiz böyük uğursuzluqlara düçar oldu. Bu siyasətin ən acı nəticəsi isə Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi oldu. Bundan sonra ölkə çox ciddi siyasi və sosial-iqtisadi böhranla üzləşdi.

Açıq etiraf etmək lazımdır ki, bu dövr müstəqil Azərbaycan tarixinin ən ziddiyyətli və dövlətçiliyimizin məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir dövr oldu. Azərbaycanda cərəyan edən hadisələr Ermənistanın təcavüz və işğalçılıq iştahını daha da artırırdı və onlar bu ədalətsiz müharibədən öz mövqelərini möhkəmləndirmək üçün çox ustalıqla istifadə edirdilər. İkinci bir tərəfdən də Ermənistanın terrorçu siyasi-hərbi hakimiyyətinin xarici ölkələrdəki havadarları beynəlxalq səviyyədə onlara dəstək verir, Azərbaycanı dünya ictimaiyyətinə yalnız neqativ arqumentlərlə təqdim edirdilər.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra bu problemlər öz həllini tapmağa başladı. Təbii ki, bütün bunları həll etmək zaman tələb edirdi. Amma Ulu öndərin hakimiyyətə gəlişindən dərhal sonra, ilk növbədə, müstəqil dövlətin hakimiyyət atributları yaradılmağa və formalaşmağa başladı. Bununla paralel olaraq iqtisadiyyatımız, sənayemiz, kənd təsərrüfatımız tədricən dirçəlir, ordumuz formalaşırdı.

Mən həmişə qeyd edirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müstəsna siyasi və hərbi uzaqgörənliyi ilə qazanılan 2020-ci ilin 8 Noyabr Zəfərinə yol 1994-cü il mayın 12-də Ümummilli lider Heydər Əliyevin siyasi ustalığı sayəsində Bişkekdə imzalanmış atəşkəs sazişindən başlayır. Bunu vurğulamaq çox vacibdir. Çünki 2020-ci ildə 44 günlük Vətən müharibəsindəki Qələbənin təməli məhz həmin tarixdən qoyulmağa başlandı. Bişkekdə əldə olunan atəşkəs 26 il sonra işğalı aradan qaldıracaq Azərbaycan Ordusunun Zəfər yürüşünə hazırlıq üçün ölkəyə son dərəcə mühüm və qiymətli vaxt qazandırdı.

Atəşkəs sazişindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də dünyanı idarə edən dövlətlərin 13 nəhəng neft şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının, cəmiyyətin sosial həyatının və eyni zamanda çevik və müasir Silahlı Qüvvələrimizin ən qısa zamanda formalaşmasında müstəsna rol oynadı. 2003-cü ildə cənab İlham Əliyev ölkədə keçirilən prezident seçkilərində qalib gələndən sonra Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi, siyasi islahatlar daha geniş şəkildə və qətiyyətlə davam etdirilməyə başlandı. Yəni 1993-cü ildən Ulu öndər Heydər Əliyevin başladığı və Prezident cənab İlham Əliyevin 2003-cü ildən 2020-ci ilə qədər davam etdirdiyi bu siyasi, sosial-iqtisadi kurs Azərbaycana istər beynəlxalq aləmdə diplomatik cəbhədə, istərsə də ölkə daxilində çox böyük uğurlar qazandırdı.

Məhz Heydər Əliyevin qətiyyətli xarici siyasəti sayəsində qısa müddətdə BMT kimi beynəlxalq təşkilatda Ermənistanın işğalçı siyasətini, faktiki olaraq, tanıyan və işğal etdiyi Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasını tələb edən 822, 853, 874 və 884 saylı 4 qətnamə qəbul edildi. 1996-cı ilin dekabrında isə ATƏT-in Lissabon sammitində Ulu öndər Heydər Əliyevin dəmir iradəsi sayəsində ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi və ölkəmizin ərazi bütövlüyünü tanıyan sənəd qəbul etdi. Bütün bunlar və bir çox digər sənədlər 2020-ci ildə Azərbaycanın öz torpaqlarını azad etməsi üçün hüquqi baza yaradırdı.

Prezident cənab İlham Əliyevin xarici siyasəti isə Azərbaycanın haqlı tələblərini bütün dünyaya açıb göstərdi. Hələ 44 günlük Vətən müharibəsinə qədər cənab Prezident müxtəlif beynəlxalq təşkilatlarda, siyasi və diplomatik görüşlərində tam qətiyyətlə bəyan edirdi ki, əgər Ermənistan işğal etdiyi torpaqlardan çıxmasa, onları silah gücünə çıxarmaq Azərbaycanın qanuni haqqıdır.

Onu da xüsusi qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsinə qədər 1 milyona yaxın məcburi köçkün və qaçqının problemləri də dövlətimiz tərəfindən bu və digər formada həll edilmişdi. Onlara humanitar yardımlar edilirdi, ən yüksək səviyyədə qayğı göstərilirdi və demək olar dövlətimiz öz gücü ilə ölkədə bir dənə də olsun çadır şəhərciyi saxlamadı və yurd-yuvalarını itirmiş insanlar normal yaşayış yerləri ilə təmin edildilər.

Təbii ki, Baş prokuror olaraq mən və prokurorluğun əməkdaşları xarici ölkələrə səfərlər edir, müxtəlif beynəlxalq tədbirlərdə iştirak edir, orada Ermənistanın təcavüzü, ölkəmizin ərazisinin 20 faizini işğal etməsi və 30 ilə yaxın bu əraziləri qanunsuz olaraq işğal altında saxlamaları, xalqımıza qarşı soyqırımı həyata keçirmələri barədə arqumentlər və faktlarla təbliğat aparırdıq.

Yəni bütün dövr ərzində bir xalq, millət olaraq üzərimizdə çox ağır bir yük var idi və bu yük bizi mənən əzirdi, incidirdi. Bu, torpaqlarımızın işğal altında qalması idi. Millətimiz, xalqımız nə qədər yaxşı yaşasa, normal həyat şəraiti qursa, ölkəmiz nə qədər sürətlə inkişaf etsə, müasir texnika və texnologiyalara sahib olsa da, Qarabağ yarası psixoloji olaraq düşüncəmizdə, ürəyimizdə bizi rahat buraxmırdı və buraxa da bilməzdi.

Yalnız 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra içimiz rahatlıq tapdı, xalqımız ərazi bütövlüyünü təmin etməklə öz qürurunu özünə qaytardı.

***– Cənab Baş prokuror, bu böyük və şanlı Zəfərdə Azərbaycanın dövlət strukturlarının, hətta adi vətəndaşların belə öz payı var. Amma düşünürəm, Milli Ordumuzla yanaşı, hüquq-mühafizə orqanlarının da xidmətləri az olmayıb. Prokurorluq orqanlarının fəaliyyəti, apardıqları istintaq işlərinin detalları, gördükləri işin həcmi bəzən üzdə olmur, geniş açıqlanmır. Bilmək istərdik, bu Zəfərə aparan yolda Azərbaycan prokurorluğunun payı, rolu nədən ibarət olub?***

– Əgər Zəfərdə paydan söhbət gedirsə, ilk növbədə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətlərini xüsusi qeyd etməliyik. Müasir dünya liderlərinin ən parlaq nümayəndəsi olan cənab İlham Əliyev, ilk növbədə, öz ölkəsinin lideri olaraq bütün cəmiyyəti, xalqı və komandasını son dərəcə mükəmməl şəkildə səfərbər etdi. Əlbəttə, bu səfərbərlik olmasaydı, qələbəni əldə etmək çox mürəkkəb və çətin olacaqdı. Ona görə də Zəfərin qazanılmasında, birinci növbədə, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə formalaşdırılan və ən müasir silah-sursat, hərbi texnika ilə təchiz edilən, yüksək döyüş hazırlığı səviyyəsinə qaldırılan Azərbaycan Silahlı Qüvvələri, bütün dövlət strukturları, daha sonra isə liderin ətrafında sıx birləşən Azərbaycan xalqını və cəmiyyətini qeyd etmək lazımdır.

Hüquq-mühafizə orqanlarının Zəfərdəki payına gəldikdə, mən sizinlə tamamilə razıyam, çünki bu dövlət qurumlarının, o cümlədən prokurorluq orqanlarının cəmiyyətdə rolu böyükdür. Bura birinci növbədə 44 günlük Vətən müharibəsi dövründə cəmiyyətdə sabitliyin qorunması, qanunların aliliyinin, xüsusilə vətəndaşların hüquqlarının və onların etibarlı müdafiəsinin təmin olunması daxildir. İkincisi, bu çətin müharibə zamanı cəbhə bölgəsində fəaliyyətimizin davam etdirilməsidir. Burada həm mülki prokurorluq orqanlarının, həm də hərbi prokurorluq orqanlarının fəaliyyətini qeyd etmək istərdim. Yəqin izləmisiniz ki, 44 günlük müharibə zamanı Ermənistan silahlı birləşmələri Gəncəyə, Tərtərə və dinc əhali yaşayan digər yaşayış məntəqələrimizə raket zərbələri endirdikdən dərhal sonra bizim əməkdaşlar, prokurorluğun kriminalistləri təhlükələrə məhəl qoymadan həmin ərazilərə gedir, hadisə yerlərindən sübutların toplanması və digər istintaq əməliyyatlarını həyata keçirirdilər. Beləliklə, Ermənistanın hərbi-siyasi hakimiyyətinin Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdikləri hərbi cinayətlərin hamısını qeydə alır, sübutları toplayır, istintaq-təhqiqat fəaliyyətini həyata keçirir və bunlar barədə xalqımızla yanaşı, beynəlxalq institutlara, dünya ictimaiyyətinə informasiya verirdilər.

Hərbi Prokurorluğun əməkdaşları isə bizim Silahlı Qüvvələrimizlə birlikdə bilavasitə döyüş bölgələrinə gedir, üzərlərinə düşən vəzifələri icra edirdilər. Siz doğru qeyd edirsiniz ki, prokurorluq orqanlarının işində ictimaiyyət üçün açıq olmayan və məxfi saxlanılan fəaliyyət sahələri də var. Görünən fəaliyyət sahələri haqqında mən əvvəldə danışdım, amma məxfi olanlar təbii ki, sirr olaraq qalmalıdır.

***– 30 il əvvəl Azərbayan əraziləri işğala məruz qalarkən erməni silahlı birləşmələri azərbaycanlılara qarşı xüsusi amansızlıqla kütləvi soyqırımı cinayətləri törətmişlər. Azərbaycan prokurorluğunda bütün bu cinayətlər qeydə alınaraq, onlarla bağlı müvafiq istintaq fəaliyyəti həyata keçirilibmi?***

– Tamamilə yerində verilən sualdır, çünki cəmiyyət də bu məsələdə maraqlıdır. Bir anlıq tarixə, erməni separatizminin başlandığı ötən əsrin 80-90-cı illərinə qayıtsaq, görərik ki, Azərbaycana qarşı bu ədalətsizlik, təcavüz və terrorçuluq əməlləri 1987-ci ildə Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətdən istefaya getməyə məcbur edildikdən sonra başlayıb. O tarixdən etibarən son illərə qədər bu və digər formada və miqyasda Ermənistanın həmin illərdəki siyasi-hərbi rəhbərliyi, terrorçu qruplaşmalar tərəfindən xalqımıza, Azərbaycanın ərazi bütövlüyünə qarşı cinayətlər törədilməyə başlanıb.

Tam əminliklə deyirəm ki, o dövrdən bu günə qədər, təkcə prokurorluq orqanları deyil, Azərbaycanın bütün hüquq-mühafizə orqanları törədilmiş cinayətləri sənədləşdiriblər. Bunu həm Dövlət Təhlükəsizlik Xidməti, həm Daxili İşlər Nazirliyi, həm də Azərbaycan prokurorluq orqanları ediblər.

Diqqət etsək, görərik ki, hər iki respublika Sovetlər Birliyinin tərkibində olanda Ermənistan separatçıları və terrorçuları Azərbaycan xalqına qarşı cinayətləri bir formada törədirdilərsə, müstəqillik illərində bu, bir başqa forma və metodlarla törədilməyə başlandı. Cəzasızlıq mühitinə düşən erməni caniləri qanlı terrorlar, soyqırımı cinayətləri, kütləvi qırğınlar törətməkdən belə çəkinməyiblər. Hətta 1994-cü ilin mayında atəşkəs əldə ediləndən sonra belə, bu cinayətlər bitmək bilmirdi və davam edirdi. Məsələn, bizim əsgərlərimizi təmas xəttində namərdcəsinə qətlə yetirirdilər. Təbii ki, xalqımıza, dövlətimizə və suverenliyimizə qarşı törədilən bütün bu cinayətlər sübutlar, faktlar və əsaslarla tam sənədləşdirilib, qeydiyyata götürülüb və cinayət işləri açılıb. Yeri gəlmişkən, fürsətdən istifadə edib, 1987-ci ildən bu günə qədər xalqımıza qarşı törədilmiş cinayətlərlə bağlı sübutları toplamış, cinayət hadisələrini bircə-bircə qeydə almış bütün prokurorluq orqanlarının, eləcə də digər hüquq-mühafizə orqanlarının əməkdaşlarına öz peşə fəaliyyətlərini, açıq demək lazımdır, peşəkarcasına və böyük vətənpərvərlik ruhu ilə yerinə yetirdiklərinə görə dərin təşəkkürümü bildirirəm.

***– Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasının Qarabağ və digər işğal olunmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, habelə ağır və xüsusilə ağır cinayətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, əlbəttə, mühüm bir işdir. Amma bundan daha mühümü bu cinayətləri törədən canilərin, hərbi cinayətkarların ədalət məhkəməsi qarşısına çıxarılmasıdır. Bu sahədə görülən işlər barədə bir qədər geniş məlumat vermək mümkündürmü?***

– Sualınızın ikinci hissəsinə cavab verməmişdən əvvəl, istərdim, erməni siyasi-hərbi hakimiyyətinin müxtəlif illərdə törətdikləri cinayətləri beynəlxalq ictimaiyyətə çatdırmaqda xüsusi rol oynayan media nümayəndələrimizin roluna və fəaliyyətinə toxunam. Bildiyiniz kimi, 1987-ci ildə bu hadisələr başlayanda Azərbaycan çox ciddi informasiya blokadasında idi. Xalqımıza qarşı törədilən cinayətlər, SSRİ rəhbərliyinin Azərbaycana ədalətsiz və qərəzli yanaşması, hüquqlarımızın kobud şəkildə pozulması beynəlxalq ictimaiyyətə ya çatdırılmırdı, ya da düşmənlərimizə sərf edən, onların xeyrinə olan şəkildə çatdırılırdı. Azərbaycan həqiqətlərinin ölkədən kənara çıxarılmasına ya heç imkan verilmirdi, ya da yanlış xəbərlər ötürülürdü. Bunu 44 günlük müharibə zamanı Prezident cənab İlham Əliyev xarici kütləvi informasiya vasitələrinə müsahibələrində, müxtəlif beynəlxalq tədbirlərdəki çıxışlarında dəfələrlə qeyd etmişdir. Çünki burada erməni lobbisi amili ilə yanaşı, bir çox Qərb ölkələrinin hadisələrə ikili standartlardan yanaşması özünü açıq göstərirdi. Bunlarla yanaşı, Azərbaycan mediasının və media nümayəndələrinin də hələ beynəlxalq aləmlə işləmək təcrübəsi ya az idi, ya da heç yox idi.

Əlbəttə, bu, təkcə Ermənistan hərbi-siyasi hakimiyyətinin törətdiyi cinayətlərlə deyil, ümumilikdə, Azərbaycana qarşı təcavüzkar və işğalçı müharibə, torpaqlarımızın işğalı, baş verən digər proseslərlə bağlı idi. Amma müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycan mediasının inkişafından, jurnalistlərimizin peşəkarlığının təkmilləşməsindən və xarici aləmə çıxışı genişlənəndən sonra vəziyyət kökündən dəyişdi. İnformasiya blokadası aradan qaldırılmağa başlayandan sonra dünya ictimaiyyəti münaqişənin nədən qaynaqlanması, kimin ədalətli tərəf olması haqqında məlumatlandırıldı və mediamız Azərbaycanın haqlı tərəf olmasını, torpaqlarımızın işğala məruz qalmasını və sair məsələləri obyektiv olaraq dünya ictimaiyyətinə çatdırmağa nail oldu. Bu işdə həm Ulu öndər Heydər Əliyevin, həm də Prezident cənab İlham Əliyevin çevik xarici siyasətini, diplomatik ustalığını da xüsusi qeyd etmək istərdim. Çünki həm Ulu öndər Heydər Əliyev, həm Prezident İlham Əliyev hər hansı xarici ölkəyə səfəri, hər hansı beynəlxalq təşkilatda iştirakı, hər hansı xarici media nümayəndəsinə müsahibələri zamanı münaqişənin əsas mahiyyətini, erməni terrorizminin məram və məqsədini çox təmkinlə, müdrikcəsinə, böyük ustalıqla onları dinləyən auditoriyaya açıqlayırdılar.

Vətən müharibəsi dövründə də bu proses çox böyük intensivliklə dünya mediasında işıqlandırılırdı və bizim üçün çox fərəhli haldır ki, prokurorluq orqanları Ermənistan hərbi-siyasi hakimiyyətinin Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi hərbi cinayətlərin dərhal təhqiqatını aparır, əldə olunan sübutlar və faktlar mediaya, beynəlxalq hüquq institutlarına, insan hüquqlarının müdafiəsi təşkilatlarına çatdırılırdı.

# dövlətçiliyin ən qiymətli uğurudur

## həmişə fəxarət duyacaqlar

Azərbaycan xalqına qarşı törədilən, insanlıq əleyhinə olan cinayətlərin istintaqına gəldikdə isə deməliyəm ki, əlbəttə, bunlar çox mühüm əhəmiyyət kəsb edir. Sübutların toplanması, faktların dəqiq müəyyən olunması, həmin cinayətləri törədənlərin şəxsiyyətlərinin dəqiqliklə müəyyənləşdirilməsi vacib məsələlərdir. Çünki istintaq elə prosesdir ki, orada hər bir şəxsin məsuliyyətinin fərdiləşdirilməsindən söhbət gedir. Prokuror ümumilikdə kimlərəsə, ümumi kütləyə ittiham verə bilməz. Prosessual qanunların tələblərinə uyğun olaraq ittihamlar konkret olur və konkret şəxslərə verilir. Bax, bu istiqamətdə prokurorluq orqanları, ümumən hüquq-mühafizə orqanları, düşünürəm, çox səmərəli işlədilər.

***– Bir ilə yaxındır ki, paytaxt Bakıda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşlarının məhkəməsi davam edir. Dövlət ittihamçısı olaraq Azərbaycan Prokurorluğunun istintaq materiallarında elə faktlar varmı ki, onlar xalqımıza, eləcə də beynəlxalq ictimaiyyətə məlum olmamış olsun?***

– Bu cinayətlərlə bağlı bizdə qaranlıq məqamlar, demək olar ki, yoxdur. Bütün cinayətlərin təhqiqatı aparılıb, faktlar aşkar olunub və bizə məlumdur. Bu barədə də biz media üzərindən cəmiyyətimizi kifayət qədər məlumatlandırmışıq. Bir faktı diqqətə çatdırmaq istərdim və yəqin bilirəm ki, bu, ictimaiyyətin marağında olan məsələdir. 1980-ci illərin ortalarından son dövrə qədər prokurorluq və ayrı-ayrı istintaq orqanlarında 2548 cinayət işi açılmışdır. 2023-cü ildə antiterror tədbirlərindən sonra qondarma "DQR"in rəhbərləri və digər şəxslər məsuliyyətə alınandan sonra, Baş Prokurorluq bütün bu işləri bir icraatda birləşdirdi. Həm Hərbi Prokurorluqdan, həm digər istintaq qruplarından o işləri götürüb Baş Prokurorluqda birləşdirdik və bütün bu işlər üzrə istintaq hərəkətləri aparıldı. Bu işdə Baş Prokurorluğun rəhbərliyi altında çalışan Dövlət Təhlükəsizlik Xidməti orqanlarını, Daxili İşlər Nazirliyini, Dövlət Gömrük Komitəsini və eyni zamanda, xüsusi olaraq Hərbi Prokurorluğu qeyd etmək istərdim. Nə üçün Hərbi Prokurorluğun adını ayrıca çəkirəm? Çünki Azərbaycan Hərbi Prokurorluğunda xüsusi istintaq şöbəsi vardı və bu şöbə bilavasitə Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətlərin istintaqı ilə məşğul idi. Bu növ cinayətlərlə bağlı bütün materiallar orada toplanırdı.

Açığını deyim ki, bu cinayətlərlə bağlı bizim istintaq orqanlarına bütün işlər məlumdur. Sadəcə, bəzi cinayətlərdə şərəf və ləyaqətlə bağlı olan məsələlər var və biz onları açıqlamırıq. Qalan bütün məsələlər barədə xalqımıza açıq məlumat veririk.

***– Ermənistan silahlı birləşmələri təkcə Azərbaycanın dinc əhalisinə qarşı deyil, suveren ərazilərimizi işğal etməklə, şəhərlərimizi, qəsəbə və kəndlərimizi viran qoymaqla da son dərəcə amansız cinayətlər törətmiş və müstəqil Azərbaycana dəyəri milyard manatlarla ölçülən maddi ziyan vurmuşlar. Bu ziyanın məbləğinin müəyyənləşdirilməsi, Ermənistanın ölkəmizə vurduğu maddi ziyana görə reparasiya, yəni təzminat ödəməsi ilə bağlı hüquqi tədbirlər görülürmü? Beynəlxalq qurumlar və hüquq institutları ilə bu sahədə hər hansı bir iş aparılırmı?***

– Tamamilə aktual bir məsələyə toxundunuz. Bunun xalqımızın, cəmiyyətimizin diqqətində olmasını da təbii hesab edirəm. Ermənistan hərbi-siyasi hakimiyyətinin və onların silahlı qüvvələrinin törətdikləri cinayətlərin təhqiqatı, Azərbaycana vurduqları maddi ziyan bizim üçün çox əhəmiyyətli idi. Çünki elan etdiyimiz ittihamda vurulan ziyan mütləq müəyyən edilməli idi. Amma bu, çox vaxt və enerji tələb edən, ancaq son dərəcə zəruri olan element idi.

Baş Prokurorluq olaraq biz bu məsələni Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında qaldırdıq. Mənim tərəfimdən Baş nazir cənab Əli Əsədova məktub ünvanlandı və təklif edildi ki, vurulan ziyanı müəyyənləşdirmək üçün dövlət komissiyası yaradılsın. Əlbəttə, möhtərəm Prezidentin tapşırığı və nəzarəti ilə belə bir komissiya yaradıldı. Aidiyyəti dövlət qurumlarının nümayəndələri, mütəxəssislər və həmçinin prokurorluğun nümayəndələri də həmin komissiyaya daxil edildi və Baş Prokurorluğun təqdim etdiyi materiallar əsasında ciddi işlər başlandı. Əldə edilən faktlar, cinayət yerlərinə baxışlar, arqumentlər və araşdırmalardan sonra bu ziyanın miqdarı müəyyənləşdirildi.



Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm: burada iki növ ziyandan söhbət gedir. Birincisi, birbaşa dəyən ziyan. Biz istintaqçılar, cinayət təqibi orqanı, prokurorluq üçün bu çox vacibdir. Çünki biz ittihamda birbaşa dəyən ziyanı göstəririk. Bir də var birbaşa olmayan, dolayısı ilə olan ziyan. Məsələn, minaların təmizlənməsi ilə bağlı Azərbaycan tərəfinə dəyən ziyan. Axı Ermənistan silahlı qüvvələri bu minaları Azərbaycan torpaqlarında basdırıblar və biz bunların təmizlənməsinə külli miqdarda vəsait sərf edirik. Eləcə də digər sahələrdə, bərpa işlərində çəkilən xərclər. Mülki qaydada bununla bağlı iddia vermək mümkündür. Son olaraq deyim ki, birbaşa dəyən ziyan 103 milyard manat müəyyən edilib. Amma dolayısı ilə olan ziyan arta-arta davam edir, çünki ildən-ilə dövlət yenə minaların təmizlənməsinə vəsait xərcləyir. O ziyanın məbləği daha da böyükdür, səhv etmirəmsə, 150 milyard manatı ötüb keçir.

***– Təzminat məsələsi təkcə ölkəyə vurulan maddi ziyanla məhdudlaşmır. Ermənistan silahlı qüvvələri və erməni qanunsuz silahlı dəstələri işğal olunmuş ərazilərdə yaşayan vətəndaşlarımıza da son dərəcə böyük fiziki, maddi və mənəvi ziyan vurublar. Yəqin bu qisimdən olan vətəndaşlarımıza da Ermənistan tərəfinin təzminat ödənməsi barədə Azərbaycan Prokurorluğu ciddi işlər görür?***

– Komissiya bütün bunları hesablayıb. Təbii ki, təcavüz prosesində və işğal dövründə hər bir vətəndaşa, ailəyə dəyən maddi ziyan ödənilsə də, mənəvi ziyan, əlbəttə, ölçüyə gələn deyil. Amma onun da hesablanma qaydaları var. O mənəvi ziyanı maddi dəyərə çevirib təzminat tələb etmək artıq vətəndaşlarımızın şəxsi işidir. Mənəvi ziyan çəkmiş hər vətəndaşın bununla bağlı iddia qaldırmaq hüququ var.

***– Kamran müəllim, son illərdə Baş Prokurorluq Bakıda bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çoxuna mən də jurnalist kimi dəvət edilmişəm. Təbii ki, gələnlərin tam əksəriyyəti beynəlxalq hüquq institutlarının, insan hüquqlarını müdafiə təşkilatlarının, Azərbaycana dost olan və olmayan ölkələrin prokurorluq orqanlarının nümayəndələridir. Onların Ermənistan silahlı birləşmələrinin, qanunsuz hərbi dəstələrin təcavüz dövründə və işğal illərində ölkəmizə və xalqımıza qarşı törətdikləri insanlıq əleyhinə olan cinayətlərə, xalqımıza qarşı soyqırımına, şəhər və kəndlərimizi amansızcasına dağıtmalarına münasibəti necədir, həmkarlarınızın fikirlərini nə qədər ədalətli, obyektiv hesab edirsiniz?***

– Əlbəttə, təkcə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə deyil, həmçinin xarici ölkələrdə keçirilən toplantılarda, ümumiyyətlə, bütün platformalarda Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin acı nəticələrini, soyqırımı kimi ağır və amansız cinayət faktlarını xarici həmkarlarımızın diqqətinə çatdırmağa, onları bu barədə məlumatlandırmağa çalışmışıq. Əslində onların özlərində də buna böyük maraq olub. Bu kimi hadisələr müxtəlif bölgələrdə gedən lokal münaqişələrdə də qeydə alınır deyə, bu təcrübəni öyrənməyə maraq göstərirlər.

Məsələn, indi haqqında danışdığımız cinayət işlərinin istintaqı ilə bağlı Azərbaycan Prokurorluğu müəyyən presedentlər yaradıb. Biz özümüz də bu cinayətlərin istintaqı zamanı digər dövlətlərin, məsələn, Balkan ölkələrində baş verən cinayətlərin tədqiqat təcrübələrini araşdırıb öyrənmişik. Yəni peşəkarlıq baxımından da bunlar xarici həmkarlarımız üçün vacib hesab edilir.

Biz bunu təkcə müxtəlif tədbirlərdəki məruzələrimizlə, yaydığımız bukletlərlə, kitablarla deyil, həm də əyani şəkildə nümayiş etdirməyə çalışırıq. Məsələn, Bakıda beynəlxalq tədbirlərdə iştirak edən xarici həmkarlarımızı işğaldan azad edilmiş ərazilərə səfərə aparır, ermənilərin törətdikləri dağıntıları, viran qoyduqları Azərbaycanın yaşayış məntəqələrini onlara göstərir və izahlar veririk.

Yaxşı xatirimdədir, o vaxt cənab Prezidentimiz "Hərbi qənimətlər parkı"nın yaradılmasına göstəriş verəndə, Azərbaycana qarşı ikili standartlardan çıxış edən, qələbəmizi heç vəchlə həzm edə bilməyən bədxah ölkələr bunu sərt tənqid etməyə başladılar. Guya bu parkın yaradılması erməni xalqına qarşı nifrət hissinin oyadılmasına xidmət edir. Tamamilə yanlış bir yanaşmadır.

Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyinə qarşı nifrət yaratmaq üçün xüsusi bir parka ehtiyac yoxdur. Elə xalqımızın nümayəndələrini dağıdılmış, yerlə-yeksan edilmiş Ağdama, Cəbrayıla, Zəngilana və işğaldan azad edilmiş Qarabağın digər yaşayış məntəqələrinə səyahətə aparsaq və insanlar oralardakı vəhşilikləri gözləri ilə görsələr, bu yetər, artıq təbliğata ehtiyac qalmaz.

Biz xarici ölkələrdən gələn qonaqlarımızı, beynəlxalq tədbirlərin iştirakçılarını bu yerlərə aparıb dağıntları onlara göstərəndə, artıq söz deməyə ehtiyac qalmır. Ermənistan silahlı birləşmələrinin işğalının qəddar və amansız izləri onların simasını açıb göstərir.

***– Cənab Baş prokuror, başqa bir sualım prokurorluq orqanlarının apardığı istintaq materiallarının, ittihamlarının tarixçilərimiz, tədqiqatçılarımız, elə jurnalistlərimiz üçün gələcəkdə əlçatan olub-olmaması ilə bağlıdır. Yəni bu istintaq materiallarının saxlandığı arxivlər tarixçi-alimlərimizin, tədqiqatçı jurnalistlərimizin üzünə açıla bilərmi? Çünki nə qədər acı olsa da, bunlar bizim ölkəyə qarşı savaşın tarixini əks etdirir...***

– Təbii, buna imkan veriləcək. İndi məhkəmə prosesi gedir. Biz beynəlxalq konvensiyaların, beynəlxalq qanunvericiliyin, ölkə qanunlarının tələblərinə çox həssaslıqla riayət edirik. Təqsirsizlik prizumpsiyasını pozmuruq. Məhkəmənin davam etdiyi bütün proseslər dövründə onların hüquqları tam təmin olunur.

Amma ümumən 1987-ci ildən son dövrlərə qədər baş vermiş hadisələr onu göstərir ki, biz bunu dərindən öyrənməli, təhlil etməli, qiymətləndirməli və xalqımıza çatdırmalıyıq. Gələcək nəsillər Ermənistan terrorçularının, keçmiş hərbi-siyasi hakimiyyətin və terrorçu hərbi birləşmələrinin törətdikləri vəhşilikləri, qanunsuzluqları, xalqımıza qarşı təcavüzün köklərini bilməlidirlər. Eyni zamanda, onlara qarşı xalqımızın apardığı mübarizəni, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin dəyərini bilməli və qiymətləndirməlidirlər.

***– Kamran müəllim, bu gün Zəfər tariximizin 5 illiyini qeyd edirik. Bu 5 ildə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda çox sürətli bərpa-quruculuq işləri həyata keçirilir, yeni şəhərlər, ən müasir texnologiyalarla təchiz edilən müasir, "ağıllı" qəsəbə və kəndlər salınır. Artıq qaçqın və köçkünlük adını üstündən atmış insanlar bu yaşayış məntəqələrinə, doğma yurdlarına dönürlər. Demək, burada hüquq-mühafizə orqanlarının işi də öz ritminə düşməlidir. Bərpa edilən ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili sahəsində hansı işlər görülüb və görülməkdədir?***

– Vacib məsələyə toxundunuz. Bu gün möhtərəm Prezidentimizin bilavasitə rəhbərliyi, mən deyərdim ki, birbaşa iştirakı ilə Qarabağda misilsiz quruculuq işləri həyata keçirilir və bu işlər bir an olsun belə dayanmır. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu yaşayış məntəqələrimizin, şəhərlərimizin, qəsəbə və kəndlərimizin tikintisi ən müasir texnologiya və şəhərsalma qaydalarına uyğun şəkildə aparılmaqla yanaşı, erməni silahlı birləşmələrinin törətdikləri vəhşiliklərin izləri də bir görk olaraq qorunub saxlanılır. Bu, bütün xalqımız kimi, bizim prokurorluq orqanlarını da çox qürurlandırır.

Mən özüm də, Baş Prokurorluğun digər rəhbər işçiləri də bərpa-quruculuq işlərinin getdiyi yaşayış məntəqələrinə tez-tez səfərlərdə oluruq və bunu çox vacib vəzifə hesab edirik.

Digər tərəfdən, sizin də dediyiniz kimi, artıq on minlərlə Azərbaycan vətəndaşı yeni salınan və bərpa edilən yaşayış məntəqələrinə, öz doğma yurd yerlərinə qayıdıblar. Həyat sürətlə öz ritminə düşür və təbii ki, bu yerlərdə artıq hüquq-mühafizə orqanları, o cümlədən prokurorluqlar da fəaliyyətə başlayıb, qanuni vəzifələrini yerinə yetirir, asayişin, qanunçuluğun təmin edilməsinə töhfələrini verirlər.

2021-ci ilin aprel ayında Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yeni prokurorluqlar - Kəlbəcər və Qubadlı hərbi prokurorluqları yaradıldı. Bu prokurorluqlar da Baş Prokurorluq tərəfindən tam komplektləşdirilib və onların fəaliyyətinin təmin edilməsi üçün maddi-texniki baza yaradılıb.

***– Nəhayət, son sualımızı vermək istərdim. Zəfər Günümüzün 5 illiyi çox əlamətdar bir tarixi dövrə – "Konstitusiya və Suverenlik İli"nə təsadüf edib. Bu Zəfərin bərpa etdiyi Azərbaycanın dövlət suverenliyinin, ümumiyyətlə, tarixi müstəqilliyimizin əbədiyyətə qədər qorunması yolunda təkcə prokurorluq əməkdaşlarına deyil, gənclərimizə, illər sonra qanunlarımızın keşiyində duracaq hüquqşünas kadrlara nə tövsiyə edərdiniz?***

– 2020-ci il 8 Noyabr Zəfəri müstəqil dövlətçiliyimizin ən qiymətli tarixidir. Nəsillər bu tarixi həmişə anacaq və onunla qürur, fəxarət duyacaqlar. Təkcə prokurorluq orqanlarında çalışacaq gənclərə deyil, bütün Azərbaycan gənclərinə tövsiyə edərdim ki, hər şeydən əvvəl, vətənpərvər olsunlar. Vətənə, dövlətə sadiq olsunlar. Bu, müstəqil Azərbaycanın inkişafı, əbədi yaşaması üçün çox vacib bir elementdir.

İkincisi, peşələrini sevsinlər və onu dərindən, incəliklərinə qədər mənimsəyib peşəkar olsunlar. Hüquq-mühafizə orqanlarında işləmək, istintaq aparmaq, cinayətləri obyektiv təhqiq edib açmaq kənardan göründüyü qədər də asan deyil. İnsan taleyi ilə bağlı olduğu üçün kifayət qədər mürəkkəb bir peşədir.

Üçüncü tövsiyəm də ondan ibarətdir ki, Azərbaycan kifayət qədər mürəkkəb coğrafi regionda qərarlaşıb. Gənc hüquqşünaslarımız dövlətimizin keçmiş və yaxın tarixini dərindən bilməlidirlər. Bu tarixi bilmədən biz ölkəmizin əmin-amanlığını təmin edə bilmərik. Gənclərimiz ölkəmizi haradan və hansı qüvvələr tərəfindən təhlükə gözlədiyini unutmamalıdırlar. Ona görə regionda gedən geosiyasi prosesləri diqqətlə izləməli, dərk etməlidirlər. Müstəqilliyimizin bərpasından sonra baş verən hadisələr, ölkəmizə olan münasibətlər bizim üçün dərsdir. Bu dərsi unutmamalı və bundan nəticə çıxarmalıdırlar. Hesab edirəm ki, sadaladığım bu 3 element gənc hüquqşünaslarımız üçün kifayət qədər mühüm məqamlardır.



***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Qəhrəmanlıqla yazılmış şərəf və ləyaqət salnaməmiz

**Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsində əldə etdiyimiz möhtəşəm zəfərin 5-ci ildönümünü qeyd edir. Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzidir. 2020-ci ilin payız günlərində Qarabağ torpaqlarımızdan gələn xoş xəbərlər hər birimizdə böyük sevinc və qürur yaratdı, xalqımız son üç onillik ərzində həsrətində olduğu möhtəşəm qələbənin sevincini yaşadı.**

Ermənistanın 2020-ci il sentyabrın 27-də başlatdığı növbəti irimiqyaslı hərbi təxribatlarına, yeni işğalçılıq planlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən müharibədə düşmən ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Müharibə nəticəsində işğal altındakı ərazilərin böyük hissəsi azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri həmin ilin sonuna kimi ərazidən çıxarıldılar. Bununla da tarixi torpaqlarını işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının bütün qətnamələrini özü yerinə yetirdi. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı torpaqlarımızın 30 illik işğalına son qoyulması, ərazi bütövlüyümüzün bərpası ilə başa çatdı.

Tarixə qızıl hərflərlə yazılan 2020-ci ilin Zəfərinə aparan yol, bu Qələbəni şərtləndirən amillər kifayət qədərdir. Ən həlledici məqam, şübhəsiz ki, dövlət başçısının rəhbərliyi ilə güclü, nizami hərbi birləşmələrin formalaşdırılması istiqamətində reallaşdırılan ordu quruculuğu siyasətidir. Bu xüsusda müdafiə sənayesinin inkişafı, ən yeni texnika və texnologiyalarla təminatla yanaşı, milli kadr potensialının artırılması, döyüş hazırlığının yüksəldilməsi də əsas prioritet məsələ kimi diqqət çəkir. Çünki Qalib Liderin də dediyi kimi, nə qədər güclü texnika, texnologiya olsa da, bayrağı qaldıran, bayrağı azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. O, sinəsini önə verərək döyüşür, o, Vətən uğrunda gözünü qırpmadan şəhidlik şərbətini içir. Bu mənada, dövlət himnimizdə əksini tapan "Vətən üçün qan tökməyə, Vətən üçün can verməyə" hazır Azərbaycan gəncliyi dövlətin milli ideologiya, azərbaycançılıq ideologiyasının əsas təntənəsi kimi, 44 gündə özünü ən bariz şəkildə göstərdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin qanı-canı bahasına, qazilərimizin fədakarlığı sayəsində Azərbaycan "münaqişənin hərbi həlli yoxdur" tezisinin yanlış olduğunu sübuta yetirdi. 8 noyabr 2020-ci il, Ümummilli lider Heydər Əliyevin təbirincə desək, Azərbaycanın gözü, hər bir azərbaycanlı üçün iftixar nöqtəsi, mədəniyyətimizin və tariximizin rəmzi olan Şuşa şəhərinin işğaldan azad edildiyi tarixi gündür. Vətən müharibəsini qələbə ilə sonlandıran Zəfər Günüdür. Qarabağ münaqişəsinə Silahlı Qüvvələrimizin şücaəti və qəhrəmanlığı ilə nida qoyulduğu, bizlərə yüksək fəxarət, hədsiz fərəh və qürur hissləri yaşadan əlamətdar gündür. Həmin gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana yerini tanıtdı. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.



İkinci Qarabağ müharibəsində istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və dünyanın ən məşhur hərbi institutları tərəfindən araşdırılmaqla ətraflı şəkildə öyrənilməkdədir. Bütün bunlar Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun gücündən, özünəməxsus bacarıq və səriştəsindən xəbər verir. Qəhrəman ordumuz bu gün Zəfər Günümüz kimi qeyd etdiyimiz, Azərbaycanın və dünya hərb tarixinin şanlı səhifələrindən birini təşkil edən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq mədəniyyət beşiyimizi, ruhumuzun paytaxtını işğaldan azad etdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın 30 ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. 28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq... Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Böyük Qələbəni yaxınlaşdıran ən vacib amillərdən biri də, təbii ki, "dəmir yumruq" ətrafında sıx birləşən xalqımızın həmrəyliyi, birliyi oldu. Sentyabrın 27-dən etibarən peşəsindən, mövqeyindən asılı olmayaraq, böyükdən-kiçiyə hər bir azərbaycanlının ürəyi cəbhə ilə döyünür, hər kəs məğrur oğullar üçün, zəfər naminə əlindən gələni əsirgəmirdi. Müzəffər Ali Baş Komandan həm cəbhədə gedən döyüşləri koordinasiya edir, xalqımıza zəfər müjdələri verir, həm də xarici jurnalistlərin suallarına müfəssəl şəkildə aydınlıq gətirir, xüsusən də apardığımız ədalətli müharibəyə düşmən mövqeyindən yanaşan media nümayəndələrini, Qərb siyasi dairələrini tutarlı cavablarla yerinə oturdurdu. Bir sözlə, Azərbaycan təkcə Ermənistana qarşı əks-hücum əməliyyatı keçirmir, həm də xalqımıza yönələn siyasi, iqtisadi, sosial, mənəvi hücumlara qarşı da döyüşürdü, mübarizə aparırdı. Dövlət başçısı İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə xarici mətbuata 30-dan artıq müsahibəsinin hər biri Azərbaycanın diplomatik uğuru kimi tariximizə yazıldı.

İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr Azərbaycan mediasının fəaliyyətinə də istiqamət verdi. Mübaliğəsiz demək olar ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni siyasi nitq strategiyası hesab edilə bilər. Müsahibələr bir-birinin ardınca, dünyanın ən müxtəlif ölkələrinin, müxtəlif kanalları vasitəsilə aparılırdı. Azərbaycan Prezidenti informasiya cəbhəsində də qalib gəldi. Dövlət başçısının jurnalistlərin suallarına cavabında gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. Prezident İlham Əliyevin ürəkdən gələn, xalqın hiss və duyğularını əks etdirən hər bir sözü, hər bir fikri millətimizin hafizəsinə əbədi həkk olundu.

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə öz gücünü bütün dünyaya sübut edərək, regionda yeni reallıqlar yaradıb. Bu gün həmin reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Ədalətli qələbənin bölgədə yaratdığı reallıq regionda davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Şanlı Qələbəmizdən sonra ölkəmizdə yeni dövr başlayıb. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri uğurla icra olunur. Həyata keçirilən abadlıq-quruculuq işləri ilə erməni vəhşiliyinin qurbanı olan şəhərlərimiz, qəsəbələrimiz və tarixi abidələrimiz bərpa olunur, azad Qarabağımıza yeni nəfəs gəlir.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində ordumuzun gücü ilə tarix yazdı. Xalqımızı öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən güclü dövrünə yetişdi. Qazanılan Zəfər möhtəşəm və qürurludur. Bu Zəfər Ali Baş Komandan ətrafında birləşərək "Dəmir yumruq" yaradan xalqın qalibiyyətidir. Döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də Azərbaycanın parlaq tarixi qələbəsidir. Bu Zəfər Azərbaycan xalqının misli görünməmiş qəhrəmanlıq salnaməsidir. Bu əlamətdar gün dövlətçilik ənənələri ta qədimlərə söykənən Azərbaycan xalqının birlik, şərəf, məğrurluq, qürur və ədalət bayramıdır, tariximizə qızıl hərflərlə yazılan, dünya hərb elminə dair dərsliklərə düşən, ordumuzun qüdrətini bütün dünyaya tanıdan böyük hadisədir. Hədd-hüdudu olmayan fərəh, xoşbəxtlik məhz budur!

Ən əsası isə bu sevincdən hamıya eyni dərəcədə pay düşməsidir. Bu, həmrəyliyimizin, birliyimizin gücünün yaratdığı nəticənin sevincidir. Azərbaycan Ordusunun qələbəsi tariximizi böyütdü, qətiyyətimizi artırdı. Bu xalqın hər bir təmsilçisinin köksünü dolduran, bizi birləşdirən, qürurlu edən qələbə ruhu ilə yeni bir başlanğıca qədəm qoyduq.

Qazandığımız Zəfər xalq olaraq bizi ölkə rəhbərinin ətrafında ali amal uğrunda "dəmir yumruq" kimi birləşdirdi. Elə-obaya, Vətənin torpağına-daşına, suyuna, arana-dağına sonsuz sevgi və məhəbbətimizi nümayiş etdirdi. Böyük Qələbə torpaq uğrunda gözünü qırpmadan özünü fəda edən igid oğulların qəhrəmanlığı sayəsində əldə olundu. Xalqımızın ölkə rəhbərinə olan sevgisini, inamını, etimadını daimi yaşadan Qələbə oldu. Zəfər Günü Azərbaycan xalqının və dünya azərbaycanlılarının Müzəffər Ali Baş Komandana əbədi minnətdarlıq bayramıdır.

Dövlətçiliyimizin ən şərəfli səhifəsinə qızıl hərflərlə yazılan şanlı Zəfərlə Azərbaycan dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü bir daha təsdiqlədi. Bu gün üçrəngli Azərbaycan bayrağının qürurla dalğalandığı Vətən torpaqlarında həyat yenidən qaynayır, ölkə rəhbərliyinin davamlı diqqət və qayğısı sayəsində aparılan geniş vüsətli yenidənqurma və quruculuq işləri xalqımızın gücünü, qurub-yaratmaq eşqini, coşqusunu bütün dünyaya bir daha nümayiş etdirir. Müqəddəs Vətən torpaqlarında göylərə ucalan dualar, səslənən hər bir uşaq səsi, əkilən hər bir ağac bu Zəfərin davamıdır. Azərbaycan xalqı azad Vətən torpağında artıq öz şərəfli tarixini qürurla, ləyaqət və sevinclə, bəxtiyarlıqla özü yazır! Zəfər günümüz mübarək olsun!

*Fəzail İBRAHİMLİ,*
*Milli Məclisin deputatı*

# Azərbaycan tarixinin ən böyük Qələbəsi

**8 Noyabr Zəfər Günü Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri, Lider-Xalq-Ordu birliyinin, eləcə də vətənpərvərlik ruhunun ifadəsidir. Tarixi dönəmə nəzər salsaq görərik ki, son 200 il ərzində parçalanan, ərazilərini itirən Azərbaycan ilk dəfə ərazi bütövlüyünü, suverenliyini tam təmin etmiş oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciəti tariximizin yeni salnaməsini yaratdı. Ədalətin təntənəsi milli yaddaşımıza Zəfər Günü kimi əbədi həkk olundu. Bu Zəfər xalqın haqqını və qürurunu geri qaytardı. Bununla da Ermənistanın qanunsuz hərbi işğalına, "Qarabağ Ermənistandır" kimi avantürist ritorikasına son qoyuldu.**



Münaqişənin nizamlanması üçün 1992-ci ildə təsis olunmuş ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə problemin həllinə yox, dondurulmasına səy göstərmiş, beləliklə də aparılan dinc danışıqlar heç bir nəticə verməmişdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Ermənistanın artan hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsi Azərbaycan torpaqlarının azad edilməsində yeni mərhələnin başlanğıcı oldu. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, o qətnamələr bundan sonra 100 il də icra edilməyəcəkdi".

Azərbaycan Prezidentinin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd olunur. Bu gün siyasi-milli iradənin, birliyin təcəssümüdür. Bölgədə yeni reallıqlar və sülh üçün tarixi imkanlar yaradan Zəfərimiz otuz ilə yaxın davam edən erməni işğalına son qoydu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu ayyarım ərzində şəhər, qəsəbə və kəndləri, eləcə də mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Şuşa Zəfəri isə işğal altındakı Kəlbəcər, Ağdam və Laçını 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtinə uyğun olaraq bir güllə atılmadan azad edildi.

"Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik", – deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçımızın 2003-cü ildən başlayaraq işğal altındakı ərazilərimizin azad olunması istiqamətində həyata keçirdiyi tədbirlər 44 günlük Vətən müharibəsində öz sözünü dedi. Dövlət başçımız bunu belə ifadə edib: "Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq". 2003-2020-ci illər ərzində Azərbaycanın iqtisadi qüdrətinin artırılması, beynəlxalq nüfuzunun güclənməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi Qələbədə müstəsna rol oynadı.

Xalq–Ordu–İqtidar birliyi gücləndi və bir yumruq kimi birləşməyi bacardı. Məhz "dəmir yumruq" düşmənin belini qırdı. "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var – əvəzolunmaz təcrübə. İndi bütün ölkələr Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq–iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir", – deyə Prezident bildirib.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın ən mühüm şərtlərindən biri erməni silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazilərindən çıxarılması idi. 2021-ci ildə Laçın sərhəd-buraxılış məntəqəsi qurulanadək Ermənistanda istehsal olunmuş minalar Azərbaycanın Qarabağ bölgəsinə daşınır, kütləvi şəkildə basdırılırdı. Müharibədən sonrakı dövrdə Azərbaycan beynəlxalq platformalarda ermənilərin ərazilərimizdə mina terroruna, digər təxribatlarına hüquqi qiymət verilməsini dəfələrlə tələb etsə də, Ermənistana lazımi təzyiq göstərilmədi. Vətən müharibəsindən sonra ən qanlı toqquşma 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş verdi. Bu döyüşlərin səbəbi Ermənistan silahlı qüvvələrinin 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı hərbi təxribatlar törətməsi idi. Öz çirkin niyyətindən əl çəkməyən düşmənin qeyri-qanuni silahlı birləşmələri 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində, Şuşa istiqamətində təxribata əl atdı. Azərbaycan qanunsuz erməni qüvvələrinin torpağımızda mövcudluğuna son qoymaq və öz ərazilərində suverenliyini tam bərpa etmək məqsədilə Qarabağ bölgəsində 23 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri müsbət nəticəsini verdi, separatçılar təslim oldular və əməliyyat tam və qəti qələbəmizlə başa çatdı. Bu münasibətlə Ali Baş Komandan belə deyib: "Bir sutkadan az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və ordumuz öz gücünü bir daha göstərdi".

Bu tədbirlər nəticəsində üçrəngli bayrağımız azad edilmiş bütün ərazilərimizin üzərində dalğalanmağa başladı. Qeyri-qanuni erməni silahlı birləşmələri tərki-silah edildi və Azərbaycan öz dövlət suverenliyini tam və qəti şəkildə bərpa etdi.

Ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərpa olunmasından iki il ötür. XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusu 44 günlük uğurlu əməliyyat nəticəsində 30 ilə yaxın işğal altında inləyən torpaqları erməni təcavüzkarlarından təmizlədi və bu gün paytaxtdakı Hərbi Qənimətlər Parkında düşmənin döyüş meydanında qoyub qaçdığı ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər silah-sursatlar nümayiş olunur.

Bu gün əsas hədəfimiz Qarabağın bərpası və Böyük Qayıdış planını reallaşdırmaqdır. Artıq "dəmir yumruğ"un yaratdığı yeni reallıqla hamı hesablaşır. Bu reallıq regionun sülh və sabitliyə, təhlükəsizliyə yolunu açır. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət bölgə ölkələri ilə yanaşı, Avrasiya məkanında əməkdaşlığa və tərəqqiyə zəmin yaradıb.

Zəngəzur dəhlizi təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyətli layihədir. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, yurd-yuvasından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması prioritet məsələlərdəndir. Böyük bərpa-quruculuq işləri bu ərazilərin əksəriyyətinə yeni həyat bəxş edib. İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri aparılır, 50 mindən çox keçmiş məcburi köçkün doğma yurdlarına qayıdıb, burada həyat öz axarına düşüb. Aparılan kompleks islahatlar, geniş quruculuq işləri və güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir.

Uğurlu inkişaf dövrünü yaşayan və tarixi qələbələrə imza atan Azərbaycanda 2025-ci il Prezident İlham Əliyevin sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan olunub. Bu gün xalqımız Konstitusiyamızın bəyan etdiyi prinsiplərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Zəfərimizin 5-ci ildönümünü qürur dolu sevinclə qeyd edir. Müstəqil və suveren dövlətə sahib olmaq Azərbaycan xalqının ən böyük arzusu və itirilmiş tarixi haqqı idi. Biz bu gün həm də tarixi ədalətin bərpasını, böyük arzumuzun çin olmasını bayram edirik.

*Azər SÜLEYMANOV,*
*Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru*

# Şuşaya qayıdış milli qeyrətin təntənəsi idi

**Qədim Şuşanın 5 il öncə azadlığa qovuşması ilə Vətən tariximizin qəhrəmanlıq salnaməsinə daha bir parlaq səhifə yazıldı. Bu, Qarabağ torpaqlarının azadlığı uğrunda 30 illik mübarizənin son akkordu oldu. Dünya hərb tarixinə möcüzə kimi yazılan bu möhtəşəm qələbə, sadəcə, rəşadətli Azərbaycan Ordusunun uğurlu bir hərbi əməliyyatı deyildi. Azərbaycan Ordusunun dünyaya səs salan şanlı Zəfəri milli birlik və düşüncə bütövlüyümüzün təntənəsi idi. Şuşanın öz sahiblərinə qayıtması Azərbaycan xalqının real tarixini, ulu mədəniyyətini, yenilməz qürurunu özünə qaytardı. "Qafqazın sənət beşiyi", "Odlar yurdunun qeyrət qalası" adlandırılan Şuşa hər bir vətən övladı üçün ərazi, yurd yeri olmaqdan daha öncə milli məfkurə və "könül yurdumuzun başkəndi"dir. Ona görə də bu özünəqayıdış milli məfkurənin əsarətdən xilası idi.**




Prezident İlham Əliyevin sərəncamları ilə 2021-ci ildə "Şuşa haqqında qanun" qəbul edilməsi, Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunması, 2022-ci ilin "Şuşa ili" adlandırılması, Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi kimi mənəvi dəyəri ölçüyə gəlməyən təşəbbüslər bu qədim qoruq-şəhərin tarixi gözəlliyi ilə bərabər, həm də onun vüqarını, əzəmətini özünə qaytardı. 2023-cü ilin sentyabrında Qətərin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi isə türk-müsəlman aləmində bu şəhəri "milli iradə və azadlıq rəmzi" kimi simvollaşdırdı.

2023-cü il iyulun 31-də Prezident İlham Əliyev tərəfindən imzalanan müvafiq sərəncamla noyabrın 8-i Şuşa Şəhəri Günü kimi qeyd olunur. Şuşa Azərbaycan tarixinə Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər yetişdirən mədəniyyət mərkəzidir. "Şərqin konservatoriyası" adlanan bu ecazkar sənət məbədi dünya musiqisinə Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyli, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi nadir şəxsiyyətlər bəxş edib.

Əsası 1752-ci ildə Pənahəli xan Cavanşir tərəfindən qoyulmuş Şuşa qalası 1756–1823-cü illərdə Qarabağ xanlığının paytaxtı olub və uzun müddət Pənahabad adlandırılıb. Həmin dövrlərdən etibarən şəhər Azərbaycanın tarixində mühüm rol oynayıb.

Bu qədim qala şəhərinin 3 qapısı olub: şimal cinahında Gəncə qapısı, qərbdə İrəvan qapısı və ətraf ərazilərə açılan Ağoğlan qapısı. Əlçatmaz sıldırım qayaların əhatəsində dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən bu qədim şəhər həm strateji müdafiə qalası və həm də açıq səma altında Azərbaycan memarlıq muzeyi kimi şöhrət qazanmışdı.

Bu ərazidə ən yüksək zirvə 2725 metr hündürlüyündə olan Böyük Kirs dağıdır. Burada müxtəlif növ bitki və ağaclar, Turşsu və Şırlan kimi keyfiyyətli mineral su mənbələri var. Qarqar çayı, Şuşanın şimal-şərqindəki Qarabağ dağ silsiləsinin yamacında yerləşən Çaxmaq, Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli, Topxana meşələri, Zarıslı və Xəlifəli çayları, məşhur Cıdır düzü bu yerlərin ecazkar gözəllik mənbəyidir. Cıdır düzündə, Topxana meşəsində, Üçmıxın zirvəsində, dağ yamaclarında, çay kənarlarında müalicəvi əhəmiyyətli, endemik Xarıbülbül çiçəyi Şuşanın təbiətinə xüsusi gözəllik qatır. Şuşa havasının təmizliyi, səfalı yerləri və müalicəvi əhəmiyyəti bu ərazini kurort şəhəri kimi məşhurlaşdırıb.

Heydər Əliyevin təşəbbüsü ilə hələ 1977-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust tarixli 280 nömrəli qərarı ilə Şuşa şəhəri Azərbaycan Respublikasının tarix-memarlıq qoruğu elan edilmişdir. Elə həmin illərdə Heydər Əliyevin diqqət və qayğısı sayəsində Şuşa əsaslı şəkildə, çox həssaslıqla bərpa edilmiş, şəhərin tarixi görkəmi milli memarlıq ənənələrimizlə daha da zənginləşdirilmişdir.

Həmin illərdə Şuşada Dövlət Dram Teatrı, Şuşa televiziyası, Qarabağ tarixi və Şuşa şəhərinin tarixi muzeyləri, Üzeyir Hacıbəylinin, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, 4 texnikum, 2 institut filialı, texniki peşə məktəbi, 25 orta məktəb və orta ixtisas musiqi məktəbləri, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 17 klub, 31 kitabxana, 40 tibb müəssisəsi, 2 sanatoriya, uşaq sanatoriyası, uşaq sağlamlıq məktəbi, 70 yerlik turizm bazası, mehmanxana, 5 mədəniyyət və istirahət parkı, 4 kinoteatr, çoxsaylı ictimai iaşə obyektləri fəaliyyət göstərib. Şuşa şəhərində ümumilikdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud olub.

Şəhərdə hərəsinin öz məscidi, bulağı, hamamı olmaqla, 17 məhəllə salınmışdı. İsa bulağı, Saxsı bulaq, Şor bulaq, Səkili bulağı, Şəmilin bulağı, Meydan bulağı adlanan bulaqlar göz yaşı kimi duru içməli su mənbəyi idi.

Şuşa şəhərində tarixi əhəmiyyət kəsb edən abidələrin çoxu məscidlər və məlikanələrdən ibarətdir: Yuxarı və Aşağı Gövhərağa məscidləri, Malıbəyli Məscidi, Qaybalı Məscidi, Şırlan məscidi, Alban kilsəsi, Karvansaray, Qulam Şahın, Əsəd bəyin, Mamay bəyin, Mehmandarovlar malikanələri və s. XIX əsr Azərbaycan memarlığının ən gözəl nümunələrindəndir.

Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" və ya "Qan içində" tarixi romanından məlumdur ki, hələ 1905-ci və 1920-ci illərdə Şuşa erməni hücumları nəticəsində dağıntılara məruz qalmış və yandırılmışdı. 80-ci illərin sonlarında sovet rejiminin çökməsindən istifadə edən ermənilər yenidən Azərbaycan torpaqlarını işğal etməyə cəhd göstərdilər və 1992-ci il mayın 8-də Şuşanı işğal etdilər. İşğal nəticəsində şəhərin bütün inzibati binalarını, körpüləri, tarixi-mədəni abidələrini məhv etməyə çalışan düşmənlər görkəmli şəxslərin mülklərini, bağları, qəsrləri, muzeyləri də qarət etdilər, büstlər, heykəllər və digər mədəniyyət abidələri güllələnib, təhqir edildi. Şuşa 28 il düşmən əsarətində qaldı.

Şuşa işğaldan azad edildəndən sonra Ulu öndərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev öz sərəncamı ilə Şuşanı yenidən qoruq şəhəri elan etdi. Ölkə başçısı işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəni irsimiz olan memarlıq abidələrinin qorunması, bərpası və təbliği ilə bağlı çoxsaylı qərarlar qəbul edir və tədbirlər həyata keçirir.

Bu gün Şuşanın işğaldan azad edilməsindən 5 il ötür. Şuşada, bütövlükdə Qarabağ və Şərqi Zəngəzur torpaqlarında vandalizmə uğramış tarixi-mədəni irs abidələrimiz memarlarımızın və bərpaçılarımızın səyləri nəticəsində bərpa olunur. Bülbülün ev-muzeyi və büstü, Molla Pənah Vaqifin məqbərəsi restavrasiya olunub, Üzeyir Hacıbəylinin və Bülbülün ev-muzeyləri açılıb və heykəlləri qoyulub. Tarixi mənbələrdən və arxivlərdəki fotolardan istifadə edilməklə Mehmandarovların malikanə kompleksinin əvvəlki görkəmi özünə qaytarılıb, kompleksə daxil olan bulaq şuşalıların və buranı ziyarətə gələnlərin istifadəsinə verilib. "Xarı bülbül" hotelinin istifadəyə verilməsi Şuşanın azad, məğrur və əzəmətli görünüşünü daha da gözəlləşdirib. Mamayı və Merdinli məhəllə məscidləri arxiv materiallarına əsasən, olduğu kimi yenidən inşa edilib.

Bu gün Şuşaya gələn hər kəs Azərbaycan dövlətinin həyata keçirdiyi genişmiqyaslı quruculuq işlərinin şahidi olur. Təsdiq edilmiş plan əsasında Şuşada mühüm infrastruktur layihələri sürətlə və keyfiyyətlə həyata keçirilir. Şuşanı azad edən qəhrəman oğullarımızın cəsarətlə düşmən üzərinə getdiyi cığırların, yarğanların yerində uzunluğu 101 kilometr olan "Zəfər yolu" salınıb. Yeni Əhmədbəyli–Füzuli–Şuşa yolu inşa olunub.

Şəhərin davamlı enerji ilə təmin edilməsi üçün qısa vaxtda "Şuşa", "Şükürbəyli" yarımstansiyaları və şəhəri müasir elektrik şəbəkəsi ilə təmin etmək üçün hazırlanan Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. Şəhər azad edildikdən dərhal sonra içməli su təchizatı sistemlərinin əsaslı şəkildə yenidən qurulmasına başlanılıb. Kirs–Şuşa magistral su kəmərinin 6 kilometrlik hissəsi polad borularla yenidən qurulub. Daşaltı kəndi yaxınlığında Zarıslı çayının yatağında bir bəndin, nasos stansiyasının və oradan Şuşa şəhərinədək 2,6 kilometrlik daşıyıcı xəttin tikintisi nəticəsində şəhər ilboyu fasiləsiz su ilə təmin edilib.

Bu gün Şuşa bir-birinin ardınca düzənlənən çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilib. Şuşaya ayaq basan hər bir əcnəbi "alınmaz qala"nı düşmən əsarətindən geri almış igid əsgərlərimizin şücaətinə heyranlığını gizlətmir.

Şuşanın azad olunduğu bu gün hər birimiz üçün Qarabağ uğrunda canını qurban vermiş şəhidlərimizə və qazilərimizə sonsuz minnətdarlıq günüdür.

*Şəhidlərimizin ölməz ruhuna sonsuz minnətdarlıq hissi ilə –*

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

# Ulu öndərin qalibiyyət təlimi

**Azərbaycanın müasir tarixində 2020-ci il Qarabağ Zəfəri təkcə hərbi qələbə deyildi, bu, eyni zamanda milli qürurun, strateji düşüncənin və dövlətçilik irsinin təntənəsi idi. Bu uğurun kökləri müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin qurduğu möhkəm siyasi və ideoloji təməllərdən qaynaqlanırdı.**



Dahi şəxsiyyətin ordu quruculuğu və milli həmrəyliyi gerçəkləşdirən siyasəti sayəsində Azərbaycan gələcəkdə tarixi torpaqlarını azad etmək üçün hazır vəziyyətə gətirilmişdi. Belə ki, ümummilli lider çətin, ağır illərdə Azərbaycanı üzləşdiyi böhranlardan çıxararaq dövlətin gələcək uğurları üçün əsas sütunları qurmuşdu. Onun siyasi fəlsəfəsinin əsasında güclü dövlət, milli birlik və strateji müstəqillik dayanırdı. Dahi şəxsiyyət 1990-cı illərin çətin dönəmində, iqtisadi tənəzzül və daxili qarşıdurmalar şəraitində Azərbaycanda sabitliyi gerçəkləşdirdi, dövlət institutlarını möhkəmləndirdi və milli ruhu bərpa etdi.

Onun rəhbərliyi dövründə Milli Ordunun qurulması prioritet elan edildi, xarici siyasətdə balanslı, çoxşaxəli kurs formalaşdırıldı, təhsil, elm və mədəniyyətə xüsusi diqqət göstərildi, Qarabağ məsələsi isə daim milli siyasətin əsas hədəfi kimi saxlanıldı. Ulu öndərin siyasi uzaqgörənliyinin və məsuliyyət hissinin dərinliyini isə onun 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqi aydın göstərirdi. O zaman dahi şəxsiyyət xalqa müraciətlə deyirdi: "Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, ilk növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlərə məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Bu sözlər sadəcə bir siyasi bəyanat deyildi, həm də sonrakı illərdə Azərbaycanın inkişaf yolunun ideya təməli idi. Ümummilli lider Heydər Əliyev bu təməl əsasında elə bir dövlət modeli qurdu ki, bu, illər sonra Qarabağ zəfərinin bünövrəsini təşkil etdi.

Xatırladaq ki, ulu öndər Heydər Əliyev keçmiş SSRİ zamanında da Qarabağ məsələsinə xüsusi diqqət göstərmişdi. 1969–1982-ci illərdə respublikaya rəhbərliyinin ilk dövründə Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) Azərbaycanın hüquqlarının qorunması üçün Moskvada diplomatik danışıqlar aparmış, əhalinin demoqrafik balansını qorumaq üçün inzibati qərarların qəbulunu təşviq etmişdi. Heydər Əliyev hələ Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən ermənilərin DQMV-də gizli fəaliyyətlərindən xəbərdar olmuş, onlara qarşı lazımi tədbirlər görülməsi üçün ciddi təşəbbüslər göstərmişdi.

Ulu öndər Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra vilayətin sosial-iqtisadi inkişafına dair müvafiq tədbirlərlə ermənilərin hər hansı bir narazılığına bəhanə yeri qoymamışdı, Qarabağ regionunda iqtisadi və sosial layihələri təşviq edərək Azərbaycan mədəniyyətinin möhkəmlənməsinə də xidmət etmişdi. Dahi şəxsiyyət erməni separatizmi və yerli qarşıdurmaların qarşısını almaq üçün balanslı siyasət yürüdərək regionda sabitliyi qorumuşdu.

Məhz 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra respublikada hər şey demək olar ki, tədricən müsbət istiqamətdə dəyişməyə başlamışdı. O, əsasən milli hüquqların qorunması və erməni separatizminin qarşısının alınması istiqamətində fəaliyyət göstərmişdi. Belə ki, erməni millətçilərinin xalqımıza qarşı davamlı xəyanət və cinayətlərinin tarixini dərindən bildiyinə görə respublikaya rəhbərliyinin birinci dövründən başlayaraq Ermənistanın Azərbaycana qarşı gizli ərazi iddialarının və Dağlıq Qarabağdakı erməni riyakarlıqlarının qarşısını qətiyyətlə almışdı.

Heydər Əliyev 1982-ci ildə SSRİ rəhbərliyinə – Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü keçdikdən sonra Qarabağ məsələsi SSRİ səviyyəsində geniş müzakirə edilməmişdir. Onun nüfuzu və təcrübəsi separatizmin açıq şəkildə yüksəlməsinin qarşısını almışdır. 1987-ci ildən vəzifədən uzaqlaşdırıldıqdan sonra erməni separatizmi bölgədə iddialarını artırmağa başlamışdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Qarabağ müharibəsi dövründə Azərbaycan ciddi böhran içərisində idi. Dövlətin süqut təhlükəsi, iqtisadi və hərbi zəiflik fonunda Heydər Əliyev həm cəbhədə sabitliyin təmin olunması, həm də diplomatik səylərin gücləndirilməsi istiqamətində mühüm addımlar atdı. 1994-cü ildə atəşkəsin əldə edilməsi onun rəhbərliyinin ən önəmli uğurlarından biri oldu. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq çərçivəsində təsdiqləndi, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesi başlandı. Heydər Əliyev ölkənin iqtisadi bazasını gücləndirərək gələcək hərbi-siyasi strategiyalar üçün zəmin yaratdı.

Ümummilli lider Azərbaycanın ərazi bütövlüyünü prinsipial olaraq qorumuş, dövlətin parçalanmasının qarşısını almışdı. O, strateji addımları ilə müstəqil Azərbaycanın beynəlxalq mövqeyini gücləndirmiş və gələcəkdə hərbi-siyasi imkanların inkişafı üçün əsas yaratmışdı. Azərbaycanın gələcək zəfərinə hazırlıq məqsədilə Heydər Əliyev bir sıra konkret addımlar atmışdı. Ulu öndər, eyni zamanda, dövlət idarəçiliyində sabitliyi reallaşdırmış, peşəkar və intizamlı ordu quruculuğunu prioritet elan etmiş, zabitlərin xaricdə təhsil almasını və beynəlxalq hərbi əməkdaşlığı diqqət mərkəzində saxlamışdı. Diplomatik sahədə də fəaliyyəti davam etdirərək Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etmiş, iqtisadi əsasları möhkəmləndirərək dövlətin maliyyə gücünü artırmışdı. Eləcə də milli həmrəyliyi və vətənpərvərliyi yüksək səviyyəyə qaldıraraq Qarabağ məsələsinə prioritet və milli məsələ kimi yanaşmışdı.

Prezident İlham Əliyev də bu siyasəti davam etdirərək ordunu modernləşdirdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etdi və Qarabağın işğaldan azad olunması üçün iqtisadi gücü reallaşdırdı. Bunun nəticəsində 2020-ci ildə Azərbaycan həm diplomatik, həm də hərbi baxımdan güclü mövqe ilə Qarabağ Zəfərini əldə etdi.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu uzun illər işğal altında qalan torpaqları geri aldı. Bu qələbə təkcə müasir silahlarla deyil, Heydər Əliyevin qurduğu dövlətçilik ənənəsi, formalaşdırdığı ordu və gücləndirdiyi milli ruh sayəsində əldə edildi.

Heydər Əliyev yalnız siyasi lider deyil, həm də Azərbaycanın milli yaddaşını və dövlətçilik şüurunu formalaşdıran şəxsiyyət idi. Onun strategiyası və irsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Qarabağ Zəfəri də dövlətimizin başçısının ideyalarının, xalqın birliyinin və güclü dövlət modelinin parlaq nəticəsi idi.

Xatırladaq ki, Heydər Əliyev milli həmrəyliyi və vətənpərvərlik ruhunu da gücləndirirdi. Dahi şəxsiyyət Qarabağ məsələsini təkcə siyasi və hərbi problem kimi deyil, həm də milli kimlik və mənəvi məsələ kimi təqdim edirdi. Onun çıxışlarında tez-tez səslənən "Qarabağ Azərbaycanın ürəyidir" fikri də bu istiqamətdə ideoloji xəttə çevrildi.

Vətən müharibəsində əldə edilən tarixi Zəfər bir daha göstərdi ki, milli birliyi qorumaq, strateji düşüncə ilə hərəkət etmək və vətənpərvərlik ruhunu gücləndirmək xalqı qalibiyyətə aparır. Heydər Əliyevin və İlham Əliyevin uzaqgörən siyasəti, Azərbaycan Ordusunun peşəkarlığı və xalqın iradəsi birləşərək Qarabağı azad etdi. Bu Qələbə həm keçmişin, həm də gələcəyin qürur mənbəyinə çevrildi. Beləliklə, bu tarixi hadisə həqiqi liderliyin və milli birliyin təntənəsi kimi tarixə yazıldı.

***Şəlalə QULUZADƏ,***
***Ədliyyə Nazirliyi***
***Ədliyyə Akademiyasının baş müəllimi,***
***ədliyyə müşaviri***

# İşğalçı bandaları diz çökdürən Vətən savaşı

**Tarix bəşər xalqlarının yaddaş kitabıdır. Hər bir xalqın tarixində elə günlər var ki, həmin günlər bu xalqın kimliyini, iradəsini, qürurunu əks etdirir. Azərbaycan xalqı üçün belə müqəddəs və unudulmaz günlərdən biri 8 Noyabr – Zəfər Günüdür. Bu gün Azərbaycan xalqının üç onillik həsrətinə, azadlıq və ədalət arzularına qovuşduğu gündür. 2020-ci ilin noyabrında baş vermiş tarixi qələbə təkcə torpaqların azad olunması deyildi; bu, həm də xalqımızın milli birliyinin, Vətən sevgisinin, dövlətinə və orduсuna olan inamının təntənəsi idi.**



Bəli, Zəfər Günü Azərbaycanın müstəqillik tarixində ən parlaq səhifələrdən biridir. 30 ilə yaxın davam edən Qarabağ həsrətinin bitməsi, işğal altındakı torpaqlarımızın azad olunması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, xalqımızın əsrlər boyu davam edən mübarizəsinin məntiqi nəticəsi idi. Hər bir azərbaycanlı üçün bu gün həm qürur, həm minnətdarlıq, həm də şəhidlərimizə olan sonsuz ehtiram anıdır.

## Azərbaycanın ürəyi və yarası

Qarabağ əsrlər boyu Azərbaycanın ayrılmaz parçası olmuş, həm təbii gözəllikləri, həm də mədəni irsi ilə tanınmış bir diyarıdır. Tarixi xəritələrdə Qarabağ Azərbaycandan başqa heç bir qeyri-dövlətin tərkibində olmayıb. Lakin XX əsrin sonlarında Ermənistanın açıq ərazi iddiaları və hərbi təcavüzü nəticəsində bu gözəl diyar ağır faciələrlə üzləşdi. 1988-ci ildən başlayan erməni separatizmi sonra genişmiqyaslı müharibəyə çevrildi. Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf 7 rayonu işğal etdi. Bu işğal nəticəsində 20 mindən çox soydaşımız şəhid oldu, bir milyon azərbaycanlı doğma yurd-yuvasından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrildi. Qarabağda və ətraf rayonlarda yüzlərlə kənd, şəhər, məktəb, məscid, muzey və tarixi abidələr yerlə-yeksan edildi. Maddi və mədəni irsimizə ciddi zərbə dəydi. Erməni işğalçılar Qarabağın ekosisteminə də zərbə vurdular. Bütün bunlar 27 il beynəlxalq ictimaiyyətin gözü qarşısında baş verdi. Xalqımızın haqq səsi beynəlxalq aləmdə eşidilmədi. Lakin bütün bu məhrumiyyətlərə baxmayaraq, Azərbaycan xalqı heç vaxt ümidini itirmədi. Bu illər ərzində hər bir azərbaycanlının qəlbində bir amal yaşayırdı: Qarabağ Azərbaycandır! Və bir gün bu torpaqlar geri qaytarılacaq.

1994-cü ildə imzalanan atəşkəslə aktiv müharibəyə ara verilir və dünyanın siyasət kuluarlarından tutmuş beynəlxalq tribunalarına qədər Azərbaycan dövləti bütün diplomatik vasitələri işə salır ki, sülh yolu ilə öz torpaqlarını işğaldan azad etsin. Əlbəttə, Ermənistanın aqressiv, işğalçı ritorikasını davam etdirməsi heç bir beynəlxalq qətnamə və tövsiyələri tanımadı. Amma bu illər ərzində Azərbaycan da öz gücünü, iqtisadiyyatını və ordusunu möhkəmləndirdi. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasəti, milli ordu quruculuğu, iqtisadi güclənmə, o cümlədən İlham Əliyevin uzaqgörən rəhbərliyi nəticəsində bu siyasətin möhkəm və qarşısıalınmaz addımlarla davam etdirilməsi Azərbaycanı regionun ən güclü dövlətlərindən birinə çevrildi.

## 44 günlük mübarizə və nöqtə!

Uzun illər idi ki, Ermənistan silahlı qüvvələri cəbhə xəttinə yaxın mövqelərə qarşı hərbi təxribatlar edir, diversiyalar həyata keçirir və ordumuz bunun qarşısını qətiyyətlə alırdı. Demək olar ki, hər gün xəbər proqramlarında atəşkəsin pozulması barədə məlumatlara rast gəlinirdi. Yəni 1994-cü ildən bəri elə bir gün olmamışdı ki, atəşkəs pozulmasın. Hətta arada itkilərimiz də olurdu. Düşmənin hücumları qətiyyətlə dəf edilsə də, münaqişə həll edilməmiş qalırdı. Erməni separatçıları "Miatsum" xəyallarından, "Qarabağ Ermənistandır və nöqtə!" tezisindən daha irəli gedərək Şuşada qondarma quruma parlament binası tikmək, orada şənliklər təşkil etmək, dinc danışıqları sabotaj etmək kimi təxribatlarla yol verirdilər. Amma səbrimizin sonu gəlmişdi.

Beləliklə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı təxribatına cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücuma keçdi və tarixə "44 günlük Vətən Müharibəsi" kimi düşən döyüşlər başladı. Bu müharibə təkcə silahların qarşıdurması deyildi; bu, haqqın, ədalətin, qəhrəmanlığın işğala, milli birliyin erməni ekspansiyasına qarşı canı boğaza yığılmış Azərbaycan xalqınnın inadlı mübarizəsi idi. Ağır döyüşlərdə Azərbaycanın əsgər və zabitləri misilsiz qəhrəmanlıqlar göstərərək torpağı qanları ilə azad etdilər. Müzəffər Azərbaycan Ordusu qarşısında tab gətirməyərək ağır məğlubiyyətə uğrayan işğalçı Ermənistan silahlı birləşmələri torpaqlarımızdan qovuldu. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan, Xocavənd, Laçın və nəhayət, Şuşa – bu adlar artıq xalqımızın yaddaşında qəhrəmanlıq simvoluna çevrilib. Döyüşlər zamanı müasir silahlar, texnologiyalar, dronlar, eyni zamanda, əsgərin döyüş ruhu və Vətən sevgisi qələbənin leytmotivinə çevrildi.

Müharibənin gedişində Azərbaycan xalqı misilsiz həmrəylik göstərdi. Ön cəbhədə döyüşənlər qədər, arxa cəbhədə olan hər kəs Vətənin azadlığı naminə yumruq kimi birləşdi. Qadınlar, gənclər, yaşlılar, xarici ölkələrdə yaşayan soydaşlarımız, bir sözlə, hamı ordumuza dəstək vermək üçün səfərbər oldu. Xalq və ordu bir amal uğrunda – Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparırdı.

## Şuşa – Zəfər zirvəsi

44 gün davam edən müharibənin ən şanlı səhifəsi Şuşa şəhərinin azad olunması əməliyyatı oldu. Bu, həm hərbi, həm də mənəvi baxımdan müharibənin dönüş nöqtəsi idi. Şuşa təkcə strateji mövqeyinə görə deyil, həm də mədəni irsimizə verdiyi töhfələrə görə Azərbaycanın simvoludur. Bura Pənahəli xanın, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Səid Rüstəmovun, Əhməd bəy Ağaoğlunun, Mehmandarovların və daha neçə-neçə böyük şəxsiyyətin vətənidir. Şuşanın azad edilməsi Azərbaycan xalqının qəlbində 30 illik yaraya məlhəm oldu. Həmin gün xalq Ali Baş Komandanın dilindən müjdəni – "Şuşa azaddır!" xitabını eşidərək sevinc göz yaşları içində küçələrə axışdı.

Azərbaycan Ordusu Şuşa əməliyyatını çətin, lakin şərəfli döyüşlərlə həyata keçirdi. Əsgərlərimiz dağları aşaraq, qayalara dırmaşaraq, əlbəyaxa döyüşlərlə qala-şəhəri düşməndən təmizlədi. Bu əməliyyat dünya hərb tarixində nadir nümunələrdən biri kimi qiymətləndirilir və öyrənilir. Şuşanın azad olunması ilə müharibənin taleyi həll olundu. Beləliklə, Ermənistan məğlubiyyətini qəbul edərək 10 noyabr 2020-ci ildə kapitulyasiya aktını imzaladı. Şuşanın düşməndən təmizləndiyi 8 noyabr günü isə Azərbaycanın Zəfər Günü kimi tarixə həkk olundu.

## Qələbənin mənəvi və siyasi əhəmiyyəti

8 Noyabr Zəfər Günü təkcə hərbi qələbə deyil, həm də Azərbaycan xalqının milli birliyinin, iradəsinin, mənəvi gücünün təntənəsidir. Bu qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, uzaqgörən və prinsipial siyasətinin, sərkərdəlik bacarığının nəticəsidir. Zəfər həm də şəhidlərimizin, qazilərimizin qəhrəmanlığının təcəssümüdür. Onlar Vətən uğrunda canlarını fəda etdilər, adlarını əbədi olaraq tarixə yazdılar. Hər bir şəhidin adı bu torpağın daşına, suyuna, havasına həkk olunub. Azad Qarabağın hər qarışı onların qanı ilə suvarılıb.

Azərbaycan xalqı bu qələbə ilə bütün dünyaya bir daha göstərdi ki, ədalət gec-tez qalib gəlir. Bu qələbə 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən icra edilməyən BMT qətnamələrinin Azərbaycan dövlətinin öz güc yolu ilə icrası idi. Şuşanın ardınca Laçın, "Qafqazın Xirosiması" adlanan Ağdam və olduqca strateji mövqe hesab edilən Kəlbəcər də erməni quldur birləşmələrindən təmizləndi. Beləliklə, Ermənistanın illərdir beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı Qarabağın status-kvosu mövzusu ləğv edildi, Qarabağ münaqişəsi tarixə qovuşdu. Çünki 2023-cü ildə Xankəndi şəhəri, Ağdərə, Əsgəran və digər strateji qəsəbələr də işğaldan azad edildi. O torpaqlarda Ermənistan ordusuna aid heç bir şey qalmadı. İndi həmin torpaqlarda sülh, quruculuq və inkişaf dövrü başlayıb. Dövlətimiz işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə böyük vüsətlə start verib: yollar, məktəblər, hava limanları, yaşayış məntəqələri tikilir. Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl, Ağdam, Kəlbəcər, Laçın kimi şəhərlərimiz bu gün yenidən inşa olunur, dirçəlir. Azad edilən torpaqlarımızda Böyük Qayıdış proqramı həyata keçirilir, məcburi köçkünlərimizin öz ata-baba torpaqlarına qayıtmaları və həyat şəraitinin təmin olunması üçün nəhəng layihələr həyata keçirilir.

## 8 Noyabr milli qürur və ehtiram günüdür

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamına əsasən 8 noyabr "Zəfər Günü" elan edildi. Bu tarix ölkənin hər yerində təntənə ilə qeyd olunur. Bu il Zəfərimizin 5 illiyidir. 5 ildir ki, Azərbaycan xalqı qalib xalq, dövlətimiz isə qalib dövlət titulu daşıyır. Mübaliğəsiz demək olar ki, son 200 illik Azərbaycan tarixinin ən şanlı hadisəsi, ən şanlı günü məhz 8 noyabr Zəfər Günüdür. Zəfər Günündə üçrəngli Azərbaycan bayrağı küçələrimizi bəzəyir, şəhərlərdə "Qarabağ Azərbaycandır!" şüarı səslənir. Azərbaycan Ordusunun möhtəşəm hərbi paradı bu təntənəyə əsrarəngiz rəng və əzmkarlıq qatır. Hər bir azərbaycanlı bu günü qürurla qeyd edir, şəhidlərimizin xatirəsini ehtiramla yad edir. Çünki bu gün xalqın həmrəyliyinin, dövlətimizin qüdrətinin, ordumuzun yenilməzliyinin rəmzidir.

Zəfər Günü gənc nəsil üçün əyani tərbiyə mənbəyidir. Bu gün bizə göstərdi ki, Vətən sevgisi, birlik və əzm qarşısında heç bir güc dayana bilməz. Bu gün biz azad, güclü və qalib Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyərək, onların qazanmış olduğu bu azadlığı qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur. İllər, qərinələr, hətta əsrlər gəlib keçəcək, amma 8 Noyabr Zəfər Günü hər bir azərbaycanlının ürəyində əbədi yaşayacaq.

***Adil ƏLİYEV,***
***Suraxanı Rayon***
***İcra Hakimiyyətinin başçısı***

# Tariximizin qızıl səhifəsi



**Dünən Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Zəfər Günü – Tariximizin qızıl səhifəsi" mövzusunda tədbir keçirilib.**

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov geniş məruzə ilə çıxış edib. O, 30 illik işğal dövrü ermənilərin Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə saldığını, infrastrukturu məhv etdiyini, əhalini qaçqın və köçkün halına salması konkret faktlarla diqqətə çatdırıb. Qeyd edib ki, ordu quruculuğu sahəsində uğurlar əldə edilməsi, bu məsələnin hər zaman Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqaməti olması sayəsində torpaqlarımızın azad edilməsi 44 günlük "Zəfər Yürüşü" ilə reallaşdırdı. Sentyabrın 27-də başlanan Vətən müharibəsi xalq–dövlət–ordu birliyinin əsl təcəssümünə çevrildi. Hər bir Azərbaycan vətəndaşı cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarı ilə səfərbər olmağı bacardı və 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız azad edildi.

İ.İsmayılov bildirib ki, 8 noyabr tarixində Şuşa şəhərinin geri alınması, daha sonra məlum üçtərəfli Bəyanatın imzalanması ilə Ermənistan tam məğlubiyyətlə barışdı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2023-cü ilin sentyabrında isə lokal xarakterli antiterror tədbirlərinin dayandırılması ilə Qarabağda dövlət suverenliyimiz tam bərpa olundu. 15 oktyabr 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını qaldırdı.

Qeyd olunub ki, Zəfər tariximizdə Mingəçevirin də özünəməxsus payı var. Vətən müharibəsində Mingəçevir gəncləri könüllü olaraq səfərbər olunub, qəhrəmanlıqları ilə müharibədə iz qoyublar. Şəhid ailələrinin və qazilərin sosial qayğılarına hərtərəfli kömək göstərilir.

Tədbirdə Milli Məclisin deputatı Aydın Mirzəzadə, YAP Şəhər Təşkilatının sədri Bəxtiyar Mustafayev, şəhid atası Adil Abbasəliyev, Vətən müharibəsi əlili, ehtiyatda olan mayor Pərviz Məmmədov, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan kapitan, "III dərəcə Vətənə xidmətə görə" ordenli Arif Yusubov çıxış edərək Zəfər Günü münasibəti ilə təbriklərini çatdırıblar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunduqdan sonra orada genişmiqyaslı quruculuq və bərpa işlərinə start verilməsindən iftixarla danışıblar. İnam ifadə edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün bu işlərin də öhdəsindən layiqincə gəlinəcək və ölkəmizin daha uğurlu inkişafına nail olunacaqdır.

Sonda Uşaq Gənclər İnkişaf Mərkəzinin hazırladığı "Zəfər" kompozisiyası təqdim edilib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**Mingəçevir**

# DTX Akademiyasında suverenlik mövzusunda konfrans



**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının Heydər Əliyev Muzeyində Zəfər Gününə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Azərbaycanda demokratik respublika modelinin təşəkkül tarixi: dövlət rəmzlərinin təsis edilməsindən dövlət suverenliyinin tam əldə edilməsinə aparan yol" adlı respublika elmi-praktik konfransı keçirilib.**

Tədbirdə akademiyanın və digər xüsusi təyinatlı ali təhsil müəssisələrinin rəhbər şəxsləri və professor-müəllim heyətləri ilə yanaşı, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Vətən müharibəsi iştirakçıları və təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.

Konfransda giriş nitqi ilə çıxış edən akademiyanın rəisi, general-mayor Elşad Nəsirov bu il noyabrın 8-də xalqımızın qazandığı tarixi Zəfərdən beş il ötdüyünü diqqətə çatdırıb. Zəfər Gününün Azərbaycan xalqının dövlətçilik tarixinə milli kimliyimizin, azadlıq iradəmizin və müasir dövlətçiliyimizin simvolu kimi qızıl hərflərlə yazıldığını qeyd edən natiq bildirib ki, ulu öndər Heydər Əliyevin misilsiz səyləri ilə hüquqi, demokratik dövlət quruculuğu yoluna qədəm qoyan müasir Azərbaycan Respublikası bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf səviyyəsinə yüksəlib.

Tədbirdə çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının müasir inkişaf mərhələsinin, onun hüquqi və siyasi sisteminin formalaşmasının ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlı olduğunu qeyd edib. Ə.Hüseynli bildirib ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirərək Azərbaycanı qalib, güclü və tam suveren dövlətə çevirib.

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, "Qarabağ" və "Azərbaycan bayrağı" ordenli Vətən müharibəsi iştirakçısı, polkovnik Nəsimi Şadmanov konfransda çıxış edərək ulu öndər Heydər Əliyevin dövlətçiliyin əsas sütunlarını yaratmaqla yanaşı, müasir Azərbaycan Ordusunun təməlini formalaşdırdığını qeyd ediblər.

Natiqlər bildiriblər ki, dövlətimizin başçısı Prezident İlham Əliyevin qətiyyəti, xalqla ordunun birliyi nəticəsində Vətən müharibəsində şanlı Zəfər əldə edilib. 44 gün davam edən Vətən müharibəsində və antiterror əməliyyatında şəhidlərimiz canlarını fəda edərək, xalqımızın azadlıq salnaməsini yazıblar.

Həmçinin o da qeyd olunub ki, Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bu gün müstəqil Azərbaycanın hərbi-siyasi qüdrəti durmadan artır, ordumuz davamlı olaraq ən müasir silahlarla təchiz olunur, hərbçilərin sosial vəziyyəti gündən-günə daha da yaxşılaşdırılır.

***XQ***

# Azərbaycan tarixinin zəfərlə yazılan səhifəsi

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasına son qoydu.**

Qeyd etmək lazımdır ki, 2016-cı ilin Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü. 2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərindən çox böyük üstünlüklər verdi. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı.



## Hərbi-diplomatik uğurlar

Beş il əvvəl – Azərbaycan Ordusunun Qarabağda başladığı genişmiqyaslı və uğurlu hərbi əməliyyatlar nəticəsində 2020-ci il noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə Azərbaycan dövləti 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

## İnformasiya savaşında uğurlar

Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr 30 ildən artıq davam edən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, hərbi təcavüzü, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Hərbi-diplomatik uğurlarla yanaşı, Azərbaycan Prezidentinin İkinci Qarabağ müharibəsi dövründə 30-a qədər xarici KİV təmsilçilərinə, xüsusilə Türkiyənin "TRT Haber", "CNN Türk", "Haber Global", "Habertürk", "NTV", "A Haber" televiziya kanalları, Rusiyanın "Rossiya-1", "Pervıy Kanal", "RBK" televiziya kanalları, TASS, "İnterfax, "Ria Novosti" agentlikləri, Almaniyanın "ARD", Böyük Britaniyanın "Sky News", ABŞ-ın "Fox News", İspaniyanın EFE televiziya kanallarının, İtaliyanın "Rai1" televiziya kanalı və "la Repubblica" qəzeti, Fransanın "France 24" televiziya kanalı və "Le Figaro" qəzeti, Yaponiyanın "Nikkei" qəzeti, o cümlədən nüfuzlu "Euronews", "CNN", "BBC News", "Al Jazeera", "Al Arabiya" televiziya kanallarının müxbirlərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir".

Hər zaman, xüsusilə, Münhen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Nəticədə, bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə, həm də 2021-ci il fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-də yayılaraq Azərbaycan, xüsusilə Qarabağ həqiqətlərini tutarlı faktlarla bütün dünyaya çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsasını qoydu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, biz döyüş meydanında, informasiya məkanında və siyasi müstəvidə də Qələbə qazandıq.

## "Şuşa, sən azadsan"!

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdir: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".

Azərbaycan Prezidentinin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycanın İkinci Qarabağ müharibəsində mühüm Qələbəsinə həsr olunmuş Zəfər paradı keçirildi.

## Suverenlik və tarixi ədalətin bərpası

Qeyd etmək lazımdır ki, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı.



İki il əvvəl - 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Prezident, Ali Baş Komandan, İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

İkinci Qarabağ müharibəsi son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs Bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərmana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edilmiş oldu.

Bununla yanaşı, 1919-cu ildən 104 il sonra - 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı. Əziz şəhidlərimizin xatirəsinin bizim qəlbimizdə əbədi yaşayacağını və bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdiyimizi vurğulayan Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxışı zamanı demişdir: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladığımızı xüsusi qeyd etdi və müasir tariximizin yeni dövrünün də məhz sentyabrın 20-dən (2023-cü il – E.Ə.) sonra başladığını diqqətə çatdıraraq vurğuladı ki, istər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 18-də imzaladığı Sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü təntənəli şəkildə qeyd edilir. Bu mühüm və əlamətdar günün təsis olunması Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması ilə bağlıdır. Nəticədə, bu gün Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni separatçılarından təmizlənməsindən və tarixi ədalətin bərpasından artıq iki il keçir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında imzaladığı sərəncamda vurğulanır ki, cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir: "Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Bu gün, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatlarının başa çatmasından və şanlı Zəfər Günündən 5 il keçir. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinə Zəfərə gedən yolda şərəf və qəhrəmanlıq salnaməsi kimi yazıldı.

Azərbaycanın dövləti və xalqı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini hər zaman ehtiramla anır və onları heç vaxt unutmayacaq! Zəfərimiz mübarək!

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor, siyasi elmlər doktoru***

# Zəngəzur dəhlizi: Azərbaycan və İranın yeni birgə layihələri

**Şərqlə Qərbin qovşağında yerləşən Cənubi Qafqaz regionu Avrasiya materikinin ən mühüm strateji bölgələrindən biri hesab olunur. Bu səbəbdən burada baş verən hadisələr daim diqqət mərkəzindədir. Regionun qlobal arenada nüfuz qazanmasında əsas rolu isə Azərbaycan və onun təşəbbüsü ilə gerçəkləşən layihələr oynayır.**




Uzun müddətdir ki, beynəlxalq ictimaiyyətin regionla bağlı əsas müzakirə mövzuları Azərbaycan–Ermənistan arasında gedən sülh prosesi və Zəngəzur dəhlizidir (TRIPP). İki ölkənin sülhə doğru irəliləməsi dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənsə də, dəhliz məsələsində əvvəl müəyyən fikir ayrılıqları oldu. Xüsusilə İran Zəngəzur dəhlizinin açılmasına ən sərt reaksiya göstərən dövlətlərdən biri idi. Rəsmi Tehran arqument kimi Ermənistanla olan sərhədin bağlanması və regionda geosiyasi balansın dəyişməsi ilə bağlı narahatlığını bildirirdi. Azərbaycan isə öz növbəsində deyirdi ki, bu, sərhədlərin dəyişdirilməsinə yox, əksinə, regionun iqtisadi inkişafına və əməkdaşlığın güclənməsinə xidmət edəcək.

Necə deyərlər, zaman ən böyük hakimdir. Vaxt öz işini gördü və Azərbaycanın haqlı olduğu ortaya çıxdı. Artıq İran rəsmiləri Zəngəzur dəhlizi ilə bağlı nikbin fikirlər səsləndirirlər. Yəni onlar bu marşrutun açılacağı reallığını qəbul edirlər. İndiki məqamda rəsmi Tehranın yeganə nigarançılığı ABŞ-ın bu dəhlizdə əsas iştirakçılardan birinə çevrilməsidir. Bu ölkənin xarici işlər naziri Abbas Əraqçi Həmədanda tələbələrlə görüşü zamanı deyib: “Biz regionda sərhədlərin və geosiyasətin dəyişdirilməsini qəbul etmirik və hesab edirik ki, bölgədə təhlükəsizliyi təmin etməyin ən yaxşı yolu məhz regional əməkdaşlıqdır. Bizim ideyamız “3+3” formatıdır. Zəngəzur məsələsi ilə bağlı birbaşa təmasdayıq və bizə bildirilib ki, İrana heç bir təhlükə olmayacaq. Əlbəttə, vəziyyəti diqqətlə izləyirik”.

Nazirin çıxışından da aydın görünür ki, İran artıq Zəngəzur dəhlizinə qarşı çıxmır. Lakin illərlə “soyuq müharibə” apardığı ABŞ-ın bu prosesdə rol oynaması Tehranın əsas narahatlıq mənbəyidir. Bəs, İranın belə bir təlaşa düşməsinə ehtiyacı varmı? Deyə bilərik ki, xeyr, yoxdur! Səbəbi isə odur ki, bu dəhliz tamamilə iqtisadi maraqlara əsaslanır. Bununla yanaşı, Azərbaycan bu vaxta qədər qonşu ölkələrin zərər görəcəyi heç bir işə imza atmayıb, onların maraqlarına hörmətlə yanaşıb. Ona görə də cənab Əraqçinin belə bir gümana düşməsinə ehtiyac yoxdur. Bundan başqa, iranlı nazirin regional təhlükəsizliyi məhz bölgə ölkələrinin əməkdaşlığında görməsi və “3+3” formatını dəstəkləməsi fikirləri də bizə yad deyil. Çünki bu tezisi ilk olaraq Azərbaycan özü irəli sürüb. Sözügedən formatın ideya müəllifi də məhz Azərbaycandır. Yəni ölkəmiz hər zaman regional məsələlərin Cənubi Qafqazda həll olunmasını arzulayıb.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp “C5+1” formatında keçirilən görüş zamanı Zəngəzur dəhlizi haqqında danışıb. Ağ Ev rəhbəri bildirib: “Dediyim kimi, bu tarixi saziş yeni Tramp marşrutunun inşasını nəzərdə tutur. Bu, həqiqətən də möhtəşəm bir layihədir. Onu mənim şərəfimə adlandırıblar və mən bunu yüksək qiymətləndirirəm. Bu, əslində böyük hadisədir – beynəlxalq sülh naminə yeni Tramp marşrutu. Hazırda bu yol çəkilir və dünyanın ən mühüm bölgələrindən biri – iqtisadi cəhətdən də ən əhəmiyyətli yerlərdən biri – vasitəsilə keçir. Bu, Xəzər dənizinin digər tərəfində ticarət fəaliyyətinin artmasına imkan yaradacaq və Mərkəzi Asiya regionundakı bütün ölkələrə fayda verəcək. Mən optimistəm və inanıram ki, bu gün burada iştirak edən hər bir ölkə bu sazişin açdığı imkanlardan istifadə edərək sülhdən mənfəət əldə edəcək”.

Qeyd edək ki, ABŞ liderinin bəyan etdiyi kimi, bu layihə həqiqətən də öz möhtəşəmliyi ilə seçilir. Təşəbbüs irəli sürüldüyü gündən bəlli idi ki, Zəngəzur dəhlizi təkcə regional deyil, həm də qlobal miqyasda mühüm rol oynayacaq. Bu layihə coğrafi baxımdan Cənubi Qafqazı Asiya ilə Avropa arasında strateji körpüyə çevirir. Zəngəzur dəhlizi Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan və Türkiyə üzərindən Avropaya qədər uzanan böyük nəqliyyat və logistika marşrutunun ayrılmaz hissəsini təşkil edəcək. Bu dəhlizin fəaliyyətə başlaması təkcə Azərbaycan və region ölkələri üçün deyil, həm də geniş Avrasiya məkanında iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dəhliz vasitəsilə malların daşınma müddəti və xərcləri əhəmiyyətli dərəcədə azalacaq, ticarət dövriyyəsi artacaq, yeni investisiya və əməkdaşlıq imkanları yaranacaq. Zəngəzur dəhlizi, eyni zamanda, Mərkəzi Asiya dövlətləri üçün də böyük strateji üstünlüklər yaradır. Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi ölkələr bu dəhliz vasitəsilə Xəzər dənizindən keçərək, Azərbaycan və Türkiyə üzərindən birbaşa Avropa bazarlarına çıxış əldə edəcəklər. Bu, həmin ölkələrin ixrac imkanlarını genişləndirəcək, regional tranzit gəlirlərini artıracaq və onların dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcək. Bununla yanaşı, dəhliz regionda sabitlik və əməkdaşlıq mühitini möhkəmləndirəcək, Cənubi Qafqazda yeni iqtisadi reallıqlar yaradacaq.

Sonda qeyd edək ki, İran da digər dövlətlər kimi, Zəngəzur dəhlizindən böyük mənfəət əldə etmək potensialına malikdir. Dəhliz İranın tranzit imkanlarını genişləndirəcək və beynəlxalq ticarət əlaqələrini möhkəmləndirəcək. Bundan başqa, Zəngəzur dəhlizi regionda yük və sərnişin daşımalarını artırmaqla İranın tranzit şəbəkəsini şaxələndirəcək, Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı dərinləşdirəcək. Eyni zamanda, dəhlizin “Şimal–Cənub” beynəlxalq nəqliyyat marşrutu ilə uzlaşdırılması İranı həm Şərq–Qərb, həm də Şimal–Cənub istiqamətlərində mühüm nəqliyyat qovşağına çevirəcək

*.Musa BAĞIRLI*
*XQ*

***Ekspert rəyi***



**Züriyə QARAYEVA,**
**politoloq**

İranın xarici işlər naziri Abbas Əraqçinin Zəngəzur dəhlizi ilə bağlı səsləndirdiyi narahatlıq, əslində, reallıqla tam üst-üstə düşmür. Zəngəzur istiqamətində irəliləyən yeni kommunikasiya marşrutu – TRIPP layihəsi hər hansı geosiyasi bloklaşma yaratmaq üçün deyil, əksinə, region ölkələrinin qarşılıqlı iqtisadi inteqrasiyasını gücləndirmək məqsədi daşıyır. Layihənin əsas prinsipi qarşıdurma deyil, qarşılıqlı fayda üzərində qurulub. Azərbaycanın da dəfələrlə bəyan etdiyi kimi, dəhlizin açılması nə İranın sərhədlərinə, nə də onun maraqlarına təhdid yaradır. Əksinə, İran bu marşrutdan tranzit gəlirləri, ticarət əlaqələrinin genişlənməsi və regiondaxili sabitlik baxımından qazanclı çıxacaq. TRIPP modeli Mərkəzi Asiyadan Aralıq dənizinə qədər uzanan nəqliyyat və enerji xətlərini birləşdirərək, regionda real iqtisadi əməkdaşlıq üçün zəmin yaradır. Bu baxımdan, Əraqçinin narahatlığını haradasa anlamaq mümkün olsa da, faktiki vəziyyət göstərir ki, Zəngəzur marşrutu heç kimin maraqlarını sıxışdırmır. Əksinə, bölgənin bütün ölkələri üçün ortaq rifah və təhlükəsizlik çərçivəsi formalaşdırır.

# “Saqqallı qadağa” ortaq maraqlara əngəl törədir

## *907-ci düzəlişin saxlanılması Vaşinqtonun regional siyasətinə ziddir*

**ABŞ Müdafiə Nazirliyinin “Stars and Stripes” qəzetində Birləşmiş Ştatların Azərbaycana birbaşa dövlət yardımını qadağan edən “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişin birdəfəlik ləğv edilməsinin vacibliyinə həsr olunmuş məqalə dərc olunub. Məqalənin müəllifi Xarici Siyasət Tədqiqatları İnstitutunun (FPRI) baş elmi işçisi Stiven Blankdır.**

Müəllif yazır ki, qanunvericiliyin milli maraqlara və onları həyata keçirmək üçün lazım olan strategiyalara xidmət etməsinin vacibliyi çoxdan qəbul edilmiş bir həqiqətdir: “Həmin prinsip bu gün Vaşinqtonun Cənubi Qafqazdakı mövqeyi üçün xüsusilə əhəmiyyətlidir. Hazırkı ABŞ administrasiyasının ən cəsarətli və gələcəyə hesablanmış təşəbbüslərindən biri Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu – TRIPP-dir. Bu proqram ticarət, nəqliyyat və kommunikasiya marşrutu yaratmaqla və Amerikanın Cənubi Qafqazda geniş və davamlı iştirakına sadiqliyini vurğulamaqla Ermənistan və Azərbaycan arasında 30 illik düşmənçiliyə faktiki olaraq son qoydu”.

S.Blank layihəni “geosiyasi şedevr” adlandırır və qeyd edir ki, TRIPP-in öz məqsədinə çatması – beynəlxalq ticarət üçün yeni perspektivlər açması və Vaşinqtonun regionda uzunmüddətli mövcudluğunu təmin etməsi üçün Konqres onu qanunvericilik yolu ilə dəstəkləməlidir: “Bu, ABŞ hökumətinin Azərbaycana yardım göstərməsini və birgə fəaliyyəti qadağan edən “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişin tamamilə ləğv edilməsi deməkdir. Həmin qanunvericilik keçmişin qalığıdır. O dövrdə Bakı və İrəvan müharibə vəziyyətində idi və Amerikadakı erməni diasporu öz nüfuzundan istifadə edərək onu qəbul etdirmişdi. Daha o günlər keçdi. Ermənistan və Azərbaycan Birgə Bəyannaməni imzaladılar. Konqresin ABŞ-ın Mərkəzi Asiyadakı təsirini və mövcudluğunu kifayət qədər gücləndirəcək qanunvericilik qəbul etməsinin vaxtıdır. 907-ci düzəlişdə nəzərdə tutulan məhdudiyyətlərin saxlanılması yalnız amerikalı diplomatların və iş adamlarının Bakı ilə işləməsinə mane olur.

Azərbaycan coğrafi mövqeyinə görə Mərkəzi Asiya və Avropa arasında ticarətdə əsas oyunçulardan və vasitəçilərdən birinə çevrilib. Mərkəzi Asiya ölkələrinin hökumətləri isə açıq şəkildə Vaşinqtonla əlaqələrin möhkəmləndirilməsinə can atırlar. Region dövlətlərinin liderlərinin Prezident Donald Trampla gözlənilən görüşü (C5+1) görüşü də bunu sübut edir. Belə olan təqdirdə ABŞ qanunvericiliyi milli maraqlara və strategiyaya mane olmamalı, əksinə, onu asanlaşdırmalıdır”.



Amerikalı tədqiqatçı qeyd edir ki, bu əlaqələr həm Mərkəzi Asiya, həm də ABŞ üçün vacibdir: “Amerika Rusiyanın uran tədarükündən çox asılıdır. Qazaxıstanın TRIPP vasitəsilə Amerikaya uran tədarük etməsinə gətirib çıxaracaq qarşılıqlı faydalı münasibətlərin qurulması həm Vaşinqton, həm də Astana üçün faydalı olardı. Digər nümunə nadir faydalı qazıntılardır. Çin onların çıxarılmasına və emalına strateji cəhətdən dominantlıq edir. Amerika üçün bu strateji əhəmiyyətli mineralların mənbələrini şaxələndirmək, şübhəsiz ki, növbəti addımdır. Mərkəzi Asiya zəngin ehtiyatlara malikdir və açıq şəkildə bu sektorda heç kimə tabe olmaq istəmir”.

Müəllif bildirir ki, Tramp regionda Amerika şirkətləri üçün investisiya və ticarət imkanları axtarır. Bu arada Mərkəzi Asiya liderləri nadir faydalı qazıntıların və digər vacib mineralların kəşfiyyatı, istehsalı, emalı və ixracı sahəsində Vaşinqtonla əməkdaşlığı genişləndirməyə çalışır və ortaq maraqları nümayiş etdirirlər: “Bu kontekstdə ABŞ-ın köhnəlmiş qanunvericiliyi saxlamaqla və Amerikanın strateji maraqlarını dəstəkləmək üçün zəruri tələbləri yerinə yetirməməklə həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada Azərbaycanın regional təsirini dəstəkləməməsi mənasız görünür. Çünki nadir faydalı qazıntılar və digər əsas mallar Qərb bazarlarına çıxmaq üçün TRIPP zonasından keçməlidir”.

S.Blank qeyd edib ki, bu arada Çin iqtisadi gücündən və əlaqələrindən istifadə edərək Azərbaycandakı təsirini artırmağa çalışır: “Bunu bu yaxınlarda Bakıya İslamabad vasitəsilə Çin–Pakistan “JF-17” qırıcı təyyarələrinin satışı da göstərir. “New Lines” Strategiya və Siyasət İnstitutunun baş direktoru Kamran Boxarinin qeyd etdiyi kimi, Amerika şirkətlərinin oxşar sövdələşmələrdən çəkinməsi üçün heç bir səbəb yoxdur. TRIPP təşəbbüsü sayəsində ABŞ-ın bir sıra getdikcə daha vacib və potensial kritik sferalarda maraqları inkişaf etdirilə bilər. Bunun üçün Cənubi Qafqaz və Mərkəzi Asiyada dəyişən və formalaşan strateji landşaftı, onun Amerikaya təqdim etdiyi imkanları tanımaq tələb olunur. TRIPP-i regional kontekstə inteqrasiya etmək və Vaşinqtonun maraqlarını inkişaf etdirmək üçün Konqresin bu prosesə mane olmaq əvəzinə qətiyyətlə hərəkət etməsi son dərəcə vacibdir. 907-ci düzəlişin ləğvi lazımi anda atılmalı olan düzgün addımdır və bunun faydaları əhəmiyyətli olacaq”.

*

Amerikalı tədqiqatçının “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişin ləğvinin vacibliyi barədə irəli sürdüyü arqumentlər həm rasional, həm də strateji baxımdan dərin məntiqlə əsaslandırılıb. Onun fikirləri təkcə Azərbaycana münasibətdə deyil, bütövlükdə, ABŞ-ın Cənubi Qafqaz və Mərkəzi Asiya siyasətinə yeni dinamika qazandırmaq baxımından diqqətəlayiqdir. Blankın vurğuladığı kimi, artıq bölgədə köhnə düşüncə tərzini qoruyub saxlamaq ABŞ-ın milli maraqlarına xidmət etmir. 907-ci düzəlişin saxlanılması Vaşinqtonun iqtisadi və siyasi manevr imkanlarını məhdudlaşdırır, ABŞ-ın regional proseslərdə rolunu zəiflədir.

Azərbaycan bu gün geosiyasi baxımdan həm Cənubi Qafqazda, həm də Avrasiya nəqliyyat arteriyalarında əsas keçid nöqtəsinə çevrilib. Orta Dəhliz, TRIPP və digər təşəbbüslər məhz Bakının fəal iştirakına söykənir. Bu reallıq fonunda ABŞ-ın hələ də 1992-ci ildə qəbul edilmiş, müharibə dövrünün şərtlərinə əsaslanan bir düzəlişin girovluğunda qalması məntiqsiz görünür. O vaxt bu qanun lobbi təsiri altında qəbul edilmişdi. Bu gün isə nə müharibə vəziyyəti var, nə də həmin dövrün siyasi konfiqurasiyası. Əksinə, regionda sülh, nəqliyyat və ticarət əlaqələrinin bərpası üçün yeni imkanlar yaranıb.

Blankın TRIPP təşəbbüsünü “geosiyasi şedevr” adlandırması təsadüfi deyil. Bu layihə həm ABŞ şirkətlərinə yeni bazarlara çıxış imkanı yaradır, həm də Vaşinqtonun enerji, logistika və nadir faydalı qazıntılar sektorunda uzunmüddətli maraqlarına xidmət edir. Qazaxıstan, Özbəkistan və digər Mərkəzi Asiya ölkələrinin Amerikanın dəstəyinə açıq olması da onu göstərir ki, regionda ABŞ üçün real tərəfdaşlıq imkanları mövcuddur. Bu isə yalnız Azərbaycanın fəal iştirakı ilə mümkündür.

907-ci düzəlişin ləğvi ABŞ üçün həm iqtisadi, həm də geostrateji baxımdan irəliyə atılmış addım olacaq. Bu qərar Vaşinqtona həm Rusiya və Çin qarşısında təsir gücünü artırmaq, həm də Avrasiya enerji və nəqliyyat marşrutlarında iştirakını dərinləşdirmək imkanı verəcək. Azərbaycanla əməkdaşlığın qarşısını alan məhdudiyyətlər aradan qalxsa, ABŞ şirkətləri regionda mühüm layihələrə sərmayə qoya bilər. Həm də bu, Amerikanın Cənubi Qafqazda etibarlı tərəfdaş kimi nüfuzunu möhkəmləndirər. Əslində, 907-ci düzəlişin qüvvədə qalması ABŞ diplomatiyasını reallıqlardan uzaqlaşdırır. Yeni dövrdə Vaşinqton regional əməkdaşlığa, sülhə və iqtisadi inteqrasiyaya dəstək verməklə həm öz maraqlarını təmin edər, həm də qlobal sabitliyə töhfə verər. ABŞ-ın milli strategiyası artıq cəza və təcrid prinsipləri üzərində deyil, əməkdaşlıq və qarşılıqlı fayda prinsipləri üzərində qurulmalıdır.

**Politoloq Ramiyə Məmmədova** bildirdi ki, S.Blankın irəli sürdüyü mövqe



ABŞ siyasətində dönüş nöqtəsi ola bilər. Onun sözlərinə görə, 907-ci düzəlişin ləğvi təkcə Azərbaycanın maraqlarına xidmət etmir, həm də Amerikanın qlobal təsir mexanizmini gücləndirir: “Vaşinqtonun Cənubi Qafqazda və Mərkəzi Asiyada mövqelərinin möhkəmlənməsi üçün Bakı ilə birbaşa əməkdaşlıq qaçılmazdır. Azərbaycan bu regionda nəqliyyat, enerji və təhlükəsizlik baxımından həlledici oyunçudur. ABŞ üçün bu əməkdaşlıq həm Rusiya və Çin qarşısında balans yaratmaq, həm də uran və digər nadir faydalı qazıntılar kimi strateji resurslara çıxışı təmin etmək baxımından həyati əhəmiyyət daşıyır. Beləliklə, 907-ci düzəlişin ləğvi ABŞ-ın maraqlarını real geosiyasi mühitlə uzlaşdıracaq və regionda yeni güc mərkəzi formalaşdırmaq istiqamətində mühüm addım olacaq”.

*Səxavət HƏMİD*
*XQ*

# Milli Məclisin sədri COP30-un Liderlər Sammitində



**Milli Məclisin sədri Sahibə Qafarova Braziliyanın Belem şəhərində keçirilən COP30-un Liderlər Sammitində çıxış edib.**

S.Qafarova çıxışında Azərbaycanın təşkilatçılığı ilə COP29-un əldə etdiyi mühüm nailiyyətlər barədə geniş məlumat verib. O deyib ki, böyük maneələrə və qeyri-müəyyənliklərə baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ən uğurlu COP-lardan birinə ev sahibliyi edərək, qlobal iqlim prosesinə mühüm töhfə verib.

Qeyd edilib ki, COP29 zamanı tərəflər arasında fikir ayrılıqları aradan qaldırılıb, əvvəlki danışıqlarda həllini tapmamış məsələlər üzrə tarixi konsensus əldə olunub. Azərbaycan COP29-da Bakı Maliyyə Hədəfinin qəbuluna nail olub. Bu sənəd 2025-ci ildən etibarən inkişaf etməkdə olan ölkələr üçün hər il 300 milyard ABŞ dollarının səfərbər edilməsini nəzərdə tutur. Bu, BMT-nin indiyədək qəbul etdiyi ən böyük maliyyə paketi hesab olunur. Həmçinin COP29-da inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilədək iqlim maliyyəsinin illik ən azı 1,3 trilyon dollara çatdırılması hədəfi müəyyən edilib. Bu məqsədlə Azərbaycan Braziliya ilə birgə "Bakı–Belem Yol Xəritəsi"nin hazırlanması istiqamətində sıx əməkdaşlıq həyata keçirib.

Qeyd olunub ki, COP29, həmçinin 2025-ci ildən "İtki və Zərər Fondu"nun fəaliyyətə başlamasına və resursların istifadəyə hazır olmasına şərait yaradıb. Qlobal iqlim fəaliyyətində şəffaflıq və hesabatlılığın artırılması məqsədilə Genişləndirilmiş Şəffaflıq Çərçivəsi aktivləşdirilib. Bundan əlavə, uyğunlaşma, gender bərabərliyi, yerli xalqlar və digər prioritet istiqamətlər üzrə də razılaşmalar əldə olunub.

Sahibə Qafarova çıxışında Azərbaycanın ən həssas qrupların dəstəklənməsinə xüsusi önəm verdiyini vurğulayıb. Deyib ki, bu istiqamət ölkəmizin COP29 sədrliyinin əsas prioritetlərindən biri olub. Azərbaycan İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri (SIDS) və Ən Az İnkişaf Etmiş Ölkələrin (LDCs) nümayəndələrinin COP29-da iştirakını maliyyə baxımından dəstəkləyib.

Sahibə Qafarova qeyd edib ki, COP29 yalnız mühüm nəticələrlə deyil, həm də çoxtərəfli əməkdaşlıq sisteminə inamın bərpası ilə yadda qalıb. Azərbaycan COP28 və COP30 sədrlikləri ilə birgə iddialı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC) təşviq etmək istiqamətində güclü öhdəlik nümayiş etdirib. Ölkəmiz 2050-ci il üçün müəyyən edilmiş iqlim hədəflərinin reallaşdırılmasını 15 il önə çəkərək, bu məqsədləri 2035-ci ilədək çatmağı planlaşdırır.

Sonda Sahibə Qafarova qeyd edib ki, COP29-un nəticələri iqlim fəaliyyəti üzrə yeni mərhələnin əsasını qoyub. COP30 isə bu istiqamətdə daha iddialı planların həyata keçirilməsi üçün mühüm fürsət yaradır. Azərbaycan COP30 prezidentliyinin "İcra COP-u" baxışını tam dəstəkləyərək, bu prosesə töhfə verməyə hazırdır.

*

Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində "Enerji Keçidi" mövzusunda tematik sessiyada da çıxış edib.

Parlamentin spikeri çıxışında qeyd edib ki, təmiz enerjiyə keçidin sürətləndirilməsi istixana qazı emissiyalarının azaldılması, iqlim dəyişikliyinə qarşı mübarizə aparılması və dayanıqlı inkişafın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, bu məqsədə nail olmaq üçün indiyədək əldə olunmuş nailiyyətlər əsasında ardıcıl və qətiyyətli səylər göstərilməlidir.

Azərbaycan Beynəlxalq Enerji Agentliyi ilə birgə dörd Yüksək Səviyyəli Enerji Keçidi Dialoqu təşkil edib, dünyanın müxtəlif regionlarından tərəfdaşları bir araya gətirib. Bu müzakirələr enerji sahəsində gündəliyin formalaşdırılmasına istiqamət verib. Nəticə etibarilə, BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO), Avropa İqtisadi Komissiyası (UNECE), Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), Beynəlxalq Enerji Agentliyi (IEA) və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) ilə sıx əməkdaşlıq çərçivəsində COP29 sədrliyi üç mühüm enerji təşəbbüsünü təqdim edib: Qlobal Enerji Saxlancı və Şəbəkələri Vədi, Yaşıl Enerji Zonaları və Dəhlizləri Vədi və COP29 Hidrogen Bəyannaməsi.

Milli Məclisin sədri deyib ki, bu təşəbbüslər Paris Sazişi çərçivəsində aparılmış ilk Qlobal Qiymətləndirmədən əldə olunan nəticələrə və mövcud öhdəliklərə əsaslanır, icra boşluğunun aradan qaldırılmasının və təxirəsalınmaz addımların zəruriliyini əks etdirir.

Bərpaolunan enerji resurslarımızın texniki potensialı quruda 135 QVt, dənizdə isə 157 QVt, bu resursların iqtisadi potensialı isə təxminən 27 QVt səviyyəsində qiymətləndirilir. Hazırda bərpaolunan enerjinin payı ümumi quraşdırılmış enerji gücünün təxminən 18,8 faizini təşkil edir ki, bu da təqribən 1,8 QVt-a bərabərdir. 2027-ci ilə qədər ümumi gücü 2 QVt-dan artıq olan yaşıl enerji layihələrinin həyata keçirilməsi planlaşdırılır.

Eyni zamanda qeyd olunub ki, 2030-cu ilə qədər ölkəmizdə istehsal edilən enerjinin təxminən 40 faizinin bərpaolunan enerji mənbələrindən əldə olunması nəzərdə tutulur.

Çıxışının sonunda Milli Məclisin sədri qeyd edib ki, beynəlxalq ictimaiyyətin məsul üzvü kimi Azərbaycan bərpaolunan enerji gücünü artırmaq, hidroenerji potensialını inkişaf etdirmək və enerji səmərəliliyi tədbirlərini gücləndirmək istiqamətində səylərini davam etdirəcək.

*XQ*

# Yunanıstan səfirinin fəaliyyəti başa çatır



**Noyabrın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kristo Kapodistrianla ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Görüş zamanı nazir Ceyhun Bayramov səfir Kapodistrianın Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin inkişafındakı xidmətlərini yüksək qiymətləndirərək, ona təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir Kristo Kapodistria öz növbəsində Yunanıstanın Azərbaycanda səfiri kimi fəaliyyətini xoş təəssüratlarla xatırlayacağını bildirib, ona fəaliyyətində göstərilən dəstəyə görə təşəkkür edib.

*XQ*

# Mətbuat Şurasının Prezident İlham Əliyevə təbrik məktubu

**Azərbaycan jurnalistləri adından Mətbuat Şurasının İdarə Heyəti 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

MŞ
Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

Məktubda deyilir:

"Möhtərəm cənab Prezident,

Dövlətimizin rəhbəri və Müzəffər Ali Baş Komandan kimi Sizin müdrik, prinsipial və qətiyyətli siyasətiniz, xalqımızın sarsılmaz iradəsi, dövlət-xalq birliyi, rəşadətli ordumuzun qəhrəmanlığı nəticəsində müasir tariximizin ən parlaq səhifələrindən birinə çevrilmiş 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümünü böyük qürurla qeyd edirik.

Siz yalnız hərb meydanında deyil, eyni zamanda, diplomatiya və informasiya cəbhələrində aparılan mübarizə nəticəsində qazanılmış bu şanlı Qələbənin əsas memarısınız.

44 günlük Vətən müharibəsi dövründə dünyanın 30-dan artıq nüfuzlu media qurumuna verdiyiniz müsahibələrdə Azərbaycanın haqlı mövqeyini, tarixi ədalətin bərpası uğrunda aparılan mübarizəni yüksək peşəkarlıq və böyük məharətlə ifadə etdiniz. Bəzən qərəzli suallara belə tarixin və ədalətin səsi kimi təmkinlə cavablandırdınız, fakt və arqumentlərlə xalqımızın səsini bütün dünyaya çatdırdınız.

Azərbaycan mediası, jurnalistlərimiz Sizin ətrafınızda yumruq kimi birləşərək həm cəbhə bölgəsindən, həm də diplomatik və informasiya səngərlərindən vətəndaşlarımızı, beynəlxalq ictimaiyyəti operativ və obyektiv məlumatlandırdılar. Jurnalistlərimiz məhz Sizdən nümunə götürərək Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, ölkəmizə yönəlmiş dezinformasiya və təxribatlara qarşı mübarizədə əsl peşəkarlıq və vətənpərvərlik nümunəsi göstərdilər. Onlar informasiya cəbhəsinin əsgərlərinə çevrilərək Zəfərin qazanılmasına mənəvi və ideoloji töhfə verdilər.

Bu gün artıq müharibə geridə qalıb, xalqımız işğaldan azad olunmuş torpaqlarımızın dirçəlişi və "Böyük Qayıdış" dövrünü yaşayır. Sürətlə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, müasir infrastrukturun yaradılması, şəhər və kəndlərin yeni simasının formalaşması Azərbaycan dövlətinin gücünü və iradəsini bütün dünyaya nümayiş etdirir. Bu prosesdə Azərbaycan mediası da fəal iştirak edir – görülən işləri işıqlandırır, Vətən torpaqlarına qayıdan insanların sevincini, quruculuğun miqyasını və dövlət siyasətinin mahiyyətini xalqa və dünyaya dolğun çatdırır.

Sizin mediaya göstərdiyiniz diqqət və qayğı jurnalistlər üçün həm mənəvi dəstək, həm də böyük stimul mənbəyidir. Medianı milli maraqların müdafiəsində mühüm qüvvə kimi qiymətləndirməyiniz, onun azad, məsuliyyətli və vətənpərvər fəaliyyətinə verdiyiniz önəm ölkəmizdə media mühitinin inkişafına yeni nəfəs gətirib.

Bu inkişafın bariz nümunələrindən biri də Şuşa Qlobal Media Forumudur. Ölkəmizin mədəniyyət paytaxtı Şuşada keçirilən bu mötəbər tədbir təkcə media müzakirəsi deyil, həm də Azərbaycanın dünyaya bəyan etdiyi sülh, ədalət və əməkdaşlıq mesajının ifadəsidir.

Möhtərəm cənab Prezident,

Bu möhtəşəm və tarixi gündə Sizi media ictimaiyyəti, jurnalistlərimiz adından təbrik edir, uzun ömür, möhkəm cansağlığı, ölkəmizin daha da inkişafı, milli dövlətçiliyimizin möhkəmlənməsi naminə ali və şərəfli dövlət fəaliyyətinizdə uğurlar arzulayırıq.

Qoy, bu Zəfər gələcək nəsillərə milli birlik, dövlətçilik və qürur nümunəsi olsun!".

# Azərbaycan QHT-ləri Prezident İlham Əliyevin tarixi missiyasını alqışlayır

**Bu günlərdə Azərbaycan QHT-ləri Xankəndidə Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.**

Müraciətdə QHT-lər dövlətimizin başçısının Azərbaycanı qələbədən-qələbəyə aparan siyasətini tam müdafiə edir, müharibənin qalibi və sülhün müəllifi kimi Prezident İlham Əliyevin tarixi missiyasını alqışlayaraq bildiriblər: "Bu il avqustun 8-də keçirilmiş Vaşinqton Zirvə görüşü də sübut edir ki, "Konstitusiya və Suverenlik İli" Azərbaycan tarixinə yeni mərhələnin başlanğıcı kimi düşəcək. Biz Sizinlə fəxr edirik!

Şəhidlərimizin qanı, veteranlarımızın şücaəti, xalqımızın birliyi, Sizin güclü liderliyiniz və dəmir yumruğunuz sayəsində əldə edilmiş ərazi bütövlüyü və suverenliyimizi göz bəbəyi kimi qorumaq ilk növbədə vətəndaşlıq borcu, milli şərəfimizdir. Azərbaycan QHT-ləri bu yolda daim mübariz olacaq!".

Müraciətdə, həmçinin Böyük Qayıdışa güclü dəstək ifadə edilir: "Qarabağ və Şərqi Zəngəzurun azad edilməsi, sürətlə dirçəlişi Sizin yürütdüyünüz siyasətin təntənəsi, tarixi bəhrəsidir. İşğaldan azad olunmuş ərazilərdə - 30 il müddətində viran qalmış yerlərdə qısa müddətdə 6 şəhər, 2 qəsəbə və 20 kənd qurulub, 60 minə yaxın insan artıq bu yerlərdə məskunlaşıb, proses sürətlə davam edirilir. Azərbaycan postmünaqişə bölgəsində şəhərsalma təcrübəsi ilə dünyada bənzərsiz nümunə, model yaradıb".



*Xuntaçıların məhkəməsi*

# Erməni separatçıları siyasi və hərbi cinayətlərdə təqsirləndirilirlər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 7-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli məhkəmə iclasında sənədlərin və sübutların təqsirləndirilən şəxs Babayan David Klimi ilə bağlı olan hissəsini diqqətə çatdırıb.

Bildirilib ki, David Babayan Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkar müharibə zamanı 1998-ci ildə qondarma qurumun fəaliyyətinə qoşulub, 2023-cü ilədək müxtəlif "vəzifələr"də işləyib. D.Babayan təcavüzkar müharibənin hazırlanması, təşkili, aparılması və legitimləşdirilməsində qəsdən və bilavasitə iştirak etməklə müharibə və sülh və insanlıq əleyhinə olan cinayətlərin törədilməsində iştirak edib.

Dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxs İşxanyan Davit Rubeni barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb. Bildirilib ki, D.İşxanyan müxtəlif vaxtlarda batalyon komandiri, qondarma rejimin "deputatı, "parlamentinin spikeri" və digər "vəzifələr"də işləyib. Qeyd olunub ki, D.İşxanyan qoşulduğu cinayətkar birliyin tərkibində 1989-2023-cü illərdə Ermənistan tərəfindən Azərbaycan Respublikasının suveren ərazilərinin işğalında iştirak edib.

Sonra dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev təqsirləndirilən şəxs Babayan Madat Arakeloviç barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona qarşı irəli sürülmüş ittiham üzrə zəruri xüsusatları elan edib. Diqqətə çatdırılıb ki, təqsirləndirilən şəxs Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı törədiləcək cinayətlərdə iştirak etmək məqsədilə cinayətkar birliyə qoşulub.

Paşayan Melikset Vladimiri barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev bildirib ki, təqsirləndirilən şəxs 1992-1995-ci illərdə, 2020-ci ilin sentyabr-noyabr və 2023-cü ilin may-sentyabr aylarında cinayət hadisələrinin törədilməsində iştirak edib.



Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev Martirosyan Qarik Qriqori barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları elan edib. Müəyyən edilib ki, Q.Martirosyan cinayətkar birliyin üzvü kimi azərbaycanlılara qarşı ağır və xüsusilə ağır cinayətlərin törədilməsi ilə müşayiət olunan təcavüzkar müharibədə fəal iştirak etdiyi üçün və işğal dövründə törədilən cinayətlərə görə məsuliyyət daşıyır.

Sonra Allahverdiyan Davit Nelsoni barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırılıb. Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev qeyd edib ki, təqsirləndirilən şəxs 2006-2008-ci illərdə, 2020-ci ilin sentyabr-noyabr, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev Balayan Levon Romiki barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb. Qeyd olunub ki, o, 1995-1998-ci illərdə, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan müddət ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib.

Beqlaryan Vasili İvani barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev bildirib ki, təqsirləndirilən şəxs 2012-2013-cü illərdə, habelə 2022-ci ilin sentyabrından 2023-cü ilin sentyabr ayının sonunadək Azərbaycan Respublikasının ərazilərində cinayət hadisələrinin törədilməsində iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev Stepanyan Qurgen Homeri barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb. Bildirilib ki, o, 2005-2007-ci illərdə Füzuli rayonu ərazisində ön cəbhədə "xidmət edib", Xocalı rayonunun ərazisində qanunsuz silahlı mütəşəkkil birləşməyə qoşulub.

Qazaryan Erik Roberti barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona qarşı irəli sürülən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev bildirib ki, Ermənistan Respublikasının vətəndaşı olan təqsirləndirilən şəxs 2021-ci ilin aprel ayından 2023-cü ilin sentyabr ayının sonunadək olan müddət ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib.

İttiham tərəfinin çıxışları zamanı təqsirləndirilən şəxslərin ittiham olunduğu cinayətlər üzrə fotoşəkillər də nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 13-də davam etdiriləcək.

*XQ*

# Zəfər yürüşünün Şuşa zirvəsi

**Şuşa şəhəri əsası qoyulduğu vaxtdan Azərbaycanın milli və mədəniyyət mərkəzi olmaqdan əlavə, həm də strateji mövqeyi ilə mötəbər müdafiə qalası olmuş, ətraf bölgənin nəzarət altında saxlanması üçün əlverişli məkana çevrilmişdi. I Qarabağ savaşı zamanı şəhərin məsuliyyətsizlik və xəyanətin qurbanı olması çevrədəki yaşayış məntəqələrinin və rayonların da müdafiəsini zəiflətmiş və işğal olunmasını asanlaşdırmışdı.**



Bu mənada, II Qarabağ savaşında şəhərin azad edilməsi və yenidən Azərbaycan dövlətinin nəzarəti altına qaytarılması Ermənistanın işğalçılığına son qoyulması və respublikanın ərazi bütövlüyünün təmin edilməsi üçün ciddi hərbi-siyasi üstünlük yaradırdı. Ona görə də Vətən müharibəsinin gedişində Şuşa şəhərinin azad edilməsi, bu şəhərdə milli ruhun bərpa edilməsi istəyi Azərbaycan xalqının və onun dövlət rəhbərliyinin diqqət mərkəzində dayanan mühüm məsələlərdən biri idi.

Bu gerçəyin önəmini ifadə edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bildirmişdi ki, Şuşasız bizim işimiz yarımçıq olardı: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində də hər zaman bu məsələ gündəlikdə idi. …Amma mənim mövqeyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

2020-ci il oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsindən sonra cənub bölgəsində fəaliyyət götürən Azərbaycan Silahlı Qüvvələrinin əsas zərbə gücü Laçın və Şuşaya doğru istiqamətləndirildi. Amma dövlət başçısının qeyd etdiyi kimi, Şuşa şəhərinin azad edilməsi üçün konkret addımların atılmasına Hadrutun erməni hərbi qüvvələrindən təmizlənməsindən sonra başlandı.

Prezident İlham Əliyev bildirmişdi ki, "oktyabrın 9-da Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik". Hadrutun azad edilməsi Şuşaya aparan yolun nəzarət altına alınması baxımından hərbi əhəmiyyət kəsb edirdi.

Bu qəsəbə erməni işğalından azad edildikdən sonra əsas diqqət ətraf yaşayış məntəqələrinin və Füzulinin azad edilməsinə istiqamətləndirildi. Şuşa istiqamətində uğurlu hücuma başlanması həm də göstərilən yaşayış məntəqələrinin azad edilməsindən asılı idi. Burada planlaşdırılan döyüşlərin aparılmasına xüsusi təyinatlı qüvvələr daha fəal şəkildə cəlb edildilər.

Hərbi rəhbərliyin qərarına əsasən, bölgədəki xüsusi təyinatlı qüvvələr iki dəstəyə bölündülər. Birinci dəstəyə Xocavənd, ikinci dəstəyə isə Hadrut–Şuşa istiqamətində irəliləmək əmri verildi. İki gün ərzində aparılan döyüşlər nəticəsində Füzulinin bir neçə yaşayış məntəqəsi, Hadrut-Qarakollu yolu, bir neçə böyük yaşayış məntəqəsi və strateji yüksəklik ələ keçirildi.

Erməni hərbi-siyasi rəhbərliyi Azərbaycanın hərbi qüvvələrinin Şuşaya həm də Hadrutdan keçməklə hücum edəcəyini gözləyirdi. Bunun qarşısının alınması üçün Hadrutdan Qırmızı Bazara aparan yolun şimal-qərbindəki dağ yüksəkliklərində erməni hərbi qüvvələri möhkəmləndirilmiş müdafiə mövqeləri qurmuşdular. Belə bir ehtimal var idi ki, Azərbaycan Ordusu bu istiqamətdən Şuşaya doğru irəliləmək istəsə, onda əlverişli mövqelərdən bu orduya güclü zərbə vurmaq mümkün olacaq.

Qırmızı Bazardan keçən yolun ətrafında güclü müdafiə mövqelərinin qurulması erməni hərbi komandanlığının Qarabağın, xüsusilə Şuşa və Xankəndinin qorunması üçün yaratdığı çoxeşelonlu müdafiə sisteminin tərkib hissəsi idi. Erməni rəhbərliyinin planlarına görə, əgər cənubdakı aran ərazilərdə, xüsusilə Füzuli–Cəbrayıl istiqamətindəki erməni müdafiə xətləri Azərbaycan Ordusu tərəfindən yarılmış olardısa, onda Hadrut–Qırmızı Bazar yolunun hər iki kənarındakı dağ yüksəkliklərində yaradılmış müdafiə xətti ilə Azərbaycan qüvvələrinin Şuşaya doğru irəliləməsinin qarşısını almaq olardı.

Bu yolun ermənilər tərəfindən bağlanması ilə Azərbaycan hərbi qüvvələrinin, hərbi texnikasının Şuşaya yaxınlaşmasına ciddi əngəllər yaradılmış olardı. Ona görə, Hadrut–Qırmızı Bazardan keçməklə Şuşaya aparan yol hər iki tərəf üçün hərbi-strateji əhəmiyyət kəsb edirdi. Bu yol ilə irəliləmək Azərbaycan Ordusu üçün müəyyən itkilərlə müşayiət oluna bilərdi. Ona görə, Qırmızı Bazardan keçən yolun ətrafında hərbi gərginliyi saxlamaqla Azərbaycan Ordusunun bölmələri Hadrutdan başlayaraq yolsuz dağlıq və sıx meşəlik ərazilərlə Şuşaya doğru irəliləməyə başladılar.

Prezident İlham Əliyev qeyd edilən istiqamətdən Şuşaya doğru irəliləməyin nə dərəcə çətin olduğunu belə izah edirdi: "Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı. Yolumuz deyəndə, o yol yox idi. Uğurlu Hadrut əməliyyatından sonra, - hansı ki, Ermənistanda fərarilərin sayını kəskin artırmışdır, - onlar inanmırdılar ki, biz o istiqamətdə gedəcəyik. Onlar bizi başqa yerlərdən gözləyirdilər. Amma bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə. Dərələrdən, meşələrdən, cığırlardan keçərək Şuşaya istiqamət götürdülər".

Hadrutdan düz xətt boyunca Şuşaya qədər olan 50–60 kilometr məsafədəki sıldırım dağlı ərazilər o dərəcədə keçilməz ərazilər idi ki, erməni hərbi komandanlığı üçün Azərbaycan Ordusunun rəhbərliyi tərəfindən belə bir qərar veriləcəyi insan zəkasına sığışmayacaq bir seçim kimi qəbul edilirdi. Digər tərəfdən erməni hərbi-siyasi rəhbərliyi inanmırdı ki, Azərbaycan Ordusunun bölmələri hərbi texnikanın və pilotsuz uçuş aparatlarının köməyi olmadan erməni mövqelərinə doğru irəliləməyə cəsarət edə bilərlər. Amma Azərbaycan Ordusunun rəhbərliyi belə bir qərarı qəbul etdi. Bununla belə Azərbaycanın hərbi komandanlığı Hadrut-Xocavənd istiqamətində xeyli sayda qüvvə də saxladı ki, oradakı erməni qüvvələrinin Şuşanın müdafiəsinə yönəlməsinin qarşısı alınsın.

Azərbaycan hərbi qüvvələrinin Hadrut-Şuşa istiqamətində irəliləməsinin təmin edilməsi üçün Müdafiə Nazirliyinin Mühəndis-istehkam qoşunları böyük məharət və peşəkarlıq nümayiş edirdilər. Bu qüvvələrin köməyi ilə keçilməz ərazilərdən yollar açıldı, Azərbaycan bölmələrinin qısa bir zaman ərzində Şuşa ətəklərinə çatması təmin edildi. Bu qüvvələr məsuliyyətli və gərəkli bir vəzifəni icra etdikləri üçün onlara hərtərəfli dəstək verildi. Ordu bölmələri bölgədə planlaşdırdıqları bəzi döyüşlərlə erməni hərbi qüvvələrinin diqqətini mühəndis qüvvələrinin fəaliyyətindən də yayındıra bildi.

Qeyd edilməlidir ki, müharibənin gedişində Şuşa şəhərinin dinc yolla geri qaytarılması imkanı da meydana gəlmişdi. Belə ki, Azərbaycan Ordusu qüvvələri oktyabr ayının 20-də Zəngilan şəhərini azad edərək İranla sərhəd boyunca əraziləri nəzarət altına alanda Rusiya Prezidenti V.Putin iki respublika arasında gedən müharibənin dayandırılması haqqında Azərbaycan və Ermənistan tərəfinə təkliflər təqdim etdi.

Azərbaycan tərəfi qaçqın və köçkün düşmüş Azərbaycan vətəndaşlarının öz yurdlarına, o cümlədən Şuşa şəhərinə qaytarılması şərti ilə müharibənin dayandırılmasına razı oldu. Ermənistanın baş naziri isə bu təklifi qəbul etmədi. Ermənistan rəhbərliyinin nəzərində Şuşaya azərbaycanlı köçkünlərin qayıtması Şuşanın azərbaycanlıların ixtiyarına verilməsi demək idi. Çünki Şuşa 1992-ci ildə Ermənistan hərbi qüvvələri tərəfindən işğal ediləndə bu şəhərin əhalisinin 80 faizi azərbaycanlılar və cəmi 20 faizi ermənilər idi. Yəni Şuşa yenidən öz azərbaycanlı görkəminə qayıtmalı idi. Bu isə erməniləri qane etmirdi. Ona görə də müharibənin dayandırılması üçün mövcud olan fürsət Ermənistan rəhbərliyinin günahı üzündən əldən verilmiş oldu.

Müharibənin dayandırılması ilə bağlı Rusiya prezidentinin təklifləri müzakirə olunanda Azərbaycan Ordusunun bölmələri artıq Şuşanın 20 kilometrliyinə qədər irəliləyə bilmişdilər. 2020-ci il oktyabr ayının 29-da isə Azərbaycan hərbi qüvvələri artıq Şuşa şəhərinin 5 kilometrliyinə qədər yaxınlaşmışdılar. Bunun Xankəndidə yaradılmış qondarma qurumun rəhbərləri də etiraf etmək məcburiyyətində qalmışdılar. Ona görə də Şuşaya təcili şəkildə Ermənistandan yeni erməni qüvvələri gətirilməsi məsələsinə baxıldı, Şuşa ətrafındakı mövqelər mümkün qədər gücləndirildi və şəhərin dörd ətrafı ciddi müşahidə altına alındı.

Həvalə edilmiş döyüş tapşırığının icrası üçün yaradıcı təfəkkürün ortaya qoyulması, gözlənilməzliyin, sürətin məntiqi seçimlə düzgün uzlaşdırılması, fiziki göstəricilər və mənəvi motivlər Azərbaycanın xüsusi təyinatlı qüvvələrinə imkan verdi ki, çox mürəkkəb coğrafi şəraiti arxada qoymaqla Şuşa şəhərinə yaxınlaşssın və bu şəhərin həndəvərində yerləşmiş erməni hərbi qüvvələri ilə döyüşlərə başlasın. Hərbi aviasiyanın, raket-artilleriya qüvvələrinin fəal himayəsindən uzaq düşmüş Azərbaycan bölmələri kiçik dəstələrlə düşmənin müdafiə sahələrini tədricən zərərsizləşdirərək Şuşa həndəvərinə qədər təhlükəli və məsuliyyətli bir yol keçməli oldular.

Dağ yüksəkliklərində yaradılmış atəş nöqtələrindən erməni hərbi qüvvələrinin müqavimət göstərmək cəhdləri də Azərbaycan bölmələrinin irəliləməsinin qarşısını saxlaya bilmədi. Erməni hərbi qüvvələri əlverişli atəş mövqelərində olsalar belə, təcrübəli mütəxəssislər Azərbaycan Ordusunun uğuruna şübhə etmirdilər. Bir tərəfdən Azərbaycan hərbi qüvvələrinin üstün fiziki və taktiki hazırlığı, döyüşkən mənəvi əhvali-ruhiyyəsi, digər tərəfdən də erməni hərbi qüvvələrinin aldıqları ağır zərbələrdən və itkilərdən sonra sarsıntı və çarəsizlik içərisində olması belə bir qənaətə gəlməyə əsas verirdi.

Erməni hərbi-siyasi rəhbərliyinin havaların soyuması ilə hərbi vəziyyətin yaxşılaşacağına bağladığı ümidlər isə özünü doğrultmadı.

Mürəkkəb coğrafi şəraitin Şuşaya doğru irəliləyən Azərbaycan bölmələrinə hansı çətinliklərin yaratdığını Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarının birində belə şərh etmişdi: "Döyüşçülər nə götürə bilərdilərsə götürməliydilər, amma özünlə nə götürə bilərsən? Maksimum qumbaraatan. Bu, inanılmaz fiziki qüvvə, hazırlıq tələb edir. Bu, sal qayalara aşağıdan dırmaşmaq lazımdır. Müdafiə xətləri çox möhkəmlənib, özü də orada ermənilərin tankları və topları vardı. Bizdə isə süngü-bıçaqlar və yüngül silah".

Azərbaycan əsgərinin və zabitinin sonsuz fədakarlığı nəticəsində nəinki bu fiziki sınaqlara, həm də döyüş sınaqlarına üstün gəlmək mümkün oldu. Onun üçün idi ki, 2020-ci il oktyabr ayının 29-30-da Azərbaycan Ordusunun bölmələri artıq Daşaltı kəndi ətrafında döyüşlər aparırdılar. Bu kənd Şuşanın qapısı hesab edilirdi və erməni hərbi komandanlığına aydın idi ki, bu kəndin işğaldan azad edilməsi erməni hərbi qüvvələrinin durumunu daha da ağırlaşdıracaqdır.

Oktyabrın 29-30-da yalnız Şuşa ətrafında deyil, eyni zamanda Qubadlı və Xocavənd istiqamətində də gərgin döyüşlər davam etdi. Bu şəhərlərin hər ikisi Şuşaya aparan strateji yolların üzərində yerləşirdi. Xocavənddən keçən yol Qarabağın cənub-şərqindən Şuşaya çıxmaq imkanı verə bilərdisə, Qubadlıdan keçən yol isə Qarabağın cənub-qərbindən, Ermənistan sərhədi boyunca irəliləməklə Laçına çıxmaq və Laçın-Şuşa yolunu nəzarət altına almaq imkanı verə bilərdi. Ona görə də Qubadlıdan Laçına aparan ensiz dağ yolu həm Ermənistan tərəfindən, həm də Laçın istiqamətindən erməni hərbi qüvvələrinin atəş nəzarəti altına alınmışdı.



Coğrafi şəraitin xüsusiyyətlərinə görə, erməni hərbi qüvvələri böyük qüvvə cəlb etmədən də bu istiqaməti raket-artilleriya nəzarəti altına ala bilərdilər. Müşahidəçilər hətta onu da qeyd edirdilər ki, erməni hərbi-siyasi rəhbərliyi lazımi çevikliyi nümayiş etdirəcəyi təqdirdə Qubadlı istiqamətindəki Azərbaycan hərbi qüvvələrinə ciddi təhlükə də yarada bilərdi.

Bununla belə, noyabr ayının 2-də Qubadlının daha bir neçə yaşayış məntəqəsini erməni işğalından azad etmək mümkün oldu. Həmin kəndlər arasında rayonun İşıqlı, Muradxanlı, Milanlı kəndləri də var idi. Bu kəndlər Laçın qəsəbəsinin cəmi 12 kilometrliyində idi. Bu da imkan verirdi ki, həmin məntəqələrdən Laçın qəsəbəsi və Ermənistan Şuşa ilə birləşdirən Laçın-Şuşa yolu raket-artilleriya atəşlərinin nəzarəti altına alınsın. Şuşanın şərqindən isə Azərbaycan hərbi qüvvələri artıq Sıqnax kəndi ətrafına yetişmişdilər. Yəni Azərbaycan bölmələri həm Sıqnax istiqamətində, həm də Daşaltı tərəfdən Laçın yolu kənarında kifayət qədər uğurlu mövqelər ələ keçirməklə Şuşa üzərinə hücum üçün əlverişli üstünlüklər qazanmışdılar.

Bu uğurların nəticəsi idi ki, noyabr ayının 3-də Laçın-Şuşa yolu hərəkət üçün bağlanıldı və hətta Ermənistandan Xankəndiyə gələn bir sıra jurnalistlər artıq bu yol ilə geri qayıda bilmədilər. Bununla eyni zamanda Qarabağdakı erməni qüvvələrinin Ermənistanla əsas təchizat yolu da bağlanmış oldu.

Şuşa şəhərinin azad edilməsi üçün Azərbaycan Ordusunun əldə etdiyi mühüm uğurlardan biri isə noyabr ayının 4-də Daşaltı kəndinin erməni işğalından azad edilməsi oldu. Bu kəndin azad edilməsi üçün Azərbaycanın ordu bölmələri, o cümlədən xüsusi təyinatlı qüvvələr ciddi sınaqlarla qarşılaşmalı oldular. Bu kəndin azad edilməsi Azərbaycanın ordu bölmələrinə Şuşa ətrafında əlavə taktiki üstünlüklər yaratmaqla Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin Şuşaya girməsini də asanlaşdırmalı idi. Ona görə də Daşaltı ətrafında tədricən güclü Azərbaycan dəstəsi formalaşdırılmışdı.

Daşaltı kəndinin Şuşanın müdafiəsi üçün hansı əhəmiyyət kəsb etdiyini erməni hərbi-siyasi rəhbərliyi də yaxşı başa düşürdü. Ona görə də erməni hərbi komandanlığı da bura əlavə qüvvələr cəlb etməklə Azərbaycan Ordusunun hücumunun qarşısını almağa çalışırdı. Xüsusilə, Daşaltı kəndinə aparan yolu kənarında yerləşən 1431 və 1553 nömrəli hakim yüksəkliklərdə böyük sayda erməni qüvvələri yerləşdirilmişdi. Həmin yüksəklikləri işğaldan azad etmədən, Daşaltı kəndinə yaxınlaşmaq da mümkün deyildi.

Noyabr ayının ilk günlərindən etibarən Şuşa ətrafında hava şəraiti də mürəkkəbləşmişdi. Ona görə Azərbaycan bölmələri artilleriyanın və pilotsuz hava aparatlarının imkanlarından istifadə etmək məhdudiyyəti ilə qarşılaşmışdılar. Bu isə əlverişli coğrafi şəraitdə qərar tutan erməni hərbi qüvvələrinin daha yaxşı müdafiə olunmaq imkanlarını artırırdı. Onun nəticəsi idi ki, Azərbaycan bölmələri 1553 nömrəli yüksəkliyin ələ keçirilməsi üçün çox ağır bir döyüşə qatılmalı oldu.

Həmin yüksəkliyin alınmasında xüsusi təyinatlı qüvvələrin üç taboru iştirak edirdi. Bütün mövcud çətinliklərə baxmayaraq, xüsusi təyinatlılar dörd saat ərzində bu yüksəkliyin zirvəsinə doğru süründülər və xeyli itki ilə qarşılaşmalarına rəğmən, yüksəkliyi ermənilərdən azad etdilər. Amma erməni hərbi qüvvələri bu itki ilə razılaşmadılar və 1553 nömrəli yüksəkliyin geri qaytarılması üçün çox ciddi əks-hücuma başladılar.

Bu əks-hücumun qarşısını saxlamaq tapşırığı almış xüsusi təyinatlı kəşfiyyat bölüyünün şəxsi heyətinin təxminən 60 faizi şəhid oldu. Lakin öz mövqelərindən geri çəkilmədilər. Sonra isə xüsusi təyinatlıların kəşfiyyat taboru irəli göndərildi. Bu tabor da itkilərlə qarşılaşdı. Lakin yüksəkliyi qoruyub saxlamaq mümkün oldu. Bu isə Daşaltı kəndinin erməni işğalından azad edilməsində həlledici rol oynadı. Daşaltının azad edilməsi ilə Şuşanın cənubu və Laçın yolu Azərbaycan qüvvələrinin nəzarəti altına alındı.

Daşaltının azad edilməsi də Azərbaycan bölmələrinin misilsiz şücaəti və igidliyi nəticəsində baş verdi. Ermənilər bu kənd üzərində də güclü əks-hücum təşkil etdilər. Belə ki, noyabr ayının 5-də ermənilər dörd taborluq qüvvələrlə Şuşa-Daşaltı, Qaybalı-Daşaltı, Laçın-Daşaltı istiqamətlərindən kənd üzərinə güclü hücuma başladılar. Ermənilər qüvvə üstünlüyü yaratmaqla Daşaltını geri qaytarmağa cəhd göstərdilər. Baş verən döyüş altı saat davam etdi. Buna baxmayaraq, kəndi ələ keçirmiş xüsusi təyinatlı qüvvələr bir addım da olsa geri çəkilmədilər.

Noyabrın 5-də Daşaltı kəndi ətrafındakı döyüşdə iştirak edən xüsusi təyinatlı qüvvələrin komandiri bu döyüşün gərginliyi haqqında belə yazırdı: "Daşaltı ətrafına böyük sayda erməni qüvvələri gətirilmişdi. Əlverişli coğrafi mövqelərdə, hakim yüksəkliklərdə yerləşdirilmiş çoxlu sayda hərbi texnika və raket-artilleriya ilə dəstəklənən bu qüvvələr bizim dəstəmizi dairəvi atəş altına almağa müvəffəq olmuşdular. Ona görə də xüsusi təyinatlılar Daşaltı ətrafında çox güclü bir müqavimətlə qarşılaşdılar.

Bu ağır döyüşlərdə onların xeyli yorulduğu hiss olunurdu. Çünki saatlarla və hətta günlərlə davam edən fasiləsiz və şiddətli döyüşlərdə bu vəziyyət təbii idi. Düşmənin ağır artilleriya atəşi altında, bu çətin anlarda son variant olaraq onlara bildirdim ki, cənab Prezident bu vəziyyəti bilir. Onlar isə təəccübləndilər: "Cənab Prezident bizim burada olmağımızı doğrudan bilir?" Mən isə əminliklə bildirdim: "Əlbəttə, bilir. O, bütün döyüş əməliyyatlarını izləyir". Bundan sonra onların əhval-ruhiyyəsi tam dəyişdi və çox böyük əzmlə döyüşə davam etdilər".

Daşaltının azad edilməsi əslində Şuşa şəhərinin Azərbaycan qüvvələri tərəfindən əhatələnməsini də tamamlamış oldu. Həm bu kəndin, həm də Laçından və Qırmızı Bazar istiqamətindən gələn yolun Şuşaya girişinin nəzarət altına alınması bu şəhər üzərinə əsas hücumun başlanmasına da əlverişli zəmin yaratdı. Noyabr ayının 4-də bu hücuma başlanması üçün qüvvələrin konkretləşdirilməsi, onların şəhərə qəfil hücum marşrutlarının müəyyənləşdirilməsi üçün lazım olan qərarlar qəbul edildi, Şuşa ətrafında olan qüvvələrin qarşısında dayanan vəzifələrə bir də baxıldı.

Şəhər ətrafında olan Azərbaycan qüvvələri Şuşa üzərinə əsas hücumun məhz onlar tərəfindən həyata keçiriləcəyi görüntüsü yaradıb erməni hərbi qüvvələrinin diqqətini öz üzərinə cəlb etməklə xüsusi təyinatlı qüvvələrin ermənilərin ehtimal etmədiyi ərazilərdən Şuşaya girməsinə şərait yaratmalı idilər. Bu mənada noyabr ayının 4-də həm də Şuşa şəhəri üzərinə qətiyyətli hücum üçün zəruri şəraitin yaradılması istiqamətində əhəmiyyətli işlər görüldü.

Noyabr ayının 5-də Şuşa üzərinə sürətli bir hücum başladı. Erməni hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusunun şəhər üzərinə əsas hücumunun Şuşaya giriş yollarından həyata keçiriləcəyini gözləyirdilər və əsas diqqəti də bu istiqamətlərə yönəltmişdi. Şuşanı dövrələmiş olan qayalıqlardan bu şəhərdəki erməni qarnizonuna ciddi təhlükə törədə biləcək qədər Azərbaycan qüvvələrinin şəhərə daxil ola bilməsi isə erməni hərbi-siyasi rəhbərliyinə mümkünsüz görünürdü.

Azərbaycanın xüsusi təyinatlı qüvvələri isə ənənəvi taktiki təfəkkür çərçivələrini aşaraq şəhərin ətrafında olan qayalıqlardan, dar cığırlardan, sıx meşəlikdən aşmaqla irəliləməyə, kiçik qruplarla şəhərə daxil olmağa başladılar. Sonra da bu qruplar gözlənilməz və qəfil şəkildə erməni mövqelərinə nüfuz etməklə onları məhv etdilər. Malik olduqları əlverişli mövqelər, çoxsaylı zirehli texnika da erməni qüvvələrini məhv olmaqdan xilas edə bilmədi. Nəticədə, elə noyabr ayının 5-də şəhərin xeyli hissəsi Azərbaycan qüvvələrinin nəzarəti altına keçdi.

Erməni mənbələri də etiraf edirlər ki, noyabrın 5-də Azərbaycanın xüsusi təyinatlı qüvvələri artıq Şuşaya daxil olmuşdular. Xankəndidə yaradılmış qondarma qurumun rəhbəri bildirirdi ki, noyabr ayının 5-də Şuşa şəhərinə nəzarət artıq qismən əldən çıxmışdı. Şuşanın işğal altında saxlanmasına kömək göstərilməsi üçün bu şəhərə gəlmiş Ermənistanın keçmiş müdafiə naziri də bildirirdi ki, noyabrın 5-də o və onun ətrafındakılar Şuşada Azərbaycan hərbi qüvvələrinin mühasirəsinə düşmüşdülər. Erməni mənbələrinin bəziləri isə noyabrın 5-də Şuşa şəhərinin bütünlüklə Azərbaycan Ordusunun nəzarəti altında olduğunu bildirirdi.

Qeyd etmək lazımdır ki, Şuşanın azad edilməsi uğrunda aparılan döyüşlər bütün cəbhə miqyasında planlaşdırılmış əməliyyatın tərkib hissəsi idi. Ona görə noyabr ayının 5-də Şuşa ilə bərabər, bütün cəbhə xətti boyunca Azərbaycan Ordusunun hücumları davam etdirildi. Müxtəlif istiqamətlər üzrə gərginliyi səngiməyən döyüşlər yeni-yeni ərazilərin işğaldan azad edilməsinə yol açmaqla, bütünlükdə erməni hərbi qüvvələrinin zəiflədilməsinə və cəbhəboyu yerləşən erməni qüvvələrinin Şuşa ətrafına atılmasına mane olmağa xidmət edirdi. Bütün bu istiqamətlərdə də Azərbaycan Ordusunun qətiyyətli mübarizəsi davam etməkdə idi.

Gün ərzində Tərtər, Ağdərə və Ağdam istiqamətində döyüşlər kifayət qədər intensiv xarakter aldı. Azərbaycan Ordusunun bölmələri Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumlarının, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə təxribat cəhdlərinin qarşısını qətiyyətlə aldılar. Tərtər istiqamətində endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu darmadağın edildi.

Erməni silahlı qüvvələrinin Ağdərə–Papravənd marşrutu ilə hərəkət edən 1 komandir, 1 rabitə avtomobili, şəxsi heyət və sursatla dolu 2 ədəd "KamAz" maşını və qoşqusunda top olan 3 ədəd "Ural" maşını tamamilə sıradan çıxarıldı. Həmin gün cəbhənin Ağdam istiqamətində Ermənistan ordusunun 41-ci topçu alayının batareyasının atəş mövqeləri də Azərbaycan bölmələri tərəfindən məhv edildi. Xocavənd istiqamətində də döyüşlər öz intensivliyini itirmədi.

Sonradan əldə edilmiş məlumatlar onu göstərirdi ki, Ağdam–Papravənd istiqamətində məhv edilən erməni hərbi qüvvələri Şuşanın qorunmasının gücləndirilməsinə vəzifələndirilibmişlər. Azərbaycan Ordusu bölmələrinin sərrast atəşlərindən sonra bu qüvvələr məhv edilməklə bərabər, həm də onların Şuşaya getməsinin qarşısı alındı.

Həm Azərbaycan üçün, həm də Ermənistan üçün müharibənin taleyinin həll edildiyi məkan isə Şuşa şəhəri idi.

*(ardı var)*

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti***
***Hərbi Elmi-Tədqiqat İnstitutunun***
***professoru, tarix elmləri doktoru***

# 8 Noyabr 2020-ci il: Şuşa, biz Zəfərlə qayıtdıq!



**2020-ci ilin 8 noyabrı Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin gün Şəhidlər xiyabanından xalqa müraciət edərək, tarixi Zəfər xəbərini – Şuşanın azad olunduğunu elan etdi. Bu, təkcə hərbi qələbə deyildi, eyni zamanda, 30 illik ədalətsizliyin, işğalın və milli ağrının sonu idi. Müraciət xalqın ürəyindən gələn duyğuların dövlət səviyyəsində təntənəsiydi. O gün Azərbaycan suverenliyinin, milli qürurunun və birliyinin sarsılmaz rəmzinə çevrildi.**

Dövlət başçısının xalqa müraciəti həm strateji, həm də ideoloji baxımdan çoxqatlı məna daşıyırdı. Bu nitqdə xalqın yenilməz ruhu və ordunun qəhrəmanlığı ilə Azərbaycanın üzləşdiyi tarixi ədalətsizliyin, nəhayət, aradan qaldırılması beynəlxalq aləmin diqqətinə çatdırılırdı. Bu nitqdə, eyni zamanda, Şuşanın azad olunması – Qələbənin zirvəsi və milli kimliyin bərpası kövrək notlarla ifadə edilirdi.

Azərbaycan mədəniyyətinin beşiyi, Qarabağın ürəyi olan Şuşa şəhərinin işğalçıdan geri alınması xalqın mədəni, mənəvi dirçəlişi demək idi. Ölkə rəhbəri belə bir tarixi müjdəni xalqa çatdırarkən, bu günün yetişməsi, soydaşlarımızın bu müqəddəs ocağa qovuşması üçün illərlə hazırlıq, iradə və strateji uzaqgörənlik tələb olunduğunu xüsusi vurğuladı.

Azərbaycan liderinin prezidentlik fəaliyyətinə başladığı 2003-cü ildən etibarən həyata keçirdiyi sistemli siyasət – ordu quruculuğu, diplomatik səylər, iqtisadi müstəqillik və xalqın dövlət ətrafında birləşməsi şanlı Zəfərin təməlini qoydu. Şuşa uğrunda döyüşlər Azərbaycanın qəhrəman oğullarının misilsiz fədakarlığını göstərdi. Bu şəhərin alınması mühüm hərbi əməliyyat olmaqla yanaşı, həm də xalqın mənəvi iradəsinin təntənəsi idi. Prezident İlham Əliyevin müraciəti bu qəhrəmanlığın siyasi və tarixi təsdiqi kimi xüsusi diqqət çəkdi.

Dövlətimizin başçısı müraciətində 44 günlük Vətən müharibəsi zamanı xalq, ordu və dövlətin bir yumruq kimi birləşməsini vurğulayır, "Biz bu birliyi nümayiş etdirdik və qalib gəldik" deyirdi. Prezident İlham Əliyev döyüşlər getdiyi zaman bəyanat və müsahibələrində bu tezisi tez-tez xatırladır, bununla da xalqın ölkə rəhbərinə, orduya inamını daha da möhkəmlədir, "Azərbaycan heç kimin torpağına göz dikmir, sadəcə öz haqqını və beynəlxalq hüququn tələblərini gerçəkləşdirir, beynəlxalq hüquqa sadiq qalmaqla tarixi ədalətin bərpasına nail olmağa çalışır",– deyə bildirirdi.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 300-dən çox yaşayış məntəqəsini, 5 şəhəri və 8 rayonu azad etməsi də bəhs olunan tezisin gerçəkləşdirilməsinin bariz ifadəsi idi. Ən başlıcası isə savaş günlərinin hər bir qələbəsini – yaşayış məntəqələrimizin sürətli hərbi əməliyyatlarla geri alınmasını dövlət rəhbərinin siyasi uzaqgörənliyi, dəmir iradəsi və ordunun peşəkarlığı şərtləndirirdi.

Azərbaycan liderinin xalqa müraciətində şəhidlərin ruhuna ehtiram bildirməsi və Zəfərin mənəvi dayaqlarından bəhs etməsi də xüsusi diqqət çəkirdi. Dövlət başçısı çıxışında "Biz bu qələbəni şəhidlərimizin qanı bahasına qazandıq" deyərkən tarixi Qələbənin mənəvi təməlini açıq şəkildə göstərirdi: "Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!".

Müraciətin Şəhidlər xiyabanından edilməsi də təsadüfi deyildi, bu, həm dövlət, həm də xalq səviyyəsində şəhidlərə sonsuz hörmətin ifadəsi olmaqla, Azərbaycan dövlətçiliyinin mənəvi sütunlarını daha da möhkəmlədir, gənc nəslin vətənpərvərliyini gücləndirirdi. Nəhayət, bu müraciət xalqda həm qürur, həm də məsuliyyət hissi doğurur, bu torpaqları qorumaq, inkişaf etdirmək, tikib-qurmaq, gələcək nəsillərə azad və qüdrətli bir dövlət miras qoymaq borcunun zəruriliyini diqqətə çatdırırdı.

Müraciətdə qələbənin siyasi və geosiyasi mənasına xüsusi əhəmiyyət verilməsi də önə çəkilirdi. Çünki 8 noyabr müraciəti həm də regionun geosiyasi mənzərəsini dəyişən bir hadisənin ideoloji bəyanı idi. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə beynəlxalq hüquqa əsaslanan yeni reallıq yaradırdı. Bu reallıq isə artıq Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın əsas şərtinə çevrilmişdi. Bu baxımdan Prezident İlham Əliyevin qəti mövqeyi – "Qarabağ Azərbaycandır!" ifadəsi təkcə siyasi şüar deyil, həm də beynəlxalq səviyyədə qəbul olunan reallıq idi. Müraciətin siyasi gücü həm də bu nitqin Azərbaycanın diplomatik və hərbi müstəqilliyinin, öz qərarlarını suveren şəkildə qəbul edə bilən dövlət statusu təntənəsinin nümayişi kimi diqqət çəkirdi.

Prezident İlham Əliyevin müraciətində təkcə qələbənin sevincindən deyil, həm də qarşıdakı vəzifələrdən bəhs edilirdi. "Biz bu torpaqları bərpa edəcəyik, həyata qaytaracağıq" sözləri Zəfərdən sonrakı dövrün strateji istiqamətini müəyyənləşdirirdi. Bu, "Böyük Qayıdış" siyasətinin ideoloji başlanğıcı idi. Müraciətin ardınca Qarabağda genişmiqyaslı bərpa, infrastruktur və sosial layihələrə başlanılması da bunun bariz ifadəsi idi. Azad olunmuş ərazilərin "yaşıl enerji zonası"na çevrilməsini, şəhərlərin "ağıllı" texnologiyalarla qurulmasını məhz həmin qələbə ruhu şərtləndirirdi. Ümumiyyətlə, tarixi Zəfər Azərbaycanın inkişaf modelinə yeni dinamika gətirdi və bu, özünü tez bir zamanda Qarabağın sürətli sosial-iqtisadi və mənəvi yüksəlişində büruzə verdi.

Vətən müharibəsində misilsiz uğurun əldə edilməsinin bir səbəbi də Qarabağın tezliklə cənnətə çevriləcəyi əminliyinin əsasında dayanan iqtisadi güc amili idi. Dövlətimizin başçısı bu məsələ ilə bağlı müraciətində deyirdi: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək".

Azərbaycan lideri müraciətində daha sonra iqtisadi güc sayəsində hərbi texnikanın, silahların xarici bazarlardan alındığını bildirir, eyni zamanda, daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimizin ölkəmizə əlavə güc verdiyini diqqətə çatdırırdı: "Biz imkan vermədik ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik".

Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

8 noyabr müraciəti dövlətimizin başçısının liderliyinin xalqın iradəsinin ifadəsi olduğunu göstərirdi. Prezident İlham Əliyev "Biz bu qələbəni birlikdə qazandıq" deyərkən lider-xalq münasibətinin mahiyyətinin dərin məna ifadə etdiyini bildirirdi. Müraciətdə nə təkəbbür, nə də fərdi qələbə duyğusu vardı, əksinə, xalqla bölüşülən sevinc, ortaq fədakarlığın təntənəsi hiss olunurdu. Bu, siyasi liderin xalqla mənəvi birliyinin nadir nümunəsi kimi diqqət çəkirdi. Həmin gün respublika liderinin səsi yalnız Şəhidlər xiyabanından deyil, hər bir Azərbaycan evindən, hər bir şəhər və kənddən eşidilirdi. Xalq öz liderini təkcə siyasi rəhbər deyil, milli qurtuluşun, azadlığın və gələcəyin rəmzi kimi qəbul edirdi.

Azərbaycan liderinin xalqa müraciəti tarix qarşısında ədalətin bərpa olunduğunun elanı idi. 30 il ərzində işğal altında qalan torpaqların azad edilməsi yalnız hərbi yox, həm də mənəvi qələbə kimi diqqət çəkirdi. Bu Zəfər heç bir haqsızlığın əbədi ola bilmədiyinin, xalqın iradəsi və dövlətin qətiyyəti ilə ədalətin gec-tez bərpa edildiyinin təsdiqi idi. Dövlət başçısı İham Əliyev bu Zəfərlə dahi şəxsiyyət Heydər Əliyevin "Qarabağ Azərbaycandır və nöqtə" ideyasını reallığa çevirdi.

Beləliklə, Prezident İlham Əliyevin 8 noyabr müraciəti xalqımızın tarixi iradəsinin təcəssümü idi. Bu müraciəti beynəlxalq ictimaiyyət, əslində, bir dövlət manifesti – suverenliyin, milli birliyin, qələbənin və gələcəyə inamın rəmzi kimi dəyərləndirdi. Həmin gün Azərbaycan təkcə torpaqlarını deyil, həm də öz taleyini azad etdi. Xalq öz gücünə, ordusuna və liderinə qəlbən inandı.

Bu inam indi də dövlət siyasətinin əsas dayaq nöqtəsidir. Qarabağda bərpa olunan hər şəhər, hər məktəb, hər yol həmin tarixi müraciətin davamı olaraq diqqət çəkir. Bu baxımdan dövlətimizin başçısının "Biz bu tarixi qələbəni xalq, dövlət və ordu birliyi sayəsində qazandıq. Bu Zəfər əbədi olacaq" sözləri də xüsusi əhəmiyyətə malikdir. Bu əbədi Zəfərin adı isə Azərbaycanın qüdrəti, xalqın birliyi və dövlətin suverenliyidir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**



### 8 noyabr

• Şuşa şəhəri işğaldan azad edilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

• Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri, general-leytenant Hikmət Mirzəyevə zəng edərək onu Şuşa şəhərinin işğalçılardan azad olunması münasibətilə təbrik edib.

• Prezident İlham Əliyev Türkiyənin xarici işlər və milli müdafiə nazirlərini qəbul edib.



• Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində tarixi qələbə ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən



və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!".

Paylaşımda daha sonra bildirilir: "Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm. Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

• Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Ermənistan silahlı qüvvələrinin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili sıradan çıxarılıb.

• Xalqımız Şuşanın azad olunmasını böyük coşqu ilə qeyd edir.

• Müdafiə Nazirliyinin məlumatına görə, cəbhənin Xocavənd istiqamətində düşmənin yüksək vəzifəli şəxsləri məhv edilib, eyni zamanda, Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilib.

• Cəbhənin Xocavənd istiqamətində düşmən bəzi mövqeləri ataraq qaçır. Bu istiqamətdə Ermənistan silahlı qüvvələri ciddi itkilər verir.

***Mustafa KAMAL***
***XQ***

# Doğum günündə Vətənə qurban getdi

**II Qarabağ savaşında canları, qanları ilə torpağı Vətən edənlərin hər birinin həyatı bir kitabdır. Onun hər vərəqindən acılı-şirinli xatirələr boylanır. Bu xatirələri dinləmək, oxumaq, düşünmək insana əsl mənada dərs verir.**



El-obasına başucalığı gətirən igidlərimizdən olan Xəyyam Əzizovun həyat hekayəsini təqdim etmək istəyirəm. Xəyyam 8 noyabr 1995-ci ildə Neftçala şəhərində sadə fəhlə ailəsində anadan olub. Uşaqlıq illərini Neftçalada keçirib. 2002-ci ildə Mehman Səfərov adına İnteqrasiya təlimli İnternat tipli gimnaziyanın 1-ci sinfinə daxil olub və 2006-cı ildə ibtidai sinfi başa vurduqdan sonra təhsilinə Neftçala şəhər Humanitar Təmayüllü Muğan liseyində davam edib. Hələ gimnaziyada oxuyan zamandan ürəyində hərbi geyimdə olmaq, Vətənə hərbçi kimi xidmət etmək arzusu baş qaldırıb. Buna görə də 8-ci sinfi başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Təhsil zamanı bacarığı, cəldliyi ilə seçilib. Liseyi əla qiymətlərlə başa vuran Xəyyam müdavim yoldaşlarından ayrılanda onlara xatirə olaraq belə ürək sözləri yazıbmış: “Əziz kursant yoldaşlarım, doğma Azərbaycanımızı göz bəbəyi kimi sevməyi, onu qorumağa hər an hazır olmağı, lazım gələrsə, Vətəni canımızdan üstün tutmağı bacaran zabit olasınız. Sizə də, özümə də bu müqəddəs və şərəfli xidmət yolunda uğurlar arzulayıram”.



Xəyyam liseydə qazandığı biliklərlə kifayətlənməyib. Buna görə də 2013-cü ildə liseyi bitirdikdən sonra hərbi biliklərini daha da zənginləşdirmək istəyini ailəsinə bildirib və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2017-ci ildə həmin məktəbi bakalavr diplomlu xüsusi təyinatlı kimi bitirib və ona leytenant hərbi rütbəsi verilib. Öz istəyi ilə Xüsusi Təyinatlı Qüvvələrin kursunu keçərək zabit kimi xidmətinə qədəm qoyub.

Leytenant Xəyyam Əzizov xidməti dövründə bir neçə xarici ölkədə dağçılıq, xizəkçilik və paraşütçülük kurslarını yük-



sək göstəricilərlə başa vurub. 2020-ci ildə ona baş leytenant hərbi rütbəsi verilib. Həmin il Moskvada keçirilən qələbə paradında Azərbaycanı layiqincə təmsil edib.

Vətən müharibəsində Xəyyam xüsusi təyinatlı zabit kimi əsl hünər göstərib. Onun da tərkibində olduğu qrup düşmənə sarsıdıcı zərbələr endirib. Neçə-neçə uğurlu əməliyyata qatılaraq, düşmənin diversiya qrupunun məhv edilməsində xüsusi qəhrəmanlıq göstərib. Füzuli, Cəbrayıl, Qubadlı və Şuşa uğrunda gedən ağır döyüşlərdə böyük şücaətlər göstərib. Dəfələrlə yaralansa da, döyüşdən qalmağı qəbul etməyib.

Ən son döyüş meydanı olan əlçatmaz Şuşa şəhərinin azad olunmasında əsl qəhrəmanlıq göstərib və doğum günü – 8 noyabr 2020-ci ildə şəhid olub. Şəhidin nəşi Neftçala şəhərinə gətirilib və böyük ehtiramla torpağa tapşırılıb.

Xəyyamın döyüş yolu, ailəsinin xatirələri əks olunan qısa videonu izləmək onun haqqında daha çox məlumat verir. Dilinin əzbər sözlərindən biri bu idi: “İşğalçı ermənilərin başını əzməyimizə çox az qalıb”. Xəyyamın qardaşı Rəfael deyir: “Vətən müharibəsində mənim qardaşım döyüşlərdə böyük şücaət göstərib. Xəyyam əvvəlcə Füzuli, Zəngilan rayonlarının, Hadrut qəsəbəsinin və sonda, noyabrın 5-dən 6-na keçən gecə Şuşa uğrunda gedən döyüşlərdə qrup rəhbəri olaraq qəhrəmanlıq göstərib. Onun silahdaşları ilə birgə Şuşa şəhərinin alınmasında böyük rolu olub .

Anası Aidə Əzizovanın söhbəti: “Oğlum Qarabağda 42 gün şücaətlə vuruşdu. Bu 42 gündə hər həftədə bir dəfə zəng edib hal-əhval tuturdu. Oktyabrın 29-u sonuncu danışığı oldu. Dedi ki, darıxmayın, az qalıb, qələbəmiz olacaq, ondan sonra qayıdacam evə. Müharibənin sonuncu günü şəhid oldu. Onun xatirələri haqqında danışmaq mənim üçün çox çətindir. Amma onu deyə bilərəm ki, mənim oğlum qürurla yaşadı, şərəflə həlak oldu”.

Şəhid zabitimizin atası Əli Əzizov da oğlu ilə qürur duyduğunu söyləyib. “Oğlum Vətən yolunda, torpaq uğrunda şəhid oldu. Əməli ilə Vətənə layiqli oğul oldu, hər kəsin başını uca etdi. Xəyyamın ən böyük arzusu Qarabağ torpaqlarını azad görmək idi. Nə qədər ağır olsa da, deməliyəm ki, arzusuna doğum günündə – 25 yaşın tamamında şəhidliyi ilə çatdı”.

Xəyyam Əzizov ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni ilə, həmçinin “Vətən uğrunda”, “Cəbrayılın, Şuşanın, Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Şuşanın alındığını eşidib gülümsədi və gözlərini əbədi yumdu...

**Vətən müharibəsində qazanılan tarixi Qələbəmizdən 5 il keçməsinə baxmayaraq, xalqımız zəfər dolu həmin günləri bu gün də qürurla xatırlayır. Bu o qələbədir ki, cəmi 44 günə qazanıldı və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Vətən torpaqları tam olsun deyə ölümün gözünə dik baxaraq şəhidlik zirvəsinə ucalmış Hikmət kimi oğullarımızın sayəsində bu gün xalqımız qalib ölkənin vətəndaşı olmağın qürurunu yaşayır. Hikmət Hacıyev Şuşanın azad edildiyini eşidəndən sonra gülümsəyib və gözlərini əbədi yumub.**



Böyük Zəfərlə bitən 44 günlük Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimiz adlarını ən yeni tariximizə qızıl hərflərlə yazdılar. Düşmənə layiq olduğu cavab məğlubedilməz ordumuzun yüksək döyüş əzmi, ruhu ilə savaş meydanında - Qarabağın ürəyi Şuşada verildi. Son damla qanları, nəfəslərinədək savaşan yenilməz oğullar düşməni diz çökdürdülər, şücaəti, mərdliyi ilə dillərə dastan oldular.

Hikmət Şubay oğlu Hacıyev 7 dekabr 1984-cü ildə Şəmkir şəhərində dünyaya göz açıb. Orta təhsilini doğulduğu şəhərdə alan Hikmət 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2006-cı ildə leytenant rütbəsi ilə hərbi xidmətə başlayıb. 3 il Füzulidə xidmət edib. 2014-cü ildə kapitan hərbi rütbəsi alıb.

Azərbaycan Ordusunun kapitanı Hikmət Hacıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 2-də Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş yoldaşlarını xilas edərkən yaralanıb. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi xəbərini eşitdikdən sonra şəhid olub. Bir oğlu və bir qızı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən kapitan Hikmət Hacıyev ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olmasına görə" və "Füzulinin azad olmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin qardaşı İsmət Hacıyev qardaşının ağır yaralanmasına səbəb olan sonuncu döyüşündən də söhbət açır. Bildirir ki, erməni qəsbkarları onu Qaraxanbəylidəki döyüşlərdə boynundan ağır yaralayıblar: "Qardaşım yaralanana qədər onun bölüyündən heç bir hərbi qulluqçu şəhid olmayıb. Hər bir əsgərini öz övladı kimi çox istəyir, onları qoruyurmuş. Tabeliyindəki bölüklə birlikdə Qaraxanbəylidə düşmənin qəfil hücumu ilə üzləşib, mühasirəyə düşüblər. Döyüşərək mühasirəni yarıblar, tabeliyində olan bütün hərbi qulluqçuları güllə altından çıxarıb, özü bir əsgəri ilə sona qədər müqavimət göstərib. Bütün bunları bizə əsgərləri danışıb. Hamısı şəhid komandirlərindən razılıq edirdilər. Bildirirdilər ki, komandirləri öz həyatını təhlükəyə ataraq onların həyatını xilas edib. Yaralanandan sonra bir ay müddətində reanimasiyada qaldı. Çətinliklə nəfəs alırdı. Boğaz nahiyəsindən nəfəs aparatına qoşulmuşdu deyə, danışa bilmirdi. Noyabrın 8-də vəziyyəti daha da ağırlaşmışdı. Ailə üzvlərimizlə görüşüb Şuşanın işğaldan azad olunması xəbərini ona çatdırdıq. Bu sevincli xəbəri eşidən qardaşım gülümsədi, bir müddət sonra gözlərini bu həyata əbədi yumdu. Sanki canını tapşırmaq üçün bu günü, bu xəbəri eşitməyi gözləyirmiş. Şuşanın alındığını eşitdikdən sonra şəhidlik zirvəsinə ucaldı”.

Şəhidlər tarixdə, yaddaşlarda əbədi yaşayacaqlar. İllər, əsrlər keçsə də, daim anılacaqlar. Biz müstəqilliyimizin, istiqlalımızın, azadlığımızın carçısı olan şəhidləri ən səmimi duyğularla anırıq!

***M.CƏFƏROV***
***XQ***

# Yarımçıq qalmış şeir dəftəri

**Torpaqlarının ərazi bütövlüyünü canı, qanı bahasına qoruyan, azadlığı uğrunda canından keçən şəhid baş leytenant Nəsibov Xaliddin Vaqif oğlu 2012-ci ildə Hərbi Liseydə hərb sənətinin sirlərinə dərindən yiyələndikdən sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirmişdir. 2019-cu ildə ali məktəbi bitirərək Ağcabədi rayonunda “N” saylı hərbi hissədə leytenant hərbi rütbəsində xidmətə başlamışdır.**



Vətən müharibəsi başlayanda motoatıcı tağım komandiri vəzifəsində xidmət edən Xaliddin döyüş meydanında göstərdiyi igidliyə və şücaətə görə baş leytenant rütbəsi də almışdır. O, 15 oktyabr 2020-ci ildə bölük komandiri vəzifəsinə təyin olunmuşdur. İkinci Qarabağ döyüşlərində qəhrəmanlıq göstərən Xaliddin 6 noyabr 2020-ci il tarixdə uca zirvəyə - Şəhidlik zirvəsinə yüksələrək əbədiyyətə qovuşmuşdur. İgid qəhrəmanımız 18 noyabrda doğulub boya-başa çatdığı Qarapapaq kəndində kənd




qəbiristanlığında izdihamla dəfn edilmişdir.

Şəhid baş leytenant ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Cəsur döyüşçü” medalları ilə təltif olunub. Qazaxda şəhidin xatirəsinə bulaq kompleksi inşa edilib.

Onun ulu babası Qafqaz Ordusunda, atası Birinci Qarabağ, özü isə Vətən müharibəsində ermənilərə qarşı vuruşub.

Xaliddin döyüşlərdə qazanılan qələbə sevincini hər dəfə valideynləri ilə, xüsusilə anası Sevda xanımla bölüşərmiş: “Mənimlə qələbə xəbərlərini bölüşəndə dedim ki, Xaliddin, o gün olsun Şuşaya bayraq sancasan. O qədər sevincli idi ki... Dedi, ana, inşallah Şuşaya bayrağı sancıb gələcəyik. Sevinirəm ki, o, Qarabağ torpaqlarının azad olunmasını görə bildi”.

Birinci Qarabağ müharibəsinin iştirakçısı olan atası Vaqif Nəsibov oğlumun general olmaq arzusundan söz açır. Oğlumun vətənpərvər ruhda böyüməsinə səbəb bizim ailədə, nəsildə hərbçilərin olmasıdır. Çünki o, hərbçi ailəsində anadan olmuşdu. Biz 3 qardaşıq, üçümüz də hərbçi idik. Babalarım da hərbçi olub. Dayım Mahmud Həmzəyev general olduğu üçün həmişə ona baxıb qürurlanırdı. Xaliddinin əşyaları gətiriləndə arasından yarımçıq yazılmış dəftəri çıxdı. Baxdım ki, şeirlər yazıb, hətta vətənpərvərlik mövzusunda da. İndi onun şeirləri “Yarımçıq qalmış şeir dəftəri” adlı kitabda nəşr edilib.

Bacısı Göyçək xanım danışır ki, Xaliddin hələ orta məktəbdə oxuyanda şeirlər yazırdı. Vətənə, torpağa, anaya məhəbbətlə həsr etdiyi şeirlərinin ilk oxucuları biz idik. Bu misralar onun qəlbinin ilk çırpıntıları idi.

**14 yaşımdan mən forma geyirəm,**
**Vətəni canımdan artıq sevirəm.**
**Bu şeiri yazmaqda məqsədim budur,**
**Azərbaycan oğlu, Vətəni qoru.**

Şəhidlik zirvəsinə ucalan Xaliddin kimi igid oğullarla gələcək nəsillər də qürur duyacaq, onlar daim ehtiramla xatırlanacaqlar.

Bu gün hər birimiz torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş Xaliddin Nəsibov kimi oğullarımızla fəxr edir, onların əziz xatirəsini daim uca tutur, ruhları qarşısında baş əyirik. Azadlıq, müstəqillik, qəhrəmanlıq simvolumuza çevrilən şəhidlərimiz hər zaman bizim qəlbimizdə əbədi yaşayacaqdır. Ruhun şad, məkanın cənnət olsun igid Vətən oğlu!.

***M.MİRZƏ***
***XQ***

# “Qarabağ” ordenli şəhid leytenant

**44 günlük Vətən müharibəsinin minlərlə şəhidlərindən biri, leytenant Əsədov Emil Balaqardaş oğlu Salyan rayonunun Çuxanlı kəndində dünyaya göz açıb. Vətən müharibəsi başlayanda cəmi 22 yaşı olan və zabit paqonlarının qürurunu doyunca yaşamağa imkan tapmayan Emil də Qarabağ uğrunda atalarının yolunu davam etdirən oğullardan idi. Emilin atası da hərbçi olub. Balaqardaş Əsədov birinci Qarabağ savaşında iştirak edib. 1994-cü ildə ordudan tərxis olunaraq Yanğından Mühafizə Xidmətində işləməyə başlayıb. 2005-ci ildə yaş həddi ilə əlaqədar təqaüdə çıxıb. Anası Təranə xanım isə evdar qadındır.**



Emil Vətən müharibəsində tağım komandiri olaraq Hadrutun, Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı Ermənistan ordusunun canlı qüvvəsini və 14 texnikasını məhv edib, bir neçə dəfə silah yoldaşlarını mühasirədən çıxarıb, buna görə də "Qaya 11" ləqəbini qazanıb. Döyüşlər zamanı yaralanıb, hospitala təxliyə olunsa da, bir müddət sonra yenidən döyüş meydanına qayıdıb. Emil Əsədov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Emil Əsədov ölümündən sonra “Qarabağ” ordeni, “Cəsur döyüşçü",“Vətən uğrunda”, “Xocavəndin azad edilməsinə görə”, “Cəbrayılın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhid zabitin anası oğlu haqda qürurla bildirir ki, noyabrın 8-də gündüz dəfn etdik, gecə Qələbə müjdəsi eşitdik. Sevindik ki, balalarımızın qanı yerdə qalmadı. Biz onları çox çətinliklə böyütmüşdük. Bacısı Emiliya da Emil də çox savadlı və intizamlı şagird olublar. Emil çox istedadlı idi. Hərbi Liseyə qəbul olundu. Oğlum düz 7 il hərb sənətini oxumuşdu. Hərbi xidmətində o qədər intizamlı idi ki, imkan tapıb yeganə bacısının toy məclisində də iştirak edə bilməmişdi... Dostlarının dediyinə görə, Emil elə komandir olub ki, özü şəhid olsa da onun tağımından 35 nəfər əsgərin hamısı sağ-salamat qalıb.

Atası Balaqardaş Əsədov söyləyir ki, oğlu həmişə Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlməyin şərəfli olduğunu deyərdi. Xüsusi qeyd edirdi ki, döyüş meydanında şəhid olmaq şərafətlidir. Amma mən plan qururdum ki, onu evləndirim, qismət olmadı... Emil şəhid olmasından 1 gün əvvəl, noyabr ayının 6-da evlə əlaqə saxladı. Tanımadığımız bir nəfər bizə zəng vuraraq Emildən nigaran qalmamağımızı deyəndə narahat olduq. Telefondakı tanımadığımız adamı sorğu-suala çəkdik. Bu vaxt Emil özü ratsiya ilə telefona qoşularaq döyüşdə olduğunu, ona mane olmamağımızı istədiyini deyəndə sakitləşdik.

2020-ci ildə tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdilər. Qanları ilə müqəddəs torpaqları azad edərək Qələbəyə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız dastan qoydular. Özlərini doğmalarının gələcəyi üçün fəda edən polad ürəkli mübarizlərimiz, Vətən sizi unutmayacaq.

Bəli, məhz Emil kimi qəhrəman, igid oğulların sayəsində Vətənin müqəddəs torpaqları azaddır.

***C.MÜŞFİQ***
***XQ***

# Siyasi partiyalar Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar.**

Bəyanatda deyilir:

"2020-ci il 27 sentyabr tarixində başlayan Azərbaycan xalqının haqq savaşı – Vətən müharibəsi azərbaycanlıların böyüklüyünü, əzmini və qəhrəmanlığını bütün dünyaya göstərdi. Uzun illər düşmən işğalında olan, torpağının üstü də, altı da talan edilən Qarabağ və Şərqi Zəngəzur əraziləri Vətən müharibəsi Zəfəri ilə öz azadlığına qovuşdu. 44 gün ərzində Azərbaycan Ordusunun cəsur döyüşçüləri öz arxalarında Azərbaycan xalqının tükənməz gücünü və birliyini hiss edərək düşməni - Ermənistan ordusunu darmadağın etdi və bununla da Qafqazda uzun illər mövcud olan erməni mifini tarixin zülmətinə göndərdi.

Vətən müharibəsində Azərbaycan xalqının və əzəmətli Ordusunun qazandığı Zəfər dövlətçilik tariximizə qızıl hərflərlə həkk olunaraq Azərbaycanın növbəti qələbələrinin açarına çevrildi. Vətən müharibəsi Zəfərindən sonra Azərbaycan dövlətinin humanist, sülhpərvər və tolerant mövqeyi ilə hələ də Qarabağda yaşayan erməni separatçıları və onları qoruduğunu iddia edən silahlı dəstələrin işğaldan azad edilən ərazilərimizdə quruculuq işləri ilə məşğul olan vətəndaşlarımıza qarşı törətdikləri cinayətlər, eləcə də Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlərin davam etməsi 2023-cü ilin 19 sentyabr tarixində başlanan birgünlük antiterror əməliyyatlarını labüd etdi. Milli həmrəyliyin təzahürü olan xalq-ordu birliyinin nəticəsində qalibiyyətlə başa çatan antiterror əməliyyatından sonra Azərbaycanda yer almış separatçı qüvvələrin kökü birdəfəlik kəsildi, tarixən azərbaycanlılara qarşı törətdiyi qanlı cinayətlərin hüquqi müstəvidə cəzasından qorxan ermənilər Azərbaycan dövlətinin ərazisini könüllü şəkildə birdəfəlik tərk etdilər.

Azərbaycan Ordusunun yüksək humanist keyfiyyətlərlə – bir nəfər də olsun sivil şəxsə toxunulmadan şərəf, namus və ləyaqətlə icra etdiyi bu tarixi missiya Azərbaycan dövlətinə tarixində ilk dəfə tam suverenlik qazandırdı. Azərbaycanın yüz illər ərzində apardığı haqq mübarizəsi, Vətən uğrunda verilən qurbanlar Azərbaycan xalqını tarixinin ən böyük Qələbəsinə qovuşdurdu və müzəffər xalqa çevirdi. Azərbaycan indi öz tarixinin ən güclü, şərəfli və məğrur dövrünü yaşamaqdadır.

Bütün dünya azərbaycanlıları dərindən dərk edir ki, 44 günlük Vətən müharibəsinin nəticəsində təkcə ərazi bütövlüyümüz bərpa edilməmiş, eyni zamanda Azərbaycan xalqının qüruru özünə qayıtmış və Azərbaycan dünya dövlətləri sırasında qalib dövlətə çevrilmişdir. Dünya tarixinin ən qarışıq və təhlükələrlə dolu zamanında Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik tariximizə bəxş etdiyi bu şanlı səhifə daim xatırlanacaq və əbədi yaşayacaqdır.

Bu gün Azərbaycan beynəlxalq miqyasda söz sahibidir. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda misli görünməmiş sürətlə həyata keçirilən bərpa-quruculuq işləri əzəli torpaqlarımıza həyat bəxş edir, eləcə də bütün dünyaya Azərbaycanın gücünü nümayiş etdirir. Erməni vandalizminin qurbanı olan tarixi abidələrimiz bərpa olunur, 30 il müddətində daşı-daş üstdə qalmayan şəhərlər yenidən qurulur, Qarabağın hər bir guşəsinə həyat yenidən qayıdır, Şuşa, Xankəndi, Laçın və digər şəhərlər dünyanın nüfuzlu liderlərinin görüş məkanına çevrilir.

Sevindirici haldır ki, Qarabağda Azərbaycan dövlətinin həyata keçirdiyi quruculuq prosesi dost ölkələrin də yüksək diqqətindədir. Xüsusən Türk Dövlətlərinin rəhbərlərinin Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə dəstəyi gündən-günə daha da inkişaf edən türk birliyinin simvoluna çevrilir. Dünyanın super dövlətlərinin dəstəyi ilə qısa zamanda fəaliyyətə başlayacaq Zəngəzur dəhlizi layihəsi təkcə Azərbaycanın ərazilərini deyil, bütün Türk dünyasını bir-biri ilə bağlayan, Uzaq Şərqi Avropa ilə birləşdirən tarixi İpək Yolunun bir parçasına çevrilir.

Dövlətimizin dünya birliyində tutduğu layiqli mövqeyi, Qalib dövlət nüfuzunun qorunması istiqamətində atılan böyük addımları yüksək dəyərləndirərək Vətənimiz naminə daim siyasi milli birliyi dəstəkləyən partiyalar xalqımızı və dünya azərbaycanlılarını Zəfər Gününün beşinci ildönümü münasibətilə təbrik edir və hər kəsi güclü Azərbaycan naminə sarsılmaz və daha möhkəm milli birliyə səsləyir.

***1. Yeni Azərbaycan Partiyası***
***2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı***
***3. "Ana Vətən" Partiyası - Fəzail Ağamalı***
***4. Ədalət, Hüquq, Demokratiya Partiyası - Qüdrət Həsənquliyev***
***5. Böyük Quruluş Partiyası - Fazil Mustafa***
***6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə***
***7. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev***
***8. Milli Cəbhə Partiyası - Razi Nurullayev***
***9. "Azərbaycan Milli İstiqlal" Partiyası - Arzuxan Əlizadə***
***10. "Böyük Azərbaycan" Partiyası - Elşad Musayev***
***11. Haqq Ədalət Partiyası - Əli İnsanov***
***12. Azərbaycan Ümid Partiyası - İqbal Ağazadə***
***13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev***
***14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu***
***15. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev***
***16. AĞ Partiyası - Tural Abbaslı***
***17. REAL Partiyası - Natiq Cəfərli***
***18. Azad Vətən Partiyası - Akif Nağı***
***19. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev***
***20. Yeni Zaman Partiyası - Musa Ağayev***
***21. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu***
***22. Vəhdət Partiyası - Adəm İsmayılov***
***23. Ədalət Partiyası - Mütəllim Rəhimov.***




# Qarsda "Qarabağ Zəfəri beynəlxalq şeir yazma yarışması"

**Azərbaycan Respublikasının Qarsdakı baş konsulluğu, Qars Qafqaz Universiteti və Türk Ocaqları Birliyinin Vətən müharibəsində xalqımızın qazandığı şanlı Zəfərin 5 illiyinə həsr olunmuş "Qarabağ Zəfəri beynəlxalq şeir yazma yarışması"na yekun vurulub.**



Noyabrın 7-də Qars şəhərində keçirilən təntənəli musiqili-ədəbi tədbirdə seçilmiş 3 ən yaxşı şeirin müəllifinə mükafatlar təqdim olunub.

Müsabiqəyə beş ölkədən 173 müəllif qatılıb. Təcrübəli şeir, sənət mənsublarından və nüfuzlu filoloq-alimlərdən ibarət münsiflər heyətinin qərarı ilə Hacı Abdulla (Hacı Nərimanoğlu) müsabiqədə 2-ci yerə layiq görülüb.

Qeyd edək ki, Hacı Nərimanoğlu tarix üzrə fəlsəfə doktoru, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranıdır.

# Azərbaycan dili milli varlığımızın mənəvi Vətənidir

## *AMEA-da ana dilimizin qorunması və zənginləşdirilməsi mövzusunda müzakirə*

**AMEA Rəyasət Heyəti və Humanitar Elmlər Bölməsinin təşkilatçılığı ilə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Akademiyanın 80 illik yubiley tədbirindəki nitqində Azərbaycan dili ilə əlaqədar qarşıya qoyduğu tələblər və AMEA-nın vəzifələri" mövzusunda yığıncaq keçirilib.**

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq qeyd edib ki, Akademiya hazırda öz tarixinin ən şərəfli mərhələlərindən birini yaşayır.

Prezident İlham Əliyevin noyabrın 3-də AMEA-nın 80 illik yubiley mərasimində iştirakı və söylədiyi tarixi əhəmiyyətə malik nitq Azərbaycan elminin və ziyalılığının inkişafına, elmi ictimaiyyətin gələcək strateji istiqamətlərinə yeni nəfəs verib. Vurğulayıb ki, ölkə Prezidentinin səsləndirdiyi fikirlər və qarşıya qoyduğu vəzifələr AMEA-nın gələcək fəaliyyətinin yol xəritəsini müəyyənləşdirir, eyni zamanda Akademiyanın inkişaf proqramının ana xəttini təşkil edir.

Akademik İsa Həbibbəyli həmçinin dövlət başçısının 5 noyabr 2025-ci il tarixli "Azərbaycan elminin inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında" Sərəncamının 80 illik şərəfli inkişaf yolu keçmiş Akademiyanın, onun görkəmli alimlərinin ölkə elmi və dövlətçiliyin möhkəmlənməsinə verdiyi töhfələrə, xüsusən də AMEA-nın kollektivinə verilən yüksək qiymətin bariz nümunəsi olduğunu qeyd edib.

AMEA rəhbəri ölkə elminin milli maraqlar, dövlətçilik mənafeyi və dünyanın qlobal çağırışları əsasında inkişaf etdirilməsinin zəruriliyini önə çəkib. Bildirib ki, bütün bu istiqamətlər dövlət başçısının AMEA-nın 80 illik yubiley mərasimindəki nitqində əyani şəkildə, konkret faktlarla öz əksini tapıb.

Ölkəmizdə süni intellekt və rəqəmsal inkişaf məsələlərinə dövlət səviyyəsində xüsusi diqqət yetirildiyini deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, bu istiqamətdə Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası" və digər sənədlər ölkədə rəqəmsallaşma prosesinin sistemli şəkildə həyata keçirildiyini bir daha təsdiqləyir. O, dövlətin bu strateji addımlarına uyğun olaraq AMEA-da da elektron idarəetməyə keçid və rəqəmsal texnologiyaların tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, Rəyasət Heyəti aparatının "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" şöbəsinin fəaliyyəti haqqında məlumat verib.



Akademik İsa Həbibbəyli bildirib ki, dövlət başçısının yubiley tədbirindəki nitqini Azərbaycan elminin inkişafında, onun qarşısında duran ən vacib məsələlərin həllində yeni mərhələnin başlanğıcı hesab etmək olar. Prezidentin çıxışında Akademiyanın tarixi inkişaf yolu dərindən təhlil olunmuş, müasir şəraitin mahiyyəti diqqətə çatdırılmış və yeni dövrdə elmin qarşısında duran əsas vəzifələr konkret şəkildə müəyyənləşdirilmişdir.

AMEA rəhbəri dövlət başçısının qarşıya qoyduğu, müasir dövrün qlobal çağırışları ilə səsləşən vəzifələrin, yeni hədəflərin reallaşdırılması üçün Azərbaycanın alim və ziyalılarının birgə fəaliyyətinin vacibliyini önə çəkib. AMEA qarşıya qoyulan məqsədlərə real elmi nəticələrlə cavab verməli, elmin bütün sahələrində rəqəmsal transformasiya və süni intellektin əsaslı inkişafı təmin etməlidir.

Akademik İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyev AMEA-nın 80 illik yubiley yığıncağında çıxışı zamanı Akademiyanın və onun müvafiq institutlarının qarşısında duran əsas vəzifələrə də toxunub. Bildirib ki, dövlət başçısı çıxışında Azərbaycanın dövlətçilik tarixi ilə bağlı sanballı elmi əsərlərin hazırlanmasının vacibliyini xüsusi vurğulayıb. Ölkə Prezidentinin sözlərinə görə, bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərin yazılmasına böyük ehtiyac vardır. Alim dövlət başçısının bu çağırışından irəli gələrək AMEA-nın İctimai Elmlər Bölməsinə daxil olan institutların alimləri ilə birgə geniş müzakirələrin aparılacağını, Azərbaycan dövlətinin tarixi haqqında elmi əsaslara söykənən, dərin məzmunlu tədqiqatların aparılmasına dair koordinasiyalı elmi fəaliyyətin təşkil ediləcəyini söyləyib.

AMEA rəhbəri dövlət başçısının Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı səsləndirdiyi fikirlərə də münasibətini bildirib. Vurğulayıb ki, Azərbaycan dilinin inkişafı və saflığının qorunması kompleks və sistemli elmi yanaşma tələb edir. Bu istiqamətdə AMEA-nın bütün institutları öz elmi profillərinə uyğun şəkildə fəaliyyət göstərməli, dilin milli kimliyin əsas dayağı kimi qorunmasına və gələcək nəsillərə ötürülməsinə töhfə verməlidirlər.

Vurğulayıb ki, Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər" - mesajı həm də milli özünüdərk və məsuliyyət çağırışıdır.

Dövlət başçısı İlham Əliyevin çıxışında səsləndirdiyi Azərbaycan dilinin daha çox məişət səviyyəsində istifadə olunması və xarici sözlərin artan təsiri kimi narahatedici tendensiyalara diqqət çəkən AMEA prezidenti bildirib ki, ölkə başçısının bu mühüm problemi məhz AMEA tribunasından, yəni ölkənin ali elmi ocağından səsləndirməsi, ana dilimiz və milli kimliyimizlə bağlı məsələnin strateji əhəmiyyətini bir daha göstərir. Alimlər dil məsələsində aydın və prinsipial mövqe nümayiş etdirməli, Azərbaycan dilinin saflığının qorunması üçün müasir yanaşmalar və praktiki təkliflər irəli sürməlidirlər.

O, həmçinin Prezident İlham Əliyevin Azərbaycan elminin qarşısına qoyduğu mühüm vəzifələrin, səsləndirdiyi təkliflərin mərhələli şəkildə müzakirə ediləcəyini və AMEA Rəyasət Heyətində qəbul ediləcək tədbirlər planına daxil olunacağını nəzərə çatdırıb.

Akademik İsa Həbibbəyli Azərbaycan elmi ictimaiyyəti, o cümlədən AMEA-nın kollektivi adından Prezident İlham Əliyevə elmə göstərdiyi yüksək diqqət və qayğıya, eləcə də dərin məzmunlu, proqram xarakterli nitqinə görə dərin minnətdarlığını bildirib.

Sonra çıxış edən Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli Azərbaycan dilini emal etməyə imkan verən milli dil korpusunun yaradılması prosesinə başlanıldığını söyləyib. Vurğulayıb ki, bu, həm dilçilik elminin, həm də tətbiqi tədqiqatların inkişafı baxımından strateji əhəmiyyət daşıyan mürəkkəb bir mərhələdir.

Professor Nadir Məmmədli qeyd edib ki, dövlət başçısının Azərbaycan dili ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq internet mühitdə digər dillərin Azərbaycan dilini sıxışdırmaması, dilimizin təhlükəsizliyinin qorunması və ona olan müxtəlif növ təhdidlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi vacibdir. O, dilimizə daxil olan alınma sözlərin ayrıca lüğətinin hazırlanmasının da gündəmdə olduğunu qeyd edib.

Tədbirdə AMEA-nın müşaviri, akademik Möhsün Nağısoylu, ADPU-nun elmi-təşkilati şöbəsinin müdiri professor İbrahim Bayramov, Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Qəzənfər Paşayev, Dilçilik İnstitutunun monitorinq və linqvistik təhlil şöbəsinin müdiri professor Sevinc Əliyeva, həmin institutun terminologiya şöbəsinin müdiri professor Sayalı Sadıqova, Memarlıq və İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini Xəzər Zeynalov və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli çıxış edərək Prezidenti İlham Əliyevin Azərbaycan dili ilə bağlı qarşıya qoyduğu tələblərin, çağdaş qlobal inkişaf tendensiyalarından irəli gələn vəzifələrin elmimizin inkişafında mühüm rol oynayacağını bildirib, bu istiqamətdə təkliflərini səsləndiriblər.

Sonda AMEA kollektivinin Azərbaycan Prezidentinə ünvanlanmış müraciəti səsləndirilib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 322**

**Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında” 1992-ci il 23 noyabr tarixli 631 nömrəli və “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2007-ci il 27 avqust tarixli 135 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

“Hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə ödənilən işdənçıxarma müavinətinin miqdarı və ödənilməsi şərtləri haqqında”;

1.2. preambula aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:”;

1.3. 1-ci, 1-1-ci, 2-ci və 10-cu hissələr ləğv edilsin;

1.4. 3-cü hissə üzrə:

1.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“Hərbi qulluqçulara (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə hərbi xidmətdən buraxıldıqda, qulluq keçməyə xitam verildikdə aşağıdakı miqdarda işdənçıxarma müavinəti ödənilir:”;

1.4.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“a) həqiqi hərbi xidmətdə (qulluqda) olmanın son yaş həddinə çatmasına, xəstəliyinə və ya ştatların ixtisarına görə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41.0.2 - 41.0.4-cü, 42.0.1-ci və 42.0.2-ci maddələrinə əsasən hərbi xidmətdən buraxılanlara – beş aylıq vəzifə və rütbə maaşı həcmində;”;

1.4.3. üçüncü abzasda “tərxis edilənlər” sözləri “xidmətdən buraxılanlar” sözləri ilə, “tərxis olunmuşlara” sözləri “buraxılmışlara” sözü ilə əvəz edilsin;

1.4.4. dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

“hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə - iki aylıq vəzifə və rütbə maaşı həcmində;”;

1.4.5. beşinci abzas ləğv edilsin;

1.4.6. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“pensiya hüququ olmadan xidmətdən buraxılan, təqvimi xidmət müddəti dörd ildən az olan gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına və ədliyyə orqanlarının kiçik rəis və sıravi heyətinə mənsub şəxslərə − bir aylıq vəzifə və rütbə maaşının 50 faizi həcmində, təqvimi dörd il və daha artıq xidmət edənlərə − dörd il xidmətə görə bir aylıq vəzifə və rütbə maaşı və dörd ildən artıq xidmətin hər tam təqvim ili üçün əlavə olaraq bir aylıq vəzifə və rütbə maaşının 20 faizi həcmində, lakin ümumi məbləği iki aylıq vəzifə və rütbə maaşından çox olmamaqla.”;

1.4.7. yeddinci abzas 3-1-ci hissə hesab edilsin və həmin hissədə “İşdən çıxarma pulu” sözləri “İşdənçıxarma müavinəti” sözləri ilə, “kimi” sözü “ödənişlərdən” sözü ilə əvəz edilsin;

1.4.8. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

“hərbi qulluqçulara və ədliyyə orqanlarının orta, böyük və ali rəis heyətinə mənsub şəxslərə — axırıncı vəzifəsi, hərbi və ya xüsusi rütbə üzrə maaşlardan;”;

1.4.9. doqquzuncu abzasdan “daxili işlər və” və “ştat” sözləri çıxarılsın və həmin abzasda “rəis” sözü “kiçik rəis” sözləri ilə əvəz edilsin;

1.4.10. onuncu abzas 3-2-ci hissə hesab edilsin və həmin hissə aşağıdakı redaksiyada verilsin:

“3-2. Gizirlərin, miçmanların, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının, ədliyyə orqanlarının kiçik rəis və sıravi heyətinə mənsub şəxslərin xidmət müddətində fasilələr olduğu halda, onlara işdənçıxarma müavinəti yalnız sonuncu xidmət müddəti nəzərə alınmaqla verilir.”;

1.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Pensiya hüququ olmadan “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41-ci və 42-ci maddələrinə əsasən, həqiqi hərbi xidmətdə və ya ehtiyatda olmanın son yaş həddinə çatmasına, xəstəliyinə və ya ştat ixtisarına görə həqiqi hərbi xidmətdən buraxılan hərbi qulluqçulara işdənçıxarma müavinətinin hərbi rütbə üzrə verilməsi hərbi xidmətdən buraxıldığı gündən etibarən bir il ərzində davam edir.

Hərbi və xüsusi rütbə nəzərdə tutulmayan digər dövlət orqanlarında (qurumlarında), müəssisə və təşkilatlarda işləyən, iş yeri və orta aylıq əməkhaqqı saxlanılan “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən səfərbərlik üzrə hərbi xidmətə (toplanışa) çağırılmış hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə, habelə müddətli həqiqi hərbi xidmətdən birbaşa zabit hərbi rütbəsi verilməklə buraxılmış şəxslərə işdənçıxarma müavinəti verilmir.”;

1.6. 11-ci hissədə “qərar” sözü “Qərar” sözü ilə, “qüvvəyə mindirilsin” sözləri “tətbiq edilir” sözləri ilə əvəz edilsin.

2. “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 860 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və birinci hissədə “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi” sözləri “Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları” üzrə:

2.2.1. adında “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi” sözləri “Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu” sözləri ilə əvəz edilsin;

2.2.2. 1-ci hissədə “Vergi Xidmətində” sözləri “Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində” sözləri ilə, “təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi” sözləri “hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu” sözləri ilə əvəz edilsin;

2.2.3. aşağıdakı məzmunda 2-1-ci, 2-2-ci və 2-3-cü hissələr əlavə edilsin:

“2-1. Hərbi və xüsusi rütbəli şəxslərin təqvimi xidmət müddətinə aşağıdakı dövrlər aid edilir:

2-1.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinə əsasən həqiqi hərbi xidmətə başladıqları gündən həqiqi hərbi xidmətin son gününədək olan dövr;

2-1.2. Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidmətində hərbi xidmətə (xüsusi növ dövlət qulluğu vəzifəsinə) təyin olunma günündən hərbi xidmətin (xüsusi növ dövlət qulluğu vəzifəsində xidmətin) son gününədək olan dövr;

2-1.3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidmətində, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində həqiqi hərbi xidmətə başladıqları gündən həqiqi hərbi xidmətin son gününədək olan dövr;

2-1.4. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun hərbi qulluqçularının müvafiq vəzifəyə təyin olunduqları gündən həqiqi hərbi xidmətdə olmanın son gününədək olan dövr;

2-1.5. daxili işlər, fövqəladə hallar, ədliyyə, gömrük orqanlarının və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin rəis və sıravi heyətinə mənsub şəxslər və miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə qulluq keçən şəxslər həmin vəzifələrə təyin edildikləri gündən qulluq (xidmət) keçmələrinə xitam verilən günədək olan dövr;

2-1.6. həqiqi hərbi xidmətdə, daxili işlər, fövqəladə hallar və ədliyyə orqanlarının kadrları tərkibində qalmaqla hərbi və xüsusi rütbə nəzərdə tutulmayan digər dövlət orqanlarında, müəssisə və təşkilatlarda işə başladıqları gündən son günədək olan dövr;

2-1.7. hərbi və xüsusi rütbəli şəxslərin qanunsuz tutulma, həbsdə olma və cəzaçəkmə müddətləri, eləcə də qeyri-qanuni olaraq xidmətdən (qulluqdan) buraxılması (kənarlaşdırılması) ilə əlaqədar işləmədiyi (xidmət etmədiyi) müddət;

2-1.8. döyüş şəraitində döyüş əməliyyatlarında iştirak dövründə, habelə Əfqanıstanda əsgəri borcunu yerinə yetirərkən əsirlikdə, mühasirədə olma müddəti və “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə uyğun olaraq, hərbi qulluqçu əsirlikdə olarkən, habelə bitərəf ölkələrdə tərksilah edilib nəzarət altında saxlandıqları dövrdə hərbi andı pozmamış və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan cinayətləri törətməmişdirsə, həmin dövrlər;

2-1.9. hərbi və xüsusi rütbəli şəxslərə pensiya təyin olunduqdan sonra bu Qaydaların 1-ci hissəsində nəzərdə tutulan orqanlara yenidən hərbi xidmətə qəbul edilmiş və xidmətdən buraxılmış əmək pensiyaçılarının həmin orqanlarda Qanunun 9.6-cı maddəsinin tələbləri nəzərə alınmaqla xidmət müddəti;

2-1.10. ədliyyə orqanlarının penitensiar və tibb xidmətlərinin əməkdaşlarına pensiya təyin edildikdə, penitensiar müəssisələrdə və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində mülki işçi qismində işlədikləri müddət;

2-1.11. ədliyyə və miqrasiya orqanlarına qulluğa qəbul edilmiş şəxslərin hüquq-mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, qanunvericilik və ya təşkilati təminat ilə bağlı vəzifələrdə işlədikləri müddət;

2-1.12. yüksəkixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası”na uyğun olaraq hesablanmaqla müəyyən edilən dövr;

2-1.13. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyinə verilənədək onun əməkdaşlarının malik olduqları xidmət dövrü;

2-1.14. zabit heyətinə və xüsusi rütbəli şəxslərə (daxili işlər, fövqəladə hallar və ədliyyə orqanlarında kiçik rəis heyəti və gömrük orqanlarında kiçik heyət istisna olmaqla) Qanunun 9.5.1-ci maddəsinə əsasən əmək pensiyası təyin edilərkən beş ilədək müddət daxilində təhsilin bir ili altı ay sayılmaqla (ən çoxu iki il altı ay hesablanmaqla) hərbi və xüsusi rütbə nəzərdə tutulan vəzifələrə qəbul edilməzdən əvvəl mülki ali (qiyabi və axşam təhsilalma formalarında təhsil dövrü daxil olmaqla), habelə hərbi hazırlıq silsilə və bölmələri olan orta ixtisas təhsil müəssisələrində təhsil dövrü.

Qeyd. Həmin şəxslər bilavasitə mülki ali təhsil və xüsusi hərbi ixtisaslar üzrə vətəndaşların hazırlığını keçirən təhsil müəssisələrində təhsilini başa vurmadan xüsusi təyinatlı ali təhsil müəssisələrinə təhsilin davamı üçün qəbul edilmişlərsə, qeyd olunan təhsil müəssisələrindəki təhsil müddəti eyni şərtlərlə xidmət müddətinə daxil edilir.

2-1.15. Ali kateqoriya dövlət orqanlarından işdən çıxan və sonradan daxili işlər orqanlarında xidmətlərini davam etdirən əməkdaşlar üçün həmin orqanlarda işlədiyi dövr.

2-2. Hərbi və xüsusi rütbəli şəxslərə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası təyin olunması üçün aşağıdakı dövrlər xidmət müddətinə güzəştli şərtlərlə aid edilir:

2-2.1. xidmətin bir ayı iki ay sayılmaqla:

2-2.1.1. döyüş şəraitində döyüş əməliyyatlarında alınan xəsarət (yaralanma, travma, kontuziya) və ya xəstəlik nəticəsində müalicə müəssisələrində fasiləsiz olma müddəti;

2-2.1.2. respublikanın yüksək dağ yerlərində dəniz səviyyəsindən 2500 metr və daha çox hündürlükdə xidmət müddəti;

2-2.1.3. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyən etdiyi şərtlərlə reaktiv, turbovintli və turbovallı aviasiyada uçuş işində xidmət müddəti;

2-2.1.4. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, habelə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyənləşdirdiyi şərtlərlə su altında və barokameralarda yüksək təzyiq şəraitində qalmaqla iş aparan dalğıc vəzifələrində xidmət müddəti.

2-2.2. xidmətin bir ayı ayyarım sayılmaqla:

2-2.2.1. müvafiq dövlət orqanlarının və qurumlarının rəhbərlərinin təqdimatı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi vəzifə siyahısı üzrə hərbi qulluqçuların ayrı-ayrı kateqoriyalarının, daxili işlər və ədliyyə orqanlarının xüsusi və ya hərbi rütbəli şəxslərinin xidmət dövrü;

2-2.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahı üzrə iqlim şəraiti xüsusilə ağır olan yerlərdə xidmət dövrü;

2-2.2.3. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin müəyyən etdiyi vəzifə siyahısı və şərtlər üzrə həmin orqanların (qurumların) xüsusi təyinatlı dəstələrində və digər hərbi birləşmələrində (struktur bölmələrində) xidmət müddəti;

2-2.2.4. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyən etdiyi şərtlərlə:

2-2.2.4.1. paraşütlə tullanma ilə bağlı bütün növ vəzifələrdə xidmət müddəti;

2-2.2.4.2. sualtı qayıqlarda (qurğularda, aparatlarda) onların sırada olduğu dövrdə, minatutan gəmilərdə döyüş minalarını tutma dövründə xidmət müddəti;

2-2.2.4.3. porşen mühərrikli təyyarələrdə və helikopterlərdə uçuş işində xidmət müddəti;

2-2.2.5. sırada olan, bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsini, müdafiəsini və toxunulmazlığını həyata keçirən sərhəd gəmilərində və katerlərində xidmət müddəti;

2-2.2.6. sərhəd mühafizə orqanlarının Azərbaycan Respublikasının dövlət sərhədinin bilavasitə mühafizəsini və müdafiəsini həyata keçirən əsas bölmələrində (sərhəd zastavası, sərhəd komendantlığı, sərhəd nəzarəti bölməsi (məntəqəsi), sərhəd gəmisi (kateri), radiotexniki post, sahil nəzarəti bölməsi (məntəqəsi), sərhəd hava gəmisi) və dövlət sərhədində onlara bərabər tutulan bölmələrdə (sərhəd döyüş məntəqələrində, texniki nəzarət postlarında, nəzarət radiostansiyalarında) xidmət müddəti;

2-2.2.7. bütün ad və ixtisaslardan olan dalğıc vəzifələrində xidmət müddəti (bu Qaydanın 2-2.1.4-cü yarımbəndində göstərilən dalğıclar istisna olmaqla);

2-2.2.8. respublikanın yüksək dağ yerlərində dəniz səviyyəsindən 1000 metrdən 2500 metrədək hündürlükdə xidmət müddəti;

2-2.2.9. cəmiyyətə zidd kütləvi təzahürlərlə bağlı tətbiq edilən fövqəladə vəziyyət zamanı ictimai asayişi və dövlət təhlükəsizliyini qoruma vəzifələrinin yerinə yetirildiyi müddət.

2-2.3. Döyüş şəraitində döyüş əməliyyatlarında iştirak edənlərin bir xidmət günü iki xidmət günü (1992-ci il yanvarın 1-dən 2004-cü il sentyabrın 13-dək olan dövrlər, habelə həmin dövrlərdə alınan yaralar, kontuziyalar və ya xəstəliklər nəticəsində müalicə müəssisələrində olma müddəti bir xidmət günü üç xidmət günü) kimi hesablanır. Döyüş şəraitində döyüş əməliyyatlarında iştirak edənlərin bir xidmət gününün iki xidmət günü kimi hesablanması Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin qərarı əsasında həyata keçirilir və qəbul olunmuş qərar barədə aidiyyəti orqanlar məlumatlandırılırlar. Bu halda həmin qərarda döyüş şəraitinin davam etdiyi müddət göstərilməlidir.

2-2.4. Bilavasitə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində xidmət edən (işləyən) əməkdaşların xidmət müddəti 3 iş günü 4 iş günü kimi, yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş müalicə müəssisələrində və cəzaçəkmə müəssisələrində (cəzaçəkmə müəssisələrinin şöbələrində) xidmət edən (işləyən) əməkdaşların xidmət müddəti isə 2 iş günü 3 iş günü kimi hesablanır.

2-2.5. Terrorçuluğa qarşı mübarizəni bilavasitə həyata keçirən bölmələrdə xidmət müddəti 1 xidmət günü 2 xidmət günü kimi, terror əleyhinə aparılan əməliyyatlarda iştirak müddəti isə 1 xidmət günü 3 xidmət günü kimi hesablanır.

2-2.6. Bu Qaydalarda nəzərdə tutulmayan hallarda xidmət dövrləri ayrı-ayrı hüquqi aktlar əsasında güzəştli şərtlərlə müəyyənləşdirilir.

Qeyd. Güzəştli şərtlər müəyyən edilmiş vəzifələrdə (ərazilərdə) xidmət müddətinin güzəştli qaydada sayılması müvafiq əmrlərə əsasən həyata keçirilir. Güzəşt müəyyən edilmiş vəzifələrin müvəqqəti icrasına buraxılmış hərbi qulluqçulara və xüsusi rütbəli şəxslərə bu vəzifələrin icrası ilə bağlı güzəştlər icra etdikləri vəzifədə xidmət şərtlərinə uyğun hesablanır.

2-3. Hərbi və xüsusi rütbəli şəxslərin 1992-ci il yanvarın 1-dək olan xidmət müddətinin (qulluq illərinin) hesablanması “Hərbi qulluqçuların pensiya təminatı haqqında” SSRİ Qanununa, “Uzun müddət xidmətin hesablanması və zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya, müavinət təyin edilməsi və verilməsi qaydası haqqında” SSRİ Nazirlər Sovetinin 1990-cı il 24 iyul tarixli 725 nömrəli və “Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə pensiya təyin edilməsi üçün uzun müddət xidmət və bu hərbi qulluqçulara, rəis və sıravi heyətə mənsub şəxslərə və onların ailələrinə müavinətlər haqqında” SSRİ Nazirlər Sovetinin 1990-cı il 15 dekabr tarixli 1290 nömrəli qərarlarına, 2026-cı il 1 yanvar tarixinədək xidmət müddətinin (qulluq illərinin) hesablanması isə “Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarına uyğun olaraq həyata keçirilir.”.

3. Bu Qərar 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 324**

**Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

**Torpağın dövlət ehtiyacları üçün alınması haqqında**

“Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının 1.1-1-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Qusar Rayon İcra Hakimiyyəti, Qazax Rayon İcra Hakimiyyəti, Qusar rayonu Samur Bələdiyyəsi və Qazax rayonu Şıxlı Bələdiyyəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Dövlət sərhədindən buraxılış məntəqələrinin genişləndirilməsi, o cümlədən sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkili məqsədilə Qazax rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 0,49 hektar və Qazax rayonu Şıxlı Bələdiyyəsinin mülkiyyətində 5,53 hektar, Qusar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 8,27 hektar və Qusar rayonu Samur Bələdiyyəsinin mülkiyyətində 2,752 hektar olmaqla, ümumilikdə dövlət mülkiyyətində olan 8,76 hektar torpaq sahəsi üzərində istifadə hüququ və bələdiyyə mülkiyyətində olan 8,282 hektar torpaq sahəsi dövlət ehtiyacları üçün alınsın (torpaq sahələrinin koordinatlarını, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

2.1. alınan torpağın, həmçinin həmin torpağın hər bir mülkiyyətçisinə məxsus hissələrinin və onlarla birlikdə alınacaq digər əmlakın qiymətləndirilməsi üçün qiymətləndirmə komissiyası yaratsın;

2.2. dövlət sərhədindən buraxılış məntəqələrinin genişləndirilməsi məqsədilə layihə altına düşən alınan daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınmasının “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilməsini təmin etsin;

2.3. layihə çərçivəsində tikinti altına düşən torpaqların dövlət ehtiyacları üçün alınmasının Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tabeliyində olan “Azərterminalkompleks” Birliyinin gəlirləri hesabına maliyyələşdirilməsini təmin etsin;

2.4. alınan daşınmaz əmlak və alınmanın təsirinə məruz qalan şəxslər, onlara ödənilmiş kompensasiyanın məbləğləri barədə məlumatı altı ayda ən azı bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Sosial gündəm*

# Vətən onların qəhrəmanlığını yüksək qiymətləndirir

## *Xalqa Zəfər qazandıranlara qayğı davamlıdır*

**44 günlük qısa bir dövr ərzində Azərbaycan müasir dünya hərb tarixinə misilsiz döyüş peşəkarlığı nümunəsi olaraq yazılan uğurlu hərbi əməliyyatlarla ərazilərini işğaldan azad etdi. Dövlət başçısının qeyd etdiyi kimi, bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir.**



Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın, ilk növbədə, yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının təsdiqidir. Prezident hərbçilərlə görüşü zamanı demişdir: "Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm... Mən artıq göstəriş vermişəm və sizin qarşınızda bunu bəyan etmək istəyirəm ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək.

Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək".





Qeyd edək ki, müstəqillik dövründə "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Şücaətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medallları təsis olunub və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunmasında iştirak etmiş, döyüş əməliyyatları zamanı hərbi hissə və birləşmələrə yüksək peşəkarlıqla rəhbərlik etmiş və s. şəxslərə verilib.

Azərbaycan Prezidenti daha sonra 2 orden və 15 medal da təsis edib. Təltiflərə "Vətən müharibəsi qəhrəmanı", "Zəfər" və "Qarabağ" ordenləri də əlavə olundu. Medallara gəlincə isə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları da təsis edildi.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı şəhid ailələrinə, Qarabağ müharibəsi iştirakçıları və qazilərə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Bu kateqoriyadan olan insanlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən davamlı olaraq müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi bunun əməli göstəricisidir.

Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlara hərtərəfli qayğı göstərilir. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranların sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması təqdirəlayiqdir.

Vətən müharibəsindən sonra dövlət siyasətinin əsas istiqamətlərindən biri də müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sağlamlığının bərpası və sosial inteqrasiyası olmuşdur. Ümumiyyətlə, son illər yaradılan müasir reabilitasiya sistemi həm də Vətən müharibəsi qəhrəmanlarımızın keyfiyyətli və əlçatan reabilitasiya xidmətləri ilə əhatə olunmasına imkan yaratmışdır.

Postmüharibə dövründə Agentliyin reabilitasiya müəssisələrində 5 min 600-dən çox Vətən müharibəsi iştirakçısına tibbi, sosial və psixoloji dəstək göstərilmişdir. Onlardan 1943 nəfər stasionar və ambulator reabilitasiya xidmətlərinə cəlb edilmiş, 2 min 371 şəxs isə 82 mindən artıq reabilitasiya vasitəsi ilə təmin olunmuşdur. Bu dövrdə 494 qazi Almaniyanın "Ottobock" və İslandiyanın "Össur" şirkətlərinin istehsalı olan 612 ədəd yüksək texnologiyalı protezlə təmin edilmişdir. Bu protezlər qazilərə gündəlik həyatda sərbəst hərəkət etməyə, hətta idman yarışlarında iştirak etməyə imkan verir. Eyni zamanda, Danimarkanın "Levitate" şirkəti ilə əməkdaşlıq nəticəsində 14 Vətən müharibəsi iştirakçısına (əlilliyi olan şəxsə) 15 ədəd qaçış üçün idman protezi təqdim olunmuşdur.

Həyata keçirilən kompleks reabilitasiya tədbirləri nəticəsində artıq 230-dan çox Vətən müharibəsi iştirakçısı sağlamlığını tam bərpa edərək əlillik statusunu aradan qaldırıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Ümumiyyətlə, Azərbaycanda şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial müdafiəsi Prezident İlham Əliyevin daxili siyasətinin prioritet istiqamətidir. Bu kateqoriyadan olan insanlara daim qayğı və diqqət göstərilir. Xüsusilə, 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailələrinin, yaralanan, zərər çəkən mülki vətəndaşların da sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı fərman və sərəncamlar imzalanıb.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin fəaliyyəti sosial ədalətin və şəffaflığın təmin olunmasına xidmət edir. Əlillik təyinatı prosesində obyektivliyin qorunması, reabilitasiya xidmətlərinin müasir standartlara uyğunlaşdırılması və postmüharibə dövründə qazilərə göstərilən qayğı bir daha sübut edir ki, Agentlik dövlətimizin sosial siyasətinin həyata keçirilməsində mühüm rol oynayır.

Bu gün Agentliyin fəaliyyəti nəticəsində həssas əhali kateqoriyasından olan minlərlə insan sosial müdafiə tədbirləri ilə əhatə olunur, tibbi-sosial və psixoloji reabilitasiya xidmətlərindən yararlanır, cəmiyyətə inteqrasiya olunur və həyata yeni ümidlərlə davam edirlər.

***Mustafa KAMAL***
***XQ***

# Şəhid mayorun qürurlu anası

**Şəhidlərimiz ən böyük mənəvi zirvəni fəth edirlər. Amma onlardan geriyə elə ağrılı yaralar qalıb ki, sağalması mümkün deyil. Ən dərin yara isə sözsüz ki, şəhid anasının qəlbində açılıb. Bu yara həm övlad itirmək, həm də onunla qürur duymaq arasında adsız duyğuda qövr edir.**



44 günlük Vətən müharibəsi zamanı qələbənin bir addımlığında Şuşada şəhadətə ucalan mayor Fərid Ələkbərovun anası Şükufə Hüseynova ilə həmsöhbət olduq. 5 ildir ki, oğlunun yoxluğunun ağrısını qəlbində daşıyan ananın sinəsi dağlı olsa da, balası haqqında danışanda yenə də gözlərində qürur duyulur. Çünki o, özünün də dediyi kimi, Vətənə, millətə oğul olan övlad böyüdüb. Bu oğul özünə "şəhid", Şükufə xanıma isə "şəhid anası" kimi şərəfli bir status qazandırıb...

**Şükufə ana oğlu ilə son söhbətini belə xatırladı:**

– Vətən müharibəsi başlayanda evdə hamımıza təlimə gedirəm deyib gənc zabitlərlə ön cəbhəyə yollandı. Noyabrın 7-də mənə zəng edib qələbə müjdəsi verdi. Dedi ki, ana, Şuşa artıq bizimdir. Sən narahat olma, hər şey yaxşı olacaq. Bir müddət sənə zəng edə bilməyəcəm, məndən nigaran qalma. Bu onunla son söhbətim oldu... Ondan sonra Fəriddən xəbərimiz olmadı...



*Türk general şəhid Fərid Ələkbərovun evini ziyarət etdi*

...1980-ci il iyulun 18-i mənim üçün ən xoşbəxt gün idi. Çünki anadan olduğum gündə əkiz övladlarım Fərid və Rüfət dünyaya gəlmişdi. Artıq 5 ildir ki, həmin gün ən kədərli günümdür. Oğlanlarımın hərəsi bir əlim, döyünən ürəyim idi. İndi isə elə bilirəm bir əlim yoxdur.

Vətən qarşısında alnıaçıq, üzüağ olan şəhid anası bu yerdə bir anlıq sükuta daldı və gözünün önünə Fəridli günləri gəldi. Dərindən ah çəkərək söhbətinə davam etdi:

– Oğlum uşaqlıqdan vətənpərvər ruhda böyümüşdü, Vətəninə bağlı idi. Məktəbdə xərcləməyə verdiyimiz pulla qərənfil alıb tez-tez Şəhidlər xiyabanına gedərdi. Xocalı faciəsi baş verəndə isə hərbçi olmağa qərar verdi. Vətəni sevdi, onun üçün yaşadı və onun azadlığı yolunda da canını əsirgəmədi. O, harada olubsa, bizə başucalığı gətirib. Xoş sorağı ilə sevindirib bizi. Həmişə olduğu kimi, yenə də başımızı uca etdi. Şəhidlik hamıya nəsib olmur. O, ölümü ilə də ən ali mərtəbəyə ucaldı.

Qeyd edək ki, Ələkbərov Fərid Tahir oğlu 1980-ci il iyulun 18-də Bakıda dünyaya göz açıb. 1996-cı ildə İstanbul Kuleli Hərbi Liseyinə daxil olub və 2000-ci ildə təhsilini bitirib.

Həmin il Ankaradakı Quru Qoşunları Hərbi Məktəbinə daxil olan Fərid 2004-cü ildə təhsilini başa vurub. Bununla da kifayətlənməyərək İsparta şəhərindəki Dağ Komando Məktəbinə qəbul olub və buranı da müvəffəqiyyətlə bitirib. 2005-ci ildə Polatlı Topçu Məktəbini fərqlənmə diplomu ilə başa vurub. Müharibədən əvvəl Ali Hərbi Məktəbin müəllimi idi.

2020-ci il sentyabrın 27-dən Vətən müharibəsində iştirak edən mayor Fərid Ələkbərov Murov dağındakı yüksəkliklərin alınmasında, Cəbrayıl, Füzuli, Şuşa istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 8-də Xankəndi istiqamətində gedən döyüşlərdə düşmənlə üz-üzə savaşıb. Ayağından qəlpə yarası almasına baxmayaraq, döyüşü davam etdirən qəhrəman zabit düşmənin canlı qüvvəsini məhv edərək taborun mühasirədən çıxmasında müstəsna rol oynayıb.

Təəssüf ki, bu, Fəridin sonuncu döyüşü olub. Fərid Ələkbərov 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib və İkinci Fəxri xiyabanda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Fərid Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.

Fərid Ələkbərov müharibədən əvvəl III dərəcəli "Qüsursuz xidmətə görə", II dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə də təltif olunub.

Qeyd edək ki, Fərid Ələkbərov ailəli idi. Bir övladı var. 2022-ci ildən Bakının Yasamal rayonundakı küçələrdən biri onun adını daşıyır.

Şübhəsiz ki, bu gün Fəridin və bütün şəhidlərimizin ruhu şaddır. Çünki indi artıq üçrəngli Azərbaycan Bayrağı Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdərədə də dalğalanır. Ruhun şad olsun, cənab mayor!

***Elenora HƏSƏNOVA***
***XQ***

# Gənc rəssamın qələbə naxışları

**Vətən müharibəsinin qələbə sədalarını sənətdə əks etdirən gənc rəssamlardan biri də Zəhra İsmayılovadır. Zəhranın hələ uşaqlıq illərindən kağız, qələm və rənglərlə qurduğu xəyal dünyası onun gələcək taleyini müəyyənləşdirib.**

İlk peşəkar addımlarını Xalça Muzeyində atan rəssamın sənətə baxışının formalaşmasında bu mədəniyyət ocağı əvəzsiz rol oynayıb. 2018-ci ildə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul olunub, dekorativ-tətbiqi sənət fakültəsində bədii keramika sahəsi üzrə bakalavr təhsili alıb, hazırda magistratura pilləsini tamamlayır.

Zəhra İsmayılovanın yaradıcılıq palitrası mövzu zənginliyi ilə seçilir. Onun diqqətçəkən əsərləri sırasında "Zəfərin sədası" xüsusi yer tutur. "Savaş və barış" kompozisiyası, "Humayun" əsərləri gənc rəssamın milli ruhlu bu yaradıcılığını əks etdirir.

Rəssamın bu günlərdə Mədəniyyət Nazirliyinin və Rəssamlar İttifaqının təşkil etdiyi Şanlı Zəfərimizin 5 illiyinə həsr olunmuş "Zəfərin rəngləri" sərgisində nümayiş olunan əsərləri sənətsevərlərin böyük marağına səbəb oldu.

Əsərlərinin dərinliyində gizlənən əsas fəlsəfi yanaşmanı, eyni zamanda, gələcək hədəflərini öyrənmək üçün gənc rəssamla həmsöhbət olduq.

**– Sənət əsərlərinizdə emosional dərinlik, eləcə də Vətən mövzusuna xüsusi bağlılığınız hiss olunur.**

– Sənət mənim üçün daxili dünyamın, hisslərimin və müşahidələrimin ifadə formasıdır. Sözlə ifadə edə bilmədiyim duyğuları rənglərin dili ilə daha asanlıqla kətan üzərinə köçürürəm. Xüsusilə, qədim tariximiz və Vətən müharibəsində qazanılan möhtəşəm Qələbəmizin yaratdığı yüksək hissiyyat məni vətənpərvərlik mövzularına yönəltdi.

Düşünürəm ki, müasir dövrdə sənətdə uğur qazanmaq üçün təkcə istedad yetərli deyil. Zəruri biliklər və texniki icra məharəti tələb olunur. Gənc rəssamın qiymətli işlər ortaya qoyması üçün nəzəri hazırlıq da çox vacibdir. Nəzəriyyə əsəri, sadəcə, baxımlı deyil, həm də düşündürücü edir.

**– "Zəfərin sədası", "Savaş və barış" aktual mövzulara müraciət etməyiniz çətinlik törətməyib ki?**

– Şübhəsiz, belə mövzuların öhdəsindən gəlmək gənc sənətçi üçün asan deyil. Vətənə olan məhəbbət və xalqımızın milli irsinə bağlılıq mənə güc və fantaziya verib. Sənət hər şeydən əvvəl, xalqımızın milli ruhunu, çağdaş mübarizəsini gələcək nəsillərə ötürən bir vasitədir. Xüsusilə, 44 günlük Vətən müharibəsi hər kəsin həyatında dərin unudulmaz, izlər buraxıb. O günlər həm qeyrət, həm də sarsılmaz milli birlik zirvəsi idi. Bu tarixi Qələbə gənc sənətkarların da əsərlərinə misilsiz ictimai məna, sənət əlvanlığı gətirib.

"Savaş və barış" kompozisiyası da elə o dövrün mənəvi əhvali-ruhiyyəsinin sənətdəki əksidir. Bu mövzu ordumuzun qəhrəmanlığını əbədiləşdirmək və Qələbə qürurunu yaşatmaq istəyimdən doğuldu. Gənc bir rəssam kimi Vətən sevgisini və milli qüruru sənətin dili ilə uzaq diyarlara çatdırmağa çalışıram.

Bir əsər üzərində işləməyə başlayanda daha çox milli-mədəni irsimizə üz tuturam. İlham mənbəyim isə qədim naxışlarımız, rəmzlərimiz və mifoloji əsərlərdir. Bu elementlər əsərlərimə həm dərinlik, həm də milli ruh gətirir. Ən böyük arzum beynəlxalq sərgilərə qatılmaq və ölkəmizi dünyada layiqincə təmsil etməkdir.

***Arzu ƏLİYEVA***
***XQ***





## Azərbaycanın mədəni ictimaiyyətinin Prezident İlham Əliyevə təbriki

**Azərbaycan mədəniyyət ictimaiyyəti 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb.**

Müraciətdə deyilir:

"Azərbaycan torpaqlarının azadlığı, ərazi bütövlüyü və suverenliyinin bərpa olunması, ədalətin bərqərar olması uğrunda xalqımızın apardığı tarixi mübarizənin simvoluna çevrilmiş 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü münasibətilə Sizi təbrik edir, Azərbaycan xalqına bəxş etdiyiniz bu Qələbə üçün Sizə sonsuz ehtiram və minnətdarlığımızı bildiririk.

Memarı olduğunuz bu şanlı Zəfər xalqımızın əsrlər boyu daşıdığı ədalət idealının gerçəkliyə çevrilməsi, apardığı haqq mübarizəsinin ali zirvəsi və milli iradənin tarix qarşısında təntənəsidir. Vətən müharibəsi Azərbaycan üçün, sadəcə, hərbi, siyasi, diplomatik qarşıdurma deyil, mənəvi arxetiplərin toqquşması – ədalət və haqsızlığın, mərhəmət və zorakılığın, həqiqət və yalanın qarşılaşdığı sınaq meydanı idi.

Sizin rəhbərliyinizlə işğaldan azad edilmiş torpaqlara "Böyük Qayıdış" Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq və bərpa işləri, xalqımızın qurub-yaratmaq əzmini nümayiş etdirir. Qısa zaman ərzində inşa edilən hava limanları, yollar, yaşayış məntəqələri və sosial layihələr müstəqil Azərbaycanın öz gücünə arxalanan inkişaf modelinin göstəricisidir. Bu, həm də müharibədən qalib çıxmış dövlətin sülh, tərəqqi və mədəni dirçəlişə yönəlmiş niyyətinin əksidir.

İşğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpa edilməsi, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər mədəni tədbirlərin bərpası bir daha sübut edir ki, Azərbaycanın Qələbəsi həm də yüksək mədəniyyətin, sarsılmaz ruhun və mənəviyyatın Zəfəridir. Bütün bunlar mühüm mədəniyyət hadisəsi olmaqla yanaşı, həm də milli kimliyin ifadəsi, dövlətçilik ideyalarının mədəni kodda təcəssümü, o cümlədən dövlətin milli-mənəvi, mədəni dəyərlərə verdiyi böyük önəmin təzahürüdür.

Azərbaycan xalqının milli-mədəni irsinin yaşadılması, dünya miqyasında tanıdılması və beynəlxalq mədəni münasibətlər sistemində yüksək səviyyədə təmsil olunması istiqamətində həyata keçirilən işlərə verdiyiniz dəstəyə, göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Möhtərəm cənab Prezident,

Bu əlamətdar və tarixi gündə Sizi ölkəmizin mədəniyyət ictimaiyyəti adından səmimi-qəlbdən təbrik edir, Uca Tanrıdan Sizə uzun ömür, möhkəm cansağlığı, xalqımızın firavanlığı və rifahı, dövlətimizin möhkəmlənməsi və intibahı naminə ali və şərəfli fəaliyyətinizdə uğurlar diləyirik".

## Ali Məclisin Zəfər Gününə həsr olunmuş iclası





**Dünən yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının Zəfər Gününə həsr olunmuş iclası keçirilib.**

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, 5 il bundan öncə noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 günlük Vətən müharibəsini tarixi zəfərlə başa çatdırmışdır. Şanlı Zəfər və antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

8 Noyabr – Zəfər Günü ilə əlaqədar deputatlardan Gülşad Rüstəmova, Emin Şıxəliyev və Məmməd Məmmədov çıxış edərək tarixi qələbənin Ermənistanın 30 illik işğalına son qoyması xalqımıza sonsuz sevinc və əbədi fəxarət gətirib.

İclasda Zəfər Gününün ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı qəbul edilib.

Sənəddə bildirilir ki, 8 Noyabr – Zəfər Günü uzun illər işğalçılıq, etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmış Azərbaycan xalqının əzminin və milli birliyinin, beynəlxalq hüququn aliliyinin və ədalətin təntənəsidir: "Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək regionda yeni geostrateji reallıqlar yaratmışdır. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması ilə nəticələnmişdir. Bununla da cənab İlham Əliyev ən mühüm missiyaya - Ata vəsiyyətinə əməl etmiş, ümummilli liderimiz Heydər Əliyevin arzularını reallaşdırmışdır."

Bəyanat bu sözlərlə bitir: "Azərbaycan xalqının çoxəsrlik tarixinin ən şərəfli səhifəsi olan Zəfər Günü milli birliyimizin, qəhrəman oğullarımızın Vətən və xalq qarşısındakı fədakarlığının nəticəsidir".

İclasda "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə, "Normativ hüquqi aktlar haqqında" Qanunda dəyişikliklər edilməsi və "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" layihələr də müzakirə edilib.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

## Dünyanı heyran qoyan Qarabağ savaşımız

**8 noyabr Azərbaycanımızın sərhədlərini aşan, dünyanın dörd tərəfində yaşayan 50 milyonluq milətimizin qürur duyduğu və bu qüruru yaşadıqları ölkələrin xalqlarına yansıdan gündür. 30 illik məğlubiyyətə bərabər işğala son qoyulduğu 8 Noyabr – Zəfər Günü ölkə daxilində olduğu kimi, onun hüdudlarından kənarda da böyük təntənə ilə qeyd olunur. O gün "məğlubedilməz erməni ordusu" mifini dağıdan, döyüş meydanında düşmənə hərb və kişilik dərsi keçən igid oğulllarımız tariximizin şanlı səhifəsini xalqın yaddaşına əbədi həkk etdilər. Zəfərin təntənəsinin 5 illiyi ilə yanaşı, bu savaşda canlarını Vətən yolunda fəda etmiş igidlərimizin əziz xatirəsi dərin ehtiramla anılır. Zəfərin 5-ci ildönümü ilə bağlı keçirilən tədbirlərdə soydaşlarımızla bərabər yerli millətlərin nümayəndələri də iştirak edir, keçirdiyimiz qürur hissini yaxından duyurlar.**









### Türkiyə

İstanbulda Azərbaycan Gənclər Fondu və Türkiyə Gənclik Vəqfinin (TÜGVA) birgə təşkilatçılığı ilə "Zəfərin 5 ili" forumu baş tutub. Tədbirdə Zəfərin bütövlükdə Türk dünyası üçün siyasi və mənəvi əhəmiyyəti, onun Azərbaycan və Türkiyə gəncləri arasında dostluq və qardaşlıq əlaqələrinin daha da dərinləşməsindəki rolundan danışılıb. Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev və TÜGVA-nın sədri İbrahim Beşinci çıxışlarında tarixi Zəfərin təkcə Azərbaycan xalqını deyil, bütün Türk dünyasını qürurlandırğını, azad edilmiş ərazilərin bərpası və inkişafı prosesində qardaşlığın mühüm rol oynadığını söyləyiblər.

Daha sonra Vətən Müharibəsi Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan baş leytenantı Qəzənfər Ağayev və Qarabağ qazisi, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan baş leytenantı Əhliyət Mehdiyevin çıxışları dinlənilib. Onlar Azərbaycanın suverenliyinin bərpası uğrundakı döyüş ruhundan, Zəfərin mahiyyətinin gələcək nəsillərə ötürülməsinin vacibliyindən bəhs ediblər.

### Pakistan

Qələbənin beşinci ildönümü münasibətilə Pakistanın paytaxtı İslamabad şəhəri Azərbaycan bayraqları ilə bəzədilib. Dost və qardaş ölkənin baş şəhərindəki bir çox mühüm binalar – Baş nazirin ofisi, parlament və Pakistan Ali Məhkəməsi Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılıb. Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar İslamabadda yürüş keçirilib. Pakistan Milli Abidəsi önünə toplaşan yüzlərlə adam "Yaşasın Azərbaycan–Pakistan qardaşlığı!", "Azərbaycan, Pakistan, Türkiyə – 3 qardaş!", "Bir millət, üç dövlət!" şüarlarını səsləndirib. Bundan başqa, İslamabadın küçələrində Pakistan, Azərbaycan və Türkiyə dövlət başçılarının portretləri asılıb.

Azərbaycanın şanlı Zəfərinin ildönümü münasibətilə paytaxt İslamabadın bütün əsas küçələrində Azərbaycan, Pakistan və Türkiyə bayraqları asılıb.

### Norveç

Norveçin paytaxtı Oslo şəhərində Zəfər Gününə həsr olunmuş "Şanlı Zəfər" adlı tədbir keçirilib. Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi, "Azərbaycan Evi"nin, Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) və Skandinaviya Azərbaycanlılarının Norveç Koordinasiya Şurasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə norveçlilər, azərbaycanlılar, türklər, ukraynalılar və digər xalqların icma nümayəndələri iştirak ediblər. "Azərbaycan Evi"nin rəhbəri Ramil Əliyev, Skandinaviya Azərbaycanlılarının Koordinasiya Şurasının Norveç koordinatoru və NAYO-nun sədri Fariz Rzayev qeyd ediblər ki, Zəfərimiz bizi qürurlandırmaqla yanaşı, həm də güclü Azərbaycan amalı ətrafında birləşdirir.

Sonra tədbir konsert proqramı ilə davam edib. Səhnədə Əməkdar mədəniyyət işçisi Elçin Abbasov (tar), Əməkdar artist Toğrul Əsədullayev (kamança), Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Orxan Cəlilov, "7-ci TV" muğam müsabiqəsinin laureatı Rəvan Qaçayev, eləcə də rəqqas Firuz Əliyev, rəqqasə Cəmilə Listkova və pianoçu Arvin Balanji çıxış ediblər. Norveçdə səfərdə olan teleaparıcı, Əməkdar artist Dilarə Əliyevanın Zəfərimizə həsr etdiyi monoloq tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

### Çexiya

Tarixi Zəfərimizin 5 illiyi münasibətilə Azərbaycanın Çex Respublikasındakı səfirliyi tərəfindən Praqa şəhərində təntənəli mərasim keçirilib. Mərasimdə Çexiyanın ictimai-siyasi, elmi və işgüzar dairələrinin nümayəndələri, Praqada akkreditə olunmuş diplomatik korpusun rəhbərləri və əməkdaşları və diaspor təşkilatlarının təmsilçiləri iştirak ediblər.

Səfir Yaşar Əliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun cəbhədə misilsiz şücaət göstərərək əzəli torpaqlarını işğaldan azad etməsindən milli qürur tarixi olan 8 Noyabr – Zəfər Gününün müasir tariximizdə müstəsna əhəmiyyətindən danışıb. O, Azərbaycanın torpaqlarını işğaldan azad etməklə təkcə özünün ərazi bütövlüyünü deyil, həmçinin tarixi ədaləti bərpa etdiyini, beynəlxalq hüququn norma və prinsiplərini yerinə yetirdiyini diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Türkiyənin Çexiyadakı səfiri Metin Feyzioğlu, Pakistan səfiri Şehryar Akbar Xan və Macarıstanın səfiri Andras Baranyi çıxış ediblər. Səfirlər çıxışlarında təmsil etdikləri ölkələrin Azərbaycan ilə dost münasibətlərinə toxunaraq, Vətən müharibəsində qələbənin qəhrəmancasına mübarizə nəticəsində qazanıldığını vurğulayıb, Zəfər Günü, suverenliyin və ərazi bütövlüyünün bərpası münasibətilə xalqımız təbriklərini çatdırıblar.

### Peru

Perunun paytaxtı Lima şəhərinin Miraflores rayonunun bələdiyyə binası Azərbaycan bayrağının rənglərinə bürünüb. Bu barədə Azərbaycanın Perudakı səfirliyindən məlumat verilib. Məlumatda qeyd olunur ki, Azərbaycanı özünə dost ölkə sayan Peru hökuməti Zəfər Günü münasibətilə özünəməxsus jestə imza atıb. Hökumətin xüsusi qərarı ilə Perunun paytaxtı Lima şəhərinin əsas tarixi və mədəni mərkəzi hesab olunan Miraflores rayonundakı bələdiyyə binası Azərbaycanın üçrəngli bayrağının rəngləri ilə işıqlandırılıb.

### Belarus

"Zəfər Günü yalnız hərbi uğurun təntənəsi deyil, tarixi torpaqlarımızın azad edilməsi uğrunda həyatlarını qurban vermiş qəhrəmanlarımızın xatirəsinə olan ehtiramın ifadəsidir". Bunu Azərbaycanın Belarus Respublikasındakı səfiri Məhərrəm Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Minsk şəhərində təşkil edilən rəsmi qəbuldakı çıxışında söyləyib.

Azərbaycanın Belarusdakı səfirliyinin 8 Noyabr–Zəfər Günü münasibətilə təşkil etdiyi tədbirdə əsas qonaq qismində Belarus Respublikasının sənaye naziri Andrey Kuznetsov, eləcə də Belarus Respublikası Prezident Administrasiyasının Xarici siyasət idarəsinin rəisi Dmitri Mironçik, Belarus Parlamenti Respublika Şurasının Beynəlxalq əlaqələr idarəsinin rəisi Andrey Taranda, Xarici İşlər Nazirliyinin Protokol idarəsinin rəisi Maksim Nesterenko, MDB ölkələri ilə ikitərəfli əməkdaşlıq Baş idarəsinin rəisi Maksim Stracko, Belarus Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq Departamentinin rəisi İvan Xrapunenko, MDB Baş katibinin birinci müavini İqor Petrişenko, müavini Nurlan Seytimov, Belarusda fəaliyyət göstərən diplomatik korpusun, ictimai, mədəni, işgüzar dairələrin nümayəndələri, diaspor rəhbərləri iştirak ediblər.

Daha sonra səfir son beş il ərzində işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdən danışıb, bu ərazilərdə enerji təchizatının tam bərpa edildiyini, müasir şəhərlər və kəndlər yaradıldığını, təhsil müəssisələri və sənaye obyektlərinin tikildiyini bildirib və bu məqsədlə dövlət büdcəsindən 10 milyard ABŞ dollarından çox vəsait xərcləndiyini qeyd edib. Həmçinin 2025-ci ildə Xankəndi və Şuşanın İqtisadi Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Zirvə Görüşünə ev sahibliyi etdiyini, Laçının isə MDB-nin Mədəniyyət Paytaxtı olduğunu xatırladıb. MDB ölkələrinin Üçüncü Oyunlarının Azərbaycanın yeddi şəhərində, o cümlədən Xankəndidə baş tutmasını bu regiona həyatın, inkişafın və sülhün qayıdışının aydın sübutu kimi dəyərləndirib.

### Tacikistan

Azərbaycanın Tacikistandakı səfirliyi tərəfindən 8 Noyabr - Zəfər Günü ilə bağlı rəsmi ziyafət təşkil olunub. Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov çıxışında 5 il əvvəl Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 30 ilə yaxın işğal altında olan torpaqları 44 günlük hərbi əməliyyat nəticəsində azad eməsindən, bu qələbənin, həmçinin diplomatik fəaliyyət və informasiya üstünlüyünün nəticəsi olmasından danışıb.

Səfir tədbir iştirakçılarına Azərbaycanın üzləşdiyi mina problemi, "Böyük Qayıdış" Proqramı çərçivəsində Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri barədə də məlumat verib. O, 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçiriləcəyini, bu tədbirin Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə töhfəsi və etibarlı tərəfdaş kimi nüfuzunun göstəricisi olduğunu vurğulayıb. Ə.Əskərov çıxışında bu ilin avqustunda Vaşinqtonda keçirilən Sammitə toxunaraq, orada əldə olunan nəticələrdən danışıb, Zəngəzur dəhlizinin (TRIPP) regional əlaqələri gücləndirəcəyini, beynəlxalq yükdaşımaları, enerji və rəqəmsal kommunikasiya imkanlarını artıracağını bildirib.

*Hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*




# Əmanətlərin Sığortalanması Fondunda 8 Noyabr – Zəfər Günü qeyd olunub





**Noyabrın 7-də Zəfər Günü münasibətlə Əmanətlərin Sığortalanması Fondunda (ƏSF) təntənəli mərasim keçirilib. Mərasim şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.**

Fondun İcraçı direktorunun müavini Bəhruz Qayıbov çıxışında Zəfər Gününün Azərbaycan tarixindəki müstəsna yeri və əhəmiyyətindən danışıb. Natiq qeyd edib ki, 8 Noyabr – Zəfər Günü xalqımızın illərlə arzuladığı ədalətin bərpası, torpaqlarımızın işğaldan azad olunması və dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnən möhtəşəm Qələbə günüdür. O, bu tarixi Zəfərin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi, uzaqgörən siyasəti, Azərbaycan Ordusunun rəşadəti və xalqımızın sarsılmaz birliyi sayəsində mümkün olduğunu diqqətə çatdırıb.

Bəhruz Qayıbov əlavə edib ki, bu qələbə yalnız hərbi deyil, həm də mənəvi-siyasi Zəfərdir. 8 Noyabr xalqımızın birlik, iradə və milli həmrəyliyinin simvolu, gələcək nəsillər üçün vətənpərvərlik məktəbidir. İcraçı direktorun müavini bildirmişdir ki, bu gün hər bir azərbaycanlı qalib xalqın nümayəndəsi olmaqdan qürur duyur və şəhidlərimizin göstərdiyi qəhrəmanlıq Azərbaycan tarixində əbədi yaşayacaqdır. O, çıxışının sonunda Vətən müharibəsində iştirak edən Fond əməkdaşlarına və bütün qazilərimizə dərin minnətdarlığını ifadə edib, şəhidlərimizin əziz xatirəsini xalqımızın daim uca tutacağına əminliyini bildirib.



Sonra Vətən müharibəsində iştirak edən Fond əməkdaşları öz döyüş xatirələrini bölüşüblər. Onlar torpaqlarımızın azad olunması istiqamətində Azərbaycan Ordusunun şücaətindən danışaraq dövlətimizin qazilərə və müharibə iştirakçılarına və şəhid ailələrinə göstərdiyi diqqət və qayğının yüksək dəyərləndirdiklərini bildiriblər.

Sonda Fondun rəhbərliyi müharibə iştirakçısı olan əməkdaşları xüsusi hədiyyələrlə təltif edib və onların göstərdiyi şücaətə görə kollektivi adından dərin minnətdarlığını bildirib.

Əmanətlərin Sığortalanması Fondu bu əlamətdar gündə bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edir, şəhidlərimizin xatirəsini ehtiramla yad edir, qazilərimizə möhkəm cansağlığı və uzun ömür arzulayır.

**Zəfər bizimlədir!**
**Qarabağ Azərbaycandır!**

***Q.YUSİFOĞLU***
***XQ***

## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

### BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

*fakültə və kafedralar üzrə aşağıdakı vəzifələri tutmaq üçün*

### MÜSABİQƏ ELAN EDİR

**Dekan vəzifəsini tutmaq üçün:**

| Fakültələr | Vəzifələr | Yerlər |
|---|---|---|
| Memarlıq və inşaat fakültəsi | Dekan | 1 |

**Professor-müəllim vəzifələrini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Mexanika mühəndisliyi kafedrası | Dosent | 1 (1,0) |
| Fizika kafedrası | Dosent | 1 (1,0) |
| Azərbaycan dili və pedaqogika kafedrası | Dosent | 1 (0,5) |
| Xarici dillər kafedrası | Dosent | 1 (1,0) |
| Maliyyə və mühasibat kafedrası | Baş müəllim | 1 (0,5) |
| Riyaziyyat və kompüter elmləri kafedrası | Baş müəllim | 1 (1,0) |

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun seçkinin elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin siyahısı:**

**1** Kadrlar uçotunun şəxsi vərəqəsi.
**2** Tərcümeyi-hal.
**3** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
**4** Elmi və elmi-metodiki işlərin siyahısı.
**5** Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan**: AZ0101, Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev küçəsi 120,

**Əlaqə telefonları**: +994 (012) 349-99-66/67+Daxili nömrə: (1113, 1115, 1117, 1155, 1504).

**Fax:** (+99412) 349-99-90/91

**e-mail:** info@beu.edu.az **web sayt:** www/beu.edu.az

***REKTORLUQ***

## "ŞƏKİ–BAZAR"ASC səhmdarlarının nəzərinə!

"Şəki-Bazar"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 23 dekabr 2025-ci il saat 11.30-da Şəki şəhəri, S.Rəhman küçəsi 1, "Şəki-Bazar"ASC-nin binasında keçiriləcəkdir.

Yığıncaqda iştirak etməyiniz xahiş olunur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107 3.1-ci bəndinə əsasən səhmdarlar yığıncaqda iştirak hüququnu bilavasitə özləri və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

**Yığıncağın gündəliyi:**

1. "Şəki-Bazar" ASC-nin 2024-cü ildəki maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi.
2. 2024-cü ilin maliyyə nəticələrinə görə maliyyə-təftiş komissiyasının hesabatı və mühasibat balansının təsdiq edilməsi.
3. 2024-cü ilin yekunlarına görə mənfəətdən səhmdarlara ayrılmış dividend haqqında məlumat.
4. Digər məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq üçün - "Şəki-Bazar"ASC-nin idarə heyətinə müraciət etmək lazımdır.

**Əlaqə telefonu:** (02424) 4-35-99.

# Tarixi Zəfərimiz Gürcüstan mətbuatında

**Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" qəzetində "Alyans Gənclər Mərkəzi"nin icraçı direktoru Rəna Hüseynova və professor Quram Marxulianın xalqımızın Qarabağda tarixi Qələbəsinin 5-ci ildönümünə həsr olunmuş geniş məqaləsi dərc olunub. Yazıda deyilir:**




"Azərbaycan xalqı Qarabağda qazandığı tarixi Qələbənin növbəti ildönümünü böyük təntənə ilə qeyd edir. Ölkə vətəndaşları bu günü 28 il gözləmişdilər. Amma heç vaxt inamlarını itirməmişdilər. Doğma Şuşanın düşmən tapdağından azad ediləcəyi günü görmək arzusu ilə yaşamışdı. Nəhayət, möhtəşəm tarixi gün yetişdi. 2020-ci il noyabrın 8-də Azərbaycan mədəniyyətinin tacı olan Şuşa azad olundu. Həmin tarixi anlarda Prezident İlham Əliyev xalqını bu sözlərlə müjdələdi:

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Məqalədə sonra qeyd olunur: "Ermənilər 30 ilə yaxın müddətdə işğal altında saxladıqları Azərbaycan ərazilərində ağır dağıntılar törədiblər. İşğal nəticəsində Azərbaycanın 900-dən artıq yaşayış məntəqəsi vəhşicəsinə talanıb, yandırılıb və dağıdılıb, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilib, 4 min 366 sosial-mədəni obyekt, həmçinin 695 tibb ocağı məhv edilib. Eyni zamanda, kənd təsərrüfatı sahələri, hidrotexniki qurğular, nəqliyyat və kommunikasiya xətləri tamamilə sıradan çıxarılıb. Yüzlərlə kitabxana, tarix və mədəniyyət abidəsi, onlarla muzey, dövlət teatrı və konsert müəssisələri viran edilib".

Gürcüstan nəşrində həmçinin vurğulanır ki, ölkəmizin talan edilmiş muzeylərindən 40 mindən çox qiymətli əşya və nadir eksponat Ermənistana daşınıb. Qarabağda və Şərqi Zəngəzurda onlarla məscid dağıdılıb, qəbiristanlıqlar yerlə-yeksan olunub. Bunlardan başqa, meşələr və təbii ehtiyatlar talan edilib, qiymətli ağaclar kəsilib və qanunsuz şəkildə satılıb.

Amma erməni vandallarından fərqli olaraq Azərbaycan xalqı artıq 5 ildir ki, görkəmli dövlət xadimi İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda geniş tikinti-quruculuq işləri aparır, minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdır. Bir sözlə, burada həyat yenidən canlanır.

***Paşa ƏMİRCANOV***
***XQ***




# "PAŞA Holding"in paytaxta Zəfər Parkı və Zəfər Muzeyi töhfəsi

**2025-ci il noyabrın 6-da "PAŞA Holding" və Bakı Şəhər İcra Hakimiyyəti arasında razılaşma protokolu imzalanıb. Protokola əsasən "PAŞA Holding"in maliyyə dəstəyi ilə inşa edilmiş Zəfər Parkı və Zəfər Muzeyi Bakı Şəhər İcra Hakimiyyətinə təhvil verilib. Sənədi "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov imzalayıblar.**

Zəfər Muzeyi 2024-cü ildə tikilmiş Zəfər Parkının ərazisində yerləşir. Hər iki layihənin inşası Azərbaycan xalqının 2020-ci ildə əldə etdiyi tarixi Qələbəni və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədi daşıyır.

Zəfər Parkının ümumi ərazisi 9,16 hektar, yaşıllıq zonaları isə 4,24 hektar təşkil edir. Layihə çərçivəsində 44 metr hündürlüyündə Zəfər tağı, 9,9 metr hündürlüyündə memorial abidə, həmçinin şəhidlərin adlarının yazıldığı 8,8 metr hündürlüyündə xatirə divarı inşa edilib. Parkın tikintisinə 114,5 milyon manat vəsait sərf olunub.

Zəfər Muzeyinin ümumi sahəsi 4278 kvadratmetr olan bina, 8 sərgi zalı, auditorium zonası (90.7 kvadratmetr) və s. ilə ziyarətçilərin istifadəsinə təqdim olunacaq. Muzeyin inşası üçün 59,5 milyon manat məbləğində vəsait ayrılıb.

Tarixi Zəfərimiz, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün Azərbaycan xalqı kimi, "PAŞA Holding" üçün də xüsusi önəm kəsb edir. İstər işgüzar fəaliyyəti, istərsə də sosial məsuliyyət təşəbbüslərində "PAŞA Holding" bu mövzulara daim diqqət və həssaslıqla yanaşır.



"PAŞA Holding" 2021-ci ildən etibarən azad olunmuş ərazilərin bərpa və yenidənqurma prosesində fəal iştirak edir. Xüsusilə tarixi, dini və mədəni irsin qorunması istiqamətində holding bir sıra mühüm layihələrə dəstək verib. Şirkətin maliyyə dəstəyi ilə Aşağı Gövhərağa, Yuxarı Gövhərağa, Saatlı məscidi, Ağdam Cümə məscidi, Qiyaslı kənd məscidi bərpa olunub. Həmçinin işğaldan azad olunmuş ərazilərimizdə Suqovuşan məscidi, Zəngilan məscidi, Hadrut məscidi və Daşaltı məscidi inşa edilib. Qeyd edək ki, hazırda Şuşa, Cəbrayıl və Laçın məscidlərinin inşası davam etdirilir.

*Vüsalə ƏLİYEVA*
*XQ*

# "Uşaq hüquqları ədəbiyyatda və incəsənətdə"



**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Uşaq hüquqları ədəbiyyatda və incəsənətdə" mövzusunda elmi sessiya keçirilib.**

Sessiyanı muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq qeyd edib ki, 1989-cu il noyabrın 20-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikasının da iştirakçısı olduğu "Uşaq hüquqları haqqında" Konvensiya uşaqların hüquqlarının qorunması sahəsində zəruri olan standartları və iştirakçı dövlətlərin öhdəliklərini müəyyən edən əsas beynəlxalq sənəddir. Ümummilli lder Heydər Əliyev 1998-ci il mayın 19-da ölkəmizdə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamaqla uşaq və cəmiyyətin hüquqi bazasını yaratdı. "Qurani-Kərim"də də uşaqlarla bağlı belə, bir ayə var ki, ehtiyacınız olsa belə uşaqları öldürməyin. Bizim Konstitusiyamızda da, qanunumuzda da uşaq hüquqları ilə bağlı bütün məsələlər öz əksini tapıb. Uşaqların təhsil, yaşamaq, istirahət hüquqları var. Onların daha bir hüququ isə sığınmaq hüququdur–valideynə, özündən böyüklərə sığınmaq hüququ. Valideynlər uşaqların qarşısında borclu olduqları qədər, uşaqlar da onların qarşısında borcludurlar. Dünyanın hər yerində olduğu kimi, Azərbaycan ədəbiyyatında, incəsənətində də uşaqlara qayğı həmişə aparıcı mövzulardan olub.

Muzeyin direktoru ölkəmizdə uşaqlarla bağlı əsərlərin, bədii və cizgi filmlərinin kifayət qədər olmadığını, bu sahəyə diqqətin artırılmasının vacibliyini vurğuladı.

Muzeyin əməkdaşları Tomiris Babanlı, Elçin Axundov, Gülsəba Həsənova və Rəhilə Sadıqova çıxış edərək ölkəmizdə uşaq ədəbiyyatının vəziyyəti, ədəbiyyat və incəsənətdə uşaq hüquqlarının təbliği haqqında məlumat veriblər. Çıxışlarda uşaqlara malik olduqları hüquqları anlatmaq üçün maraqlı əhvalat, nağıl, hekayə və rəvayətlərin mühüm tərbiyəvi, öyrədici əhəmiyyəti vurğulanıb, bu sahədə görüləsi işlər diqqətə çatdırılıb.

Axırda akademik Rafael Hüseynov uşaqlara xoşbəxt və Zəfərli Azərbaycanda sağlam həyat və sevinc dolu günlər arzuladı.

*XQ*

# “Azəri–Çıraq–Günəşli” yataqlar bloku müstəqilliyin xidmətində

*28 il əvvəl istismara verilmiş “Çıraq” platformasından 106,8 milyon ton neft və 24,7 milyard kubmetr qaz hasil edilib*



**Bu ilin yanvar-sentyabr aylarında Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi çərçivəsində xam neft hasilatı və ixracı ahəngdar şəkildə davam edib. “BP-Azərbaycan” şirkətinin məlumatına əsasən, ötən 9 ayda konsorsium iştirakçıları “Azəri-Çıraq-Günəşli” layihəsinin əməliyyat tədbirlərinə 338 milyon dollar, əsaslı məsrəflərinə isə 912 milyon dollar xərcləyiblər.**

Bildirilib ki, AÇG yataqlar blokunda yeni 4 ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində ikinci il üçün məlumat toplanması işləri cari ilin 3 rübü ərzində davam etdirilib. Xatırladaq ki, “Balaxanı” və “Fasilə” lay dəstlərinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometr əraziləri əhatə edir. Proqramın ümumi dəyərinin, təxminən, 370 milyon ABŞ dolları, icra müddətinin isə 5 il (2024-2028) olacağı planlaşdırılır. Yeri gəlmişkən, tədqiqatın əhatə etdiyi ərazi, həyata keçirilən işlərin ümumi dəyəri və müddəti baxımından bu layihə BP-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramıdır.

2025-ci ilin 9 ayında AÇG-də, ümumilikdə, 145 neft hasilat quyusu, 48 su injektor quyusu və 10 qaz injektor quyusu istismarda olub. Yanvar-sentyabr aylarında 7 hasilat platforması vasitəsilə gündə orta hesabla 327 min barel və ya ümumilikdə 12 milyon ton (89 milyon barel) neft çıxarılıb. Ümumi hasilatın 21 min bareli “Çıraq”, 88 min bareli “Mərkəzi Azəri”, 75 min bareli “Qərbi Azəri”, 43 min bareli “Şərqi Azəri”, 52 min bareli “Dərinsulu Günəşli”, 24 min bareli “Qərbi Çıraq” və 24 min bareli “Azəri-Mərkəzi-Şərqi” platformalarının payına düşüb.

Yeri gəlmişkən, Azərbaycan neft sənayesinin simvollarından sayılan “Çıraq” platformasından ilk neft hasilatına başlanılmasından 28 il ötür. Energetika Nazirliyinin məlumatına görə, “Əsrin müqaviləsi”nin ilkin neft layihəsi çərçivəsində istismara verilmiş həmin platformadan 2025-ci il noyabr ayının 1-dək 106,8 milyon ton neft və 24,7 milyard kubmetr qaz hasil edilib.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, ilin əvvəlindən müqavilə sahəsində 6 neft hasilatı, 4 su və 1 qaz injektor quyusunun qazılması tamamlanıb.

Məlum olduğu kimi, “Əsrin müqaviləsi”nin şərtlərinə əsasən, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan xam neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan hökumətinə təhvil verilir. Bu ilin üç rübü ərzində Səngəçal terminalından “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə, isə 2,1 milyard kubmetr “mavi yanacaq” Azərbaycanın qazpaylayıcı sisteminə ötürülüb. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

AÇG yatağındakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb. Buradakı sərbəst təbii qaz ehtiyatlarının isə 4 trilyon kub futadək olması ehtimal edilir. Sözügedən sənədə uyğun olaraq SOCAR və AÇG tərəfdaşları sərbəst təbii qaz laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar.

Bu işlərin bir hissəsi kimi “Qərbi Çıraq” platformasından ilkin hasilat quyusunun qazılması təhlükəsiz şəkildə başa çatdırılıb. Bununla da, hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet sərbəst təbii qaz layına – dayaz qırmakıüstü qumlu və daha dərin qırmakıaltı lay dəstlərinə çıxış təmin edilib. Nəticədə qırmakıüstü qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğu təsdiqlənib. Bundan əlavə, qırmakıaltı lay dəstində də yüksək təzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib. Bu layda isə 2026-cı ilin əvvəllərində sınaq işlərinin aparılması planlaşdırılır. AÇG-dən ilk sərbəst təbii qazın hasilatına isə gələn ilin birinci yarısında başlanacağı gözlənilir.

2025-ci ilin yanvar-sentyabr aylarında AÇG və “Şahdəniz” yataqlarından neft və kondensatın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Ötən 9 ayda terminaldan 159 milyon barel neft və kondensat ixrac olunub. Bu həcmlərin isə hamısı Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql olunub. Qeyd edək ki, Səngəçal terminalının texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, Şahdəniz qazı üçün, təqribən, 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik 100 milyon standart kubmetrdir.

Qaz terminaldan, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi sistemi də daxil olmaqla, əsasən Cənubi Qafqaz Boru Kəməri və terminalın qaz emalı obyektlərini Azəriqazın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. İlk üç rüb ərzində Səngəçal terminalından gündəlik orta hesabla, təxminən, 74,5 milyon kubmetr Şahdəniz qazı göndərilib.

Xam nefti dünya bazarına çıxaran Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri də fəaliyyətini uğurla davam etdirib. “BP-Azərbaycan” şirkətinin 2025-ci ilin 9 ayının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 97 milyon dollar, əsaslı məsrəflərinə isə 50 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş, təqribən, 19 milyon ton xam neft və kondensat Ceyhan terminalında 216 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC kəməri ilə 2025-ci il sentyabr ayının sonunadək, təqribən, 613 milyon tondan çox (4,6 milyard barel) xam neft nəql edilib. Həmin neft həcmləri Ceyhanda 6078 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistan, eləcə də SOCAR-a məxsus digər neft həcmləri də nəql olunur.

# “Dəmirli” misi bazara çıxarılır



**Azərbaycanda qızıl, mis və gümüş hasilatı sahəsində fəaliyyət göstərən Böyük Britaniya şirkəti olan “Anglo Asian Mining PLC” Qarabağdakı “Dəmirli” mis mədənində hasil olunan konsentratın satışına dair müqavilə imzalayıb.**

“Trafigura Pte Ltd” şirkəti ilə bağlanmış müqavilə 25 milyon ABŞ dollarınadək qabaqcadan ödəniş xəttini nəzərdə tutur. Şirkət artıq Azərbaycan hökumətindən “Dəmirli” mədəninin emal zavodunun istismarı üçün tələb olunan lisenziyaları alıb. “Anglo Asian”a, həmçinin mövcud tullantı anbarından 12 ay müddətinə istifadə icazəsi də verilib. Bu müddətdə ikinci tullantı anbarının tikintisi planlaşdırılır. Zavodun icarə müqaviləsi 2025-ci il oktyabrın 1-dən qüvvəyə minib.

“Trafigura” şirkəti ilə imzalanmış satış müqaviləsi hökumət tərəfindən təsdiq olunub. “Anglo Asian” ilk mis konsentratı satışının bu ayın ortalarında reallaşacağını gözləyir.

Şirkətin baş direktoru Rza Vəziri bildirib ki, “Dəmirli” mədənində zavodun və tullantı anbarının istismarı üçün bütün müvafiq lisenziyaların alınması şirkətin hasilat portfelini genişləndirəcək. Bu addımı sözügedən mədənin tam fəaliyyətə başlaması və qrupun ümumi istehsalına töhfə verməsi baxımından mühüm mərhələ kimi səciyyələndirən baş direktorun sözlərinə görə, “Trafigura” ilə imzalanmış satış müqaviləsi rəhbərlik etdiyi şirkətə mis konsentratının satışına başlamağa və “Dəmirli”dən gəlir əldə etməyə imkan verir.



# Azərbaycan xurmasının bazarı genişlənir

**Ölkənin xurma bağlarında yığılan məhsulun soyuducu anbarlara qəbuluna başlanılacaq. Bu barədə “Azərbaycan Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyinin sədri Qadir Yusifov məlumat verib. O bildirib ki, bu il bağlarda məhsuldarlıq yüksək olsa da, Azərbaycan xurmasının əsas ixrac bazarı sayılan Rusiyada satışın kəskin azalması müşahidə olunur. Hətta qonşu ölkənin bazarlarında xurmanın qiyməti əvvəlki illə müqayisədə 30-40 faiz aşağıdır. Birlik sədri bunun əsas səbəbini bu ölkədə alıcılıq qabiliyyətinin zəifləməsi ilə əlaqələndirib.**

Hazırda Azərbaycanın xurma ixracatçılarının daha çox Türkiyə bazarına maraq göstərdiklərini vurğulayan birlik rəhbərinin sözlərinə görə, iki ölkə arasında əldə olunmuş yeni ticarət razılaşması azərbaycanlı fermerlər üçün əlverişli imkanlar yaradıb. Qadir Yusifov deyib ki, mövcud razılaşmaya əsasən gömrük rüsumundan azad olunmaqla ticarəti nəzərdə tutulan 15 adda məhsulun siyahısına əvvəllər xurma daxil edilməmişdi. Lakin onun İqtisadiyyat Nazirliyinə ünvanladığı müraciətdən sonra Azərbaycan tərəfinin məsələyə müdaxiləsi müvafiq orqanlarla birgə işi nəticəsində xurma da həmin siyahıya salınıb. Nəticədə, Azərbaycan xurması hazırda Türkiyəyə əlavə dəyər vergisi ödənilmədən ixrac olunur. Bu isə həm məhsulun rəqabət qabiliyyətini artırır, həm də ixracatçılar üçün yeni bazar imkanları yaradır.

Bununla belə, xurma ixracının yalnız Türkiyə bazarları ilə məhdudlaşmadığını söyləyən birlik sədrinin dediyinə görə, hazırda məhsul Ukrayna və Belarus bazarlarına da göndərilir. Bununla yanaşı, ərəb və bəzi Avropa ölkələrinə də xurma ixracı nəzərdə tutulur. Bu isə o deməkdir ki, yaxın illərdə Azərbaycan xurmasının ixrac coğrafiyası daha da genişlənəcək.

Qeyd edək ki, Azərbaycanda xurma 20-dən çox rayonda, o cümlədən Göyçay, Ağdaş, Tərtər və Zaqatalada yetişdirilir. Göyçay və Ağdaş rayonları isə ölkənin “xurma paytaxtları” sayılır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkəmizdən 34,1 milyon dollar həcmində 47 min 726 ton xurma ixrac edilib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsi ilə 5 milyon dollar və ya 17,1 faiz, miqdar ifadəsi ilə isə 6 min 136 ton və ya 14,7 faiz çoxdur.



Bir məqamı da qeyd edək ki, cari ilin 9 ayında ümumi ixracın 0,18 faizi, qeyri-neft sektoru üzrə ixracın isə 1,29 faizi məhz xurmanın payına düşüb. Ötən ilin eyni dövründə isə xurmanın ümumi ixracdakı payı 0,15 faiz olub. Xatırladaq ki, 2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycandan 29,1 milyon dollar dəyərində 41 min 590 ton xurma ixrac olunub. Yeri gəlmişkən, cari ilin 9 ayının nəticələrinə əsasən, Azərbaycanın ixrac etdiyi xurmanın 1 kiloqramının orta ixrac qiyməti 1 manat 22 qəpik təşkil edib. Ötən ilin eyni dövründə isə bu rəqəm 1 manat 19 qəpik olub. Bu da illik müqayisədə 2,5 faiz bahalaşma deməkdir.

# “Şəfəq” GES-ə ilk panellər gətirilib

**İşğaldan azad olunmuş Cəbrayıl rayonunda icra olunan “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsi çərçivəsində tikinti-quraşdırma işləri qrafikə uyğun davam etdirilir.**

“BP-Azərbaycan” şirkətindən verilən məlumata görə, bu ilin ötən dövrü ərzində layihə üzrə biri mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən, digəri isə modul təchizatı üçün olan iki əsas müqavilə



imzalanıb. Həmin müqavilələr çərçivəsində layihə sahəsində hazırlıq işləri artıq tamamlanıb. Hazırda isə tikinti tədbirləri torpaq işləri və daxili yolların çəkilməsi ilə davam edir. Eyni zamanda, bu ilin yayında tikinti sahəsində modul təchizatı üzrə işlərə də başlanıb. Avqust ayında isə ilk panellər uğurla əraziyə çatdırılıb.

Xatırladaq ki, layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Bu işlərin yerinə yetirilməsində yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət veriləcək. Tikintinin pik dövründə layihə çərçivəsində 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

# Zəngilanda yeni elektrik şəbəkəsi yaradılır



**“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti ölkənin bütün regionlarında olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda da yenidənqurma, əsaslı təmir-bərpa işlərini davam etdirir. Görülən işlər nəticəsində Zəngilanın bir sıra kəndlərində, eləcə də şəhər mərkəzində elektrik təsərrüfatı yenilənir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Zəngilanda yeni qurulan şəbəkədə “Ağıllı şəhər”, “Ağıllı kənd” layihələrinin infrastrukturu üçün bütün imkanlar yaradılır.**

Qurumdan verilən məlumata görə, Ağalı kəndində yeni tikilmiş 55 fərdi yaşayış evi və 2 mərtəbəli, 48 mənzilli binanın dayanıqlı, keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması üçün bütün işlər görülüb. Həmin yaşayış obyektlərinin işıqlandırılması məqsədilə ikidövrəli 35 kilovoltluq yeraltı kabel xətləri çəkilib, SMS tipli sayğaclar quraşdırılıb. Ağalı kəndində abonentlərə xidmət göstərən 10 müasir tipli tansformator məntəqəsi quraşdırılıb. Bununla yanaşı, şəhər ərazisində tikilən 104 mənzilli yaşayış kompleksi 1600 kVA gücündə 35,04 kilovoltluq 2 müasir tansformator məntəqəsi ilə təchiz olunub. Zəngilan Elektrik Şəbəkəsinin rəqəmsal idarəetmə mərkəzindən ikidövrəli 35 kilovoltluq yeraltı kabel xətti çəkilib, binalarda SMS tipli sayğaclar quraşdırılıb.

Gələcəkdə Cahangirbəyli kəndinə köç edəcək sakinlərin elektrik enerjisinə olan tələbatını ödəmək üçün 110/35/10 kilovoltluq “Zəngilan” yarımstansiyasından 11 kilometr özünüdaşıyan izolyasiyalı naqillərlə ikidövrəli 35 kilovoltluq kabel hava xətti çəkilib.

Rayonun Məmmədbəyli də yaxın gələcəkdə öz doğma sakinlərinə qovuşacaq. Bu məqsədlə yaşayış məntəqəsində yenidənqurma işləri davam edir. Görülən işlərin nəticəsində Ağalı kəndinin paylayıcı qurğusundan Məmmədbəyliyədək 3,5 kilometr ikidövrəli 35 kilovoltluq yeraltı kabel xətti çəkilib, 67 SMS tipli sayğac quraşdırılıb. Kənddə 1000 kVA gücündə müasir tipli 4 transformator məntəqəsi abonentlərə xidmət göstərəcək.

*Səhifəni hazırladı:*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Zəfərin solmayan şeiriyyəti

## Qarabağa dönüş

*(poemadan parça)*



…Arxada qaldı divar, öndə düşmən səngəri,
Səngərin o üzündə ruhumuzun şəhəri.
Pənah xanın, Vaqifin, Natəvanın şəhəri,
Zirvələrə köklənən tar-kamanın şəhəri.
Hər həyətdən yollara aşan qızıl gülləri,
Canlı güllər eşqinə oxuyan Bülbülləri.
Nəcəf bəyin ocağı, Əhməd bəyin yuvası,
Hacıbəyli nəslinin bitməz vətən qovğası.
Gah tarixə əl atdı, gah bu günü dindirdi
Gah da Koroğlu yazıb milləti sevindirdi.
Həm bulaq zümzüməsi, həm okean səsiydi
Üzeyir musiqisi - ruhun möcüzəsiydi...
Söz-söhbəti dillərdə, kefi daim çağ olan,
İşi - sənət, musiqi, yazıb-yaratmaq olan
Dağı, daşı, torpağı tarixdən bu yana sirr,
Bir qaraçı nəslinə qala bilərmi əsir...
Səsim, sözüm, musiqim bu qayanın üstündə,
Məni kim endirəcək bu qayanın üstündən?
Bu səngərdə yenilsən divardan enmək olmaz.
Şuşanı fəth etmədən geriyə dönmək olmaz...

Əsgər fürsət bilincə qaranlıq gecələri
Dumanla qatılaşıb bu bələdçi qaranlıq.
Səsindən işıqlanıb şəhərin küçələri,
Addımından oyanıb yatan ruhlar bir anlıq.

Mürgülü keşikçilər göz açıb-qırpanacan
İçirlər nuşi-canla ölümün şərbətini.
Nə anlaya biliblər hara uçub getdi can,
Nə sözə növbə çatıb anlada heyrətini.

Göyün dumanı kimi qondu düşmən başına
Yerdən, göydən gəldiyi bilinməyən bir əsgər.
Mərmi, güllə başına dolu kimi yağsa da
Yürüşü pozulmayan, ələnməyən bir əsgər.

Səsi çıxmazdan qabaq ağzından çıxır canı,
On ölkədən gələnin əcəli burda çatır...
Düşmən bir də ayılır, yollarında Şuşanın
Məscidə doldurduğu donuz sürüsü yatır.

Döşünə döyən ordu qanqal kimi biçilib,
Leş leşin üstündədir, oyanmaz bu yuxudan.
Düşmən siçana dönüb, düşmən elə kiçilib
Silahla bir-birinə saldırır qorxusundan.

Günahsız körpələrin qanı tutub gözünü.
Hesabat verməlidir bu qiyamət günündə.
Qorxudan ağlı çaşıb biçir özü-özünü.
Bir ordu qaçıb gedir yüz əsgərin önündən.

İntiqam səhnəsini qəsdən uzadır gecə,
Yalvarışlar qaçırır dağların yuxusunu.
Dumana çevrilərək yerə üz sürtüb keçən
Əsgər aslana dönüb qovur it ilxısını.

Dabanına tüpürüb generalı, zabiti,
Tankın, topun üstündən tullanaraq qaçırlar.
Arvad-uşaq qatili dözmür ər döyüşünə
Tülkü texnikasını qullanaraq qaçırlar.

Şuşanın dolayları dönüb şahmar ilana,
Sağ çıxanlar bu yolda ərisinlər, itsinlər.
Heç kim cəsarət edib boylanmasın dalına,
Açılıb Laçın yolu, qoy rədd olub getsinlər!

Şuşanın gecəsindən yad nəfəsi hayların
Sökülüb atılınca astaca sökülür dan.
İşığı qayıdıbdır Günəşlərin, Ayların
Müqəddəs bayrağımdır gecəni aydınladan!..

***Sabir RÜSTƏMXANLI***
***Xalq şairi***

## Şuşalı Vətən

*(poemadan parça)*



Ad Şuşa adıdı, yol Şuşa yolu,
Gün Şuşa günüdü, il Şuşa İli.
Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir.

Öpüb ulduzunu, öpüb ayını
Öpüb hər rəngini çəkir gözünə, –
Göyü, qırmızını, yaşılı Vətən.
Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!

Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir,
"Şuşa, sən azadsan" təntənəsində,
Birliyin gücündə Şuşa tikilir,
Xalqın Qarabağa qayıdışında,
Tarixi köçündə Şuşa tikilir,
Yolboyu güllənən bağ yerlərində,
Əkində-biçində Şuşa tikilir,
Hər qaya, hər dağda Şuşa tikilir,
Külli Qarabağda Şuşa tikilir.

Yırtıb çadır-çadır şəhərcikləri
Abır şəhərinə qayıdır Şuşa,
Öpüb gözlərindən Xarıbülbülün
Cıdır şəhərinə qayıdır Şuşa.

Süzüb Xankəndini Xan şəhərindən,
Dikəlir yerindən Pənahəli xan,
Silir Natəvanın göz yaşlarını,
Hayqırıb Vaqifin məqbərəsindən
Bir-bir salamlayır yurddaşlarını.

Silkinib içindən kükrəyir Şuşa,
Başlanır şəhərin yeni erası,
Yerinə qayıdır Üzeyir bəyin
Dağları oynadan uvertürası.

Min bəstə üstündə tikilir Şuşa,
Şikəstə üstündə tikilir Şuşa,
Yerinə qayıdır Bülbülün səsi
Yerinə qayıdır Xan zənguləsi,
Çahargah nərəsi, Segah naləsi.

Çıxır azadlığa damlanan damlar,
Damlanan qapılar, o ah yerləri,
Silinir üzündən günah yerləri,
Hasarlar yerinə qayıdır indi,
Yenidən qurulur gorgah yerləri,
Məzarlar yerinə qayıdır indi.

Alıb bir-birindən yurd halallığı
Yerinə qayıdır binə daşları,
Alıb bir-birindən dərd halallığı
Yerinə qayıdır sinə daşları...

Yerinə qayıdır çəmənin ətri,
Yerinə qayıdır meşənin ruhu,
Yerinə qayıdır Vətənin ətri,
Yerinə qayıdır Şuşanın ruhu...

...Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!

***Ramiz QUSARÇAYLI***




## Ay Vətən!



Bu boyda şəhid yükünə
Dözürsə qəddin, ay Vətən,
Mütləq bir gün bütövləşər
Sərhədin, səddin, ay Vətən!

Kəsilməyib səsi, ünü,
Tarix olan 44 günün...
Yağılara öz gücünü
Yaxşı göstərdin, ay Vətən!

Qabağında ağır yasın,
Şah vüqarın qoy sınmasın.
Sən tapda ki... tapdanmasın
Cığırın, rəddin, ay Vətən!

Başdan-başa düşmən şərdi,
Şəri boğmaq bir hünərdi.
Alovlara sinə gərdi,
İgidin, mərdin, ay Vətən!

Yaxındadır Turan turu,
Yenilməzdir türkün zoru.
Dəhliz edər Zəngəzuru
Bu qalib həddin, ay Vətən!

***Musa ƏLƏKBƏRLİ***

## Hərbçi toyunda bəy tərifi

Kürək əllərində əzilir buket,
Üstündən, barıt yox, gül iyi gəlir.
Kəpənək qalstuk taxmısan... ay-hay...
Baxanda adamın gülməyi gəlir.

Burnu nə uzundur ayaqqabının,
"Mülki" addımların ayağa sıxdır.
Axır ki, soyundun kamuflyajı,
Xaki buşlatında şadyanalıqdır.



Köynəyə sığışmır əzələlərin,
Dirsəkdən qolunu, yoxsa, əyiblər?
Elə şax durubsan "lom" kimi, sanki,
Paltarı üstündə ütüləyiblər.

Barmağın açılır tapança kimi,
Avtomat çiynində yoxdur, dur elə!
Bura toy evidir, nişangah yox eee,
Gözünün sağ tayı yumulur elə.

Qumbara üzüyü barmağındamı,
Qızıl güllə hanı, verək nəməri?!
Şümal kostyumunda deyilsən rahat,
Harda unutmusan yaşıl kəməri?

Hərbi orkestrin çaldığı toymuş,
Hərbi parad bilib çaşdımı zəndin?
Mina təlimində keçilmir axı,
Şampan partlatmağı harda öyrəndin?

Çalış, qəbul eylə məğlubiyyəti,
Bu nə möcüzədir, nə sirr, – düşmüsən?!
Əllərin açıqdır, ayağın açıq,
Amma ürəyindən əsir düşmüsən!

***Süleyman ABDULLA,***
***döyüşçü-şair***

## Zəfər günü



Vətən alqışlayır qədəmlərini,
Çoxdan gözləyiridik bu böyük günü.
Dərbənd gülümsəyir Xəzərə baxıb,
Elə bil açılıb Təbrizin eyni.

Adınla fəxr edib coşur ürəklər,
Yeni Zəfərlərlə yaşa, Vətənim!
Çoxdan tilsimdəydi Şuşanın ruhu,
Ruhun azad oldu Şuşa - Vətənim.

Dünya heyran oldu bu qələbəyə,
Bu zəfər dillərdən-dillərə gəzər.
Ulu Qarabağın xilası sanki
Böyük İstanbulun fəthinə bənzər.

Bu zəfər yazılıb şəhid qanıyla,
Azadlıq naminə yüz yol and içdik.
Düşmənin qurduğu istehkamları
Bir "Dəmir Yumruq"la dağıdıb keçdik.

Yurduma tuşlanan xain əllərə,
Bu zəfər dərs oldu, - etməyin xəta.
Tarixin ən şanlı döyüşləriylə
Zamanı da yendi bu zəfər hətta.

Yadlara əzəldən gözdağı olub,
Türkün düşmən bağrı yaran ordusu.
Yolundan çıxanı cəza gözləyir,
Tanrı ordusudur - Turan ordusu...

Murov dağlarına Ağrı əl edir,
Kəpəz Savalanın görüşündədir.
Behiştdə rahat yat, Xətai babam,
Vətən qələbələr yürüşündədir.

***Rafiq ƏLƏKBƏR***

## Şəhid anası gəlir



Bu yurdun igidləri
Sipər etdi özünü,
Vətənə qurban getdi
Heç qırpmadan gözünü.
Öz qanıyla tarixə
Yazdı Zəfər sözünü.
Qarabağda Bayrağım
Əzəmətlə yüksəlir.
Ehtiramla baş əyin,
"Vətən sağ olsun!" deyən
Şəhid anası gəlir,
Şəhid atası gəlir!

...Əsarətdən qurtuldu
Neçə kəndim, şəhərim.
Yenə güldü üzümə
Qarabağda səhərim.

Qəhrəman şəhidlərim
Əyilməyə qoymadı
Millətimin qürurun.
Yaradan da onlara
Pay vermişdi öz nurun.
Qarşısında diz çökün,
Dağlar, salama durun!
Şəhidləri xalqımın
Hamı baş tacı bilir.
Şəhidlər qanı hopmuş
Al Bayrağa bürünüb
Şəhid anası gəlir,
Şəhid atası gəlir!

***Ədalət SALMAN***



# "4+4: rəqəmsal namə"



Adamsan, Adam Mitskeviç: "Təbiət zəhəri sürünənlərə verib. Güclülərin buna ehtiyacı yoxdur!". Düşmən səngərləri ilan yuvasına oxşayırdı, onları torpağın altından çıxarıb... təzədən torpağın altına gömdük.

Hər günü Zəfər olan müharibə! – bu, ancaq haqq savaşı ola bilərdi. Kafir üstünə gülləden, mərmidən, PUA-dan tez şığıyan əsgər eşitmişdiniz? O, bizim əsgərdir! Aldığı ilk yüksəklik – Ruh yüksəkliyi oldu!

Atdığı silah ancaq hədəfə dəyirdi: torpağı yaralamasın deyə, quşa toxunmasın deyə, ağacı qırmasın deyə. Deyə-deyə aldılar Qarabağı: deyə-gülə, deyə-oxuya, deyə-oynaya...

Şuşa ətrafında gedən döyüşü rus bloger çəkmişdi: ermənilər üzü Xankəndiyə tərəf qaçırlar, bloger soruşur, niyə gedirsiniz, axı, Azərbaycan Ordusu görünmür? Terrorçuların komandiri cavabında: - Onlar hər yerdədir, görünmədən bizi qırırlar, sanki yerin altından çıxırlar, - deyir...

Qarabağda təkcə ordumuz döyüşmədi, həm də orda uyuyan şəhidlərimiz silaha sarıldılar:

Silah çəksə elimizə,
Kimsə həddin aşsa əgər,
Şəhidlər o dünyanın da
Altın üstünə çevirər!..

Çevirdilər də: təkcə işğal altındakı torpaqlarımızda uyuyan şəhidlərimiz deyil, onlarla Şəhidlər xiyabanındakılar da haqq savaşına qatıldılar.

Sizə bir sirr açım: Şuşaya necə dırmandı igidlərimiz – deyimmi? Onlara Birinci Qarabağ müharibəsində qəhrəmancasına həlak olan şuşalı Ramiz Qəmbərov əlini uzatdı! Qalxın, dedi, neçə ildir sizi gözləyirdik...

Ali Baş Komandan 44 gündə hər dildə müsahibə verdi, az qala: hərbin dilində, siyasətin dilində, dünyanın aparıcı dillərində... Həm də hər dildə dillərini kəsdi bədxahların. Hələ dava vaxtı yazmışdım: düşmənlər də ən dəqiq məlumatı Prezidentimizin "Twitter" səhifəsindən alırlar.

Bir vaxtlar: "Durnası da uçmazdı qürbətə bu diyarın". 1993-cü ildən sonra Qarabağdan quşlar, vəhşi heyvanlar bir yana, ağaclar, daşlar da perik düşübmüş. Biz qayıdıb nələr gördük orda, nələr?! Prezident "Sanki burdan vəhşi qəbilə keçib" deməkdə nə qədər haqlıdır! Ucsuz-bucaqsız bir xarabalıq! 2020-ci ilin payızında Qarabağın şəklinə bundan "yumşaq" ad qoymaq olmazdı.

Qarabağın indiki şəklinə baxın: bərpa, tikinti, aeroport, festivallar, musiqi, quş səsləri... Payızdır, amma durnalar da geri qayıdır – bütün qarabağlılar kimi...

44 günlük savaş, 8 noyabr 2020-ci il – Zəfər tariximiz, 4+4= 8, 8 həm də sonsuzluq işarəsidir. Mən elə görürəm...

***Qulu AĞSƏS,***
***"Ulduz" jurnalının baş redaktoru***

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***






# Zəfər ünvanlı mahnı

**Gələn ayın əvvəllərində Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar, Prezidentin fərdi təqaüdçüsü Tofiq Bakıxanovun 95 yaşı tamam olacaq. Qələmə aldığım bu sətirlər görkəmli sənətkarın işğalçı Ermənistan üzərindəki tarixi Zəfərimizdən ruhlanaraq dərhal yazdığı iki mahnı barədədir.**





...Ermənistan rəsmiləri sərxoş olub Cıdır düzündə Yallı oynayanda da azərbaycanlı əsgər anaları ağlayırdılar, Şuşa işğaldan azad ediləndən sonra qalib əsgərlərimizin həmin Cıdır düzündə Cəngi sədaları ilə sanki dağları belə silkələyən rəqsini görəndə də. Qədim Azərbaycan torpaqlarını, doğma Qarabağımızı düşmən tapdağından azad etmiş oğulların məhz bu meydandakı rəqsi nəinki əsgər anasını "ağladırdı", hətta qos-qocaman, ağsaqqal kişilərimiz də riqqətdən kövrəlirdilər. O zaman mən bu şeiri yazmışdım:

### Fəxr elə Əsgər ki, bizimdir ŞUŞA...

*Ağlama əsgər anası, şux dayan,*
*Bax, önündə arzulardı qaynayan.*
*Öz oğlundur indi yallı oynayan.*
*Can gəlibdi hər çəmənə, hər daşa –*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Ağdama bax, durdu, dözdü ər kimi,*
*Doğdu Günəş Cəbrayıla zər kimi,*
*Qalxan oldu Murov da Tərtər kimi,*
*Layiqdır hər dağ-düzümüz alqışa,*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Sar qovuldu Xarıbülbül elindən,*
*Yer-göy tutur bir-birinin əlindən.*
*Türk sözü var milyonların dilində –*
*Sanki giribdir döyüşə min Paşa*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Qarabağda ağ yazıldı fərmanım –*
*Natəvanın sevincidir dərmanım.*
*Cıdır düzü, Xan səsidir dastanım,*
*Baş əymədik yüz borana, min qışa*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

Şeiri 2020-ci il noyabrın 15-də Tofiq Bakıxanovun evində qonaqların yanında oxudum. Onlardan biri Tofiq müəllimə baxdı: – Ustad, bu sözlərdən mahnı olar? – Tofiq müəllim gülümsündü və dedi: – Baxarıq.

Təxminən bir həftədən, ya da on gündən sonra Bakı Musiqi Akademiyasının əməkdaşı, musiqişünas Nərgiz Qulamovanın Zəfər mövzulu musiqi əsərləri mövzusunda "Xalq qəzeti"nin ünvanına göndərdiyi yazıda belə cümlələr də var idi: "Tofiq Bakıxanovun Əməkdar jurnalist İttifaq Mirzəbəylinin sözlərinə yazdığı "Zəfər nəğməsi" ("Fəxr elə, Əsgər ki, bizimdir Şuşa!" şeirimin mətninə bəstələmişdi) də musiqişünaslar tərəfindən maraqla qarşılanıb. Bəstəkarın dediyinə görə, mahnı Xalq artisti Ağasəlim Abdullayevin rəhbərlik etdiyi ansamblın müşayiəti ilə lentə alınmaq üçün hazırlanır.

Bu mahnını əlamətdar edən məqamlardan birincisi ahıl yaşlı bəstəkarın Qələbə sevincidirsə, digəri də, sözlərin müəllifinin əsgər analarına müraciət edərək indi Şuşada Yallı oynayan sərxoş erməni siyasətçinin deyil, məhz Azərbaycan əsgərlərinin olduğunu dilə gətirməsi, Qarabağımızın hər qarışına həyatın qaytarılmasının qeyd edilməsidir".

Tofiq Bakıxanovun mənim sözlərimə yazdığı başqa bir mahnı isə "Bağışla bizi, Şuşa..." adlanır. Marş tempində olan həmin mahnının not yazısını da təqdim edirəm.

Mahnının mətni belə idi:

*Salam Şuşa, qayıtdıq,*
*Bu vüsal çox gec oldu.*
*Sənsiz keçən ömrümüz*
*Nağıl oldu, heç oldu.*

*Cıdır düzü, bağışla,*
*Həsrət qaldın atlara.*
*Qovuldu qatır-qotur,*
*Başlayaq büsatlara.*

*Üzeyir bəy nisgili*
*Xoş ovqata köklənər,*
*Sadıqcanın mizrabı*
*Dinər, yenə dillənər.*

*Bağışla bizi Şuşa...*
*Gec olsa da, qayıtdıq.*

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Qalib xalqın qüdrətli dövləti

**Tarix bəzən səssiz yazılır, amma onun elə səhifələri var ki, hər sətri xalqın nəfəsi, hər cümləsi qəhrəmanların qanı ilə suvarılır. 8 Noyabr – Zəfər Günü o səhifələrdəndir. Bu gün Azərbaycan xalqının yenilməzliyinin, dövlətimizin əzəmətinin, ordumuzun şücaətinin təntənəsi sayılan o möhtəşəm gündən beş il keçir. Bu gün Azərbaycan xalqı yalnız Zəfər Gününü deyil, həm də Böyük Qələbəmizin şanlı 5 illik yubileyini qürurla, Vətən sevgisi ilə qeyd edir. Beş il öncə, 2020-ci ilin noyabrında, üçrəngli Bayrağımız azad Qarabağ səmasında dalğalananda xalqımızın yüzillik arzusu gerçəyə çevrildi. O gün Azərbaycan tarixi yeni mərhələyə qədəm qoydu – ədalətin, milli birliyin və qəhrəmanlıq salnaməsinin zirvəsinə yüksəldiyi mərhələyə.**



Uzun illər boyu ürəyimizdə daşıdığımız nisgil 2020-ci ilin payızında ümidə, sonra isə qürura çevrildi. 44 gün boyunca səngərlərdə döyüşən igidlərin addımları ilə tariximizin istiqaməti dəyişdi. Hər bir atəşin sədasında xalqın haqq səsi, millətin dirçəlişi eşidilirdi. Bu Zəfər təkcə silahın gücü ilə deyil – inamın, birliyin və Vətən sevgisinin qüdrəti ilə qazanıldı.

"Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Ümummilli lider Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə edib. Bunu 30 ilə yaxın çəkən ayrılıq da göstərdi. Yuxularımızda gördük, Şuşa həsrəti ilə bu dünyadan köçənlərin yasını tutduq. Nə yaxşı ki, tarixi ədalət var imiş. İllərlə uzaq düşdüyümüz doğma Şuşamızı qaytardıq, Qarabağımıza qovuşduq. Şuşanın Dövlət Bayrağı Günü ərəfəsində azad olunması diqqətçəkən məqamdır. Müqəddəs bayrağımız öz tarixinin ən şərəfli gününü yaşayır. İndi o, Şuşada qürurla dalğalanır və əbədi dalğalanacaq!

Ata vəsiyyətinə əməl edən Prezident, Ali Baş Komandan İlham Əliyev "Qarabağ Azərbaycandır!" şüarı altında Qarabağın baş tacı olan Şuşamızı düşməndən geri aldı və çox fəxrlə: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" – bəyan etdi.

Dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə olan Şuşaya xüsusi təyinatlılarımız gecə saatlarında, Daşaltı kəndi və Qəribəli kəndi tərəfindəki meşəlikdən daxil olublar. Ermənilərin 4 postunu məhv edəndən sonra Köhnə Qalanı və "Türmə"ni ələ keçirən əsgərlərimiz düşmənin hücumlarını dəf edərək şəhərdəki mövqelərini genişləndirməyə başlayıblar. Şəhərin yanındakı xüsusi təyinatlı qruplar isə Xankəndi – Şuşa yolunu nəzarətə götürüblər. Noyabrın 3-dən 4-nə keçən gecə şəhərin qayalıqlarını dırmaşaraq yüngül silah-sursat ilə Şuşaya daxil olan xüsusi təyinatlılarımız tanksız–topsuz iki gün döyüşmüş, noyabrın 6-da axşam saatlarında ordumuzun motoatıcı hissələri ölüm yağışı altında əlbəyaxa döyüşən xüsusi təyinatlıların köməyinə çatmışlar. Onların üstündə tapança, əl qumbaraları və bıçaqlar vardı. Amma ən böyük silahları Vətən təşnəsi, yurd sevgisi, bir də kamuflyajın sol döş cibindəki Azərbaycan Bayrağı idi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Azərbaycan xalqına müraciətində Şuşa şəhərinin erməni işğalından azad edildiyini bəyan edərək dedi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!".

Azərbaycan xalqı nə bu qədər sevinmiş, qürur hissi keçirmiş, nə də bayrağına bu qədər sevgi ilə sarılmışdı. Bəli, Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu. İndi torpağın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhu da sevinir. Qisasınız alındı! Qarabağ Azərbaycandır!

Üstündən beş il keçib... Amma o günün sevinci, şəhidlərimizin müqəddəs xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq. Beş il ərzində Zəfər ruhu bizi bir amal ətrafında birləşdirdi, yenidən qurulan Qarabağ torpaqlarında həyatın nəbzini bərpa etdi, gələcəyə inamı möhkəmləndirdi.

Bu gün işğaldan azad olunmuş bütün ərazilərdə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri uğurla aparılır. İlk növbədə müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır. Böyük Qayıdışa dair Dövlət Proqramının icrası çərçivəsində artıq şuşalılar doğma şəhərlərinə qayıdırlar. Dövlət başçımızın dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

***Nurəngiz ADİLQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 239 (30933) 8 noyabr 2025-ci il, şənbə

# Döyüşçü yazarın cəbhə gündəliyindən

## *Partlayış səsləri, sülhməramlılar və kababdan bezmə...*

### 1-ci epizod

Bu kəndlərin qarşısında düşmən önündə müəyyən yüksəklik–təpələrin bəzisində bizim batalyon yerləşib. Təbii ki, qarşılıq olaraq düşmənin artilleriya hücumları başlayır. Həm orada qalmağa imkan verməmək, həm də geri oturtmaq üçün toplardan və minaatanlardan mərmi yağmuru. Heyətimiz dərinliyi dizdən olan, ot basmış səngərə yerləşir. Qazılma istiqaməti və s. aydın hiss olunur ki, bu səngər Birinci Qarabağ savaşından qalmadır. Allah bilir, orada birinci savaşda kimlərimiz şəhid olub. İndi onların övladları idi o səngərdə olanlar. Bu qədər mərmi yağmuru, amma itkimiz hələ yoxdu, bəxtimiz gətirir. Bəlkə Birinci Qarabağ savaşında şəhid olanların ruhu idi bizi qoruyan?!

Bir neçə dəqiqə sonra sağ istiqamətimizdə yerləşən bölükdən artilleriya atışlarından sonra bir zabitimiz və iki əsgərimiz yaralanır. Səhv etmirəmsə, baş leytenant Əmrahov sağ əlinin barmaqlarını itirir. Bir əsgər boğazından, digərisə qarnından yaralanır. Digər bölmələrin köməyi ilə yaralılar oradan çıxarılır.

Bunun ardınca bizim ordunun şiddətli əks artilleriya hücumu, atışları başlayır. Bir neçə partlayış səsi raket atıldığından xəbər verirdi. Təhlükə içində raket partlayışlarına olan marağımı öldürə bilmirəm. Bu nədir, bu nə partlayışdır belə? Torpağın bağrı yarılır sanki... Düşmənin artilleriya atışları səngiyir, sonra isə tam kəsilir. Gecəyə yaxın bizə məlumat verilir: "qonaqlarımız" olacaq. Heç bir halda qarşı tərəfə, hərəkətliliyə atəş açmayın. Bildiyimiz budur ki, ordumuz, XTQ və digər bölmələr gecə ikən hücuma keçəcəklər...

...Qısa müddət ərzində o kəndlər, qarşısı və digər istiqamətlər düşməndən tam təmizlənir. Batalyonumuzun 20-yə yaxın yaralısı və 4 şəhidi var...




### 2-ci epizod

Siqnaxda erməni evlərindəyik. Müharibənin gedişində bizim batalyon Xocalı kəndləri, Şuşa uğrunda döyüşlərdə olsa da, hərbi hissəmizin digər batalyonu Laçın, dəhliz ətrafı döyüşlərdə idi. Müharibənin bitməsi ilə bərabər ordu tərxis olunur, evə göndərilir xəbərləri yayılmağa başladı. Öz düşüncəmizlə deyirdik ki, müqaviləyə əsasən, boşaldılası rayonlar boşaldılmadan dövlət belə riskə gedib bizi tərxis etməz. Amma inananlar da var idi.

Müharibə bitərkən olduğumuz yüksəkliklərdə qaldıq. Artıq ocaq qalaya bilir, şaxtanı birtəhər yola verməyə çalışırdıq. Mənim tağımımın olduğu mövqenin yaxınlığında erməni ferması var idi. Saymışdıq, qənimətimiz 97 iri dana idi. Düzü, çörəksiz kabab yeməkdən iyrənməyə düşmüşdük müharibədən sonra.

15 noyabr öncəsi aşağı enəcəksiniz, ordansa Cəbrayıla gedəcəksiniz deyilir. Amma 15 noyabrda Kəlbəcərin boşaldılmaması planları pozdu. Hər ehtimala qarşı orada qalacaqsınız. Müqaviləyə əməl edilməsə...

Bu hadisələrin sonu necə olacaq, - deyə düşünür, müxtəlif analizlər verirdik. Ən yaxşısı Ağdamı, 20 noyabrı gözləməkdir. Ağdamla bağlı xəbərləri gözləyirik. Kimisində təlaş, kimisində həyəcan... Yeni bir müharibə qaçılmazdırmı?

### 3-cü epizod

O xəbər gəlir: Ağdam boşaldıldı... 23 noyabr səhəri bizə rabitəylə xəbər verilir ki, Siqnax kəndinə gəlin. Ora gedirik. Müharibənin gedişində irəliləyəndə bir neçə saatlıq Siqnax kəndində olmuşduq. Həmin vaxtlar Siqnax ağır artilleriya hücumuna məruz qalırdı. Bu dəfə azad insanlar kimi kəndi gəzmək, özümüzə yemək üçün nəsə tapmaq olardı. Hər tağım bir evdə özünə yuva qurur. Otaqların birində taxtda üç əsgərim yerləşir, mənimçünsə ayrıca çarpayı ayırırlar.

Çıxaq, gəzək, müharibənin verdiyi "turizmdən" bəhrələnək. Əsgərlərin həvəsi daha çoxdu. Müxtəlif şəkillər çəkdirirlər. Daha çox bir villa diqqəti çəkir. Sonradan öyrənirəm ki, bu villa qondarma respublikanın milli təhlükəsizlik xidmətinin müavini bir general-mayorun evidir. Elə gözəyarı baxanda bu evin milyonlara, bəlkə də, daha artıq məbləğə başa gəldiyini açıq-aşkar görürsən.

Zirzəmisinə enir, otaqları gəzir, varlıların həyatını beynimdə qaralayıram. Çox qəribədir, yığdığın milyonların bir gün əsgərin ayağı altında qala bilər. Qapını əliylə taqqıldatma şansı olmayan bir kasıb balası onu təpiyi ilə aça bilər... Villanın yanında çəpərə alınmış ərazidə onlarla xırda və iribuynuzlu mal-qara var. Artıq kimindir, bilmədim... Kəndin içindəsə donuzlar veyillənir. Sahibsiz... Onlara heç bizlərdən də sahib çıxan yoxdu. Axşama doğru əsgərlər evə turşu, kartof-soğan, ev quşları və s. ərzaq məhsulları gətirirlər. İki aydan sonra evdə yatmağın ləzzəti – bunu heç boş vermək olar? Özümüzçün nələrsə bişiririk. Evin içində ocaq qalayarıq. Nəhayət, isti yerdə yatacağıq...

### 4-cü epizod

Laçın boşaldılır, biz getməliyik. 1 dekabr. Radioda Ali Baş Komandan İlham Əliyevin çıxışını dinləyirik. Laçın boşaldıldı. Sevinc səsləri hər yerdən duyulmağa başlayır. Artıq müharibə tam bitdi, deyə bilərik, düşünürük... Amma bizim hərbi hissənin Laçına gedəcəyi deyilir. Hazırlıqlar görülür. Siyahı tutulur. 24 yaşdan yuxarı əsgərlər Laçına getməyəcək. Onlar buradan tərxis olunacaq. Bəs zabitlər? Onlar da yaşından asılı olmayaraq, Laçına gedəcək. Orada təhvil-təslim edib silahları və əsgərləri təhvil verdikdən sonra 24 yaşdan yuxarı zabitlər tərxis ola biləcək. Hazırlıq vaxtı nədənsə yadıma laçınlı dostları salıram. Qayıdanda onlara danışacaq xeyli söhbətim olacaq. Bəlkə onlarla daha da doğmalaşacağıq...

Yadıma ilk düşən məktəbdə sevdiyim laçınlı qız olur. Sonra isə Rəşad Məcid, Şərif Ağayar... Çünki Laçın haqqında söhbətləri, yazıları daha çox onlardan görmüşdüm. Daha doğrusu, ünsiyyətdə olduğum insanlar arasında. Evdəkilərə, dostlara zəng edirəm. "Rabitə pisdi, əlaqəm olmasa, narahat olmayın". Bunu xəbər verməyə bilməzdim. Yaxınlarım mən qayıdana kimi müharibənin içindən çıxa bilməmişdilər. Heç indi də çıxmayıblar. Bütün hazırlığımızı görüb yola düşürük...

### 5-ci epizod

Birinci gün çıxmağımızın səbəbi odur ki, ikinci gün sülhməramlıların keçid məntəqəsində olaq. Yəni cüt günün səhərinə özümüzü çatdıra bilək. Tək günlər ermənilər, cüt günlərsə biz o yoldan istifadə edə bilirik. Dəhliz qarşısında da rus keçid məntəqəsində gözləyirik. Rusiya bayrağı...Qəribə oluruq. Müharibədən sonrakı gerçəkliyi indi-indi başa düşməyə başlayırıq. Bəziləri ruslara düşmən kimi baxır. Nə də olsa, ilk dəfədir belə rastlaşmaq. Bizi buraxmırlar, – əsəbiləşən zabitlərimiz olur.

– Başa düşün, biz burada sülhməramlıyıq. O biri heyət çatsın, sonra sizi aparacağıq. Öncə maşınlara baxaq.

Maşınlara baxırlar. Bir əsgər və toppuş rus zabiti maşınların içini gəzir. Məsələ məlumdur. Silahlar ayrıca maşında olmalı, heyət isə ayrı maşınlarda: Laçının mərkəzində ermənilərin içindən keçəndə hər hansı hadisə baş verməsin deyə. Maşınları yoxlayanda "Ural"ların birinin kabinəsində avtomat görürlər.

– Olmadı ki... Bütün silahları yığışdırın.

Yenidən harada silah varsa, ayrıca maşına yükləyirik. Yavaş-yavaş aramızda ünsiyyət yaranmağa başlayır. Zabitlər – Xəlilov, Şıxəliyev, Qayxılı rusca yaxşı bildiyindən onların vasitəsilə ünsiyyət qururuq, ya da ümumi danışırıq. Əsgərlərlə söhbət əsnasında məlum olur ki, əksəriyyəti Şimali Qafqazdan, Krımdan gələnlərdir. Bəziləri Bakıda da olub. Qohumları olanlar var. Qanımız qaynayır. Bilirsiniz, axı, bura bizim torpaqdı və s. kimi söhbətlərə "gediş" edirik.

– Biz sadəcə qulluqçuyuq, bura göndəriblər, gəlmişik. İşimiz aranızda hər hansı hadisələrin baş verməsinin qarşısını almaqdır.

Zabitlərimizdən biri "onsuz da bura da bizim olacaq" deyir. Ruslar gülümsəyir...

### 6-cı epizod

Laçında son gecəmiz. Səhv etmirəmsə, ya Həkəri, ya da Hoçazsu çayının sahilləridir. Ermənilərin keçmiş istirahət mərkəzi olub. Qapıları, pəncərələri aparılıb. Binaya isə od vurub yandırıblar. Orada məskunlaşırıq.

Ümumiyyətlə, dığalar çıxdıqdan sonra demək olar ki, hər şeyi yandırıblar. Xəbərdarlıq edirlər ki, ehtiyatlı olun, bunlar rayonu boşaldandan sonra bəzi yerlərə mina da basdıra bilərlər. Çay qırağında uzanıb yatmaq, ocaq çayı içmək... Yenə də bacardıqca müharibədən sonra turist kimi təbiətdən həzz almağa çalışıram. Bir də Laçında nə vaxt olacam ki?

...Silahları təhvil vermişik. Daha sonra əsgər heyətini. Düzü, zabitlər, əsgərlər kövrəlir. İlk dəfədir, zabit və əsgərin bir-birindən ayrıldığı üçün bu qədər kövrəldiyini görürəm. Axı, nə də olsa, müharibəni, döyüşləri bir yerdə keçiriblər... 30 dekabr gecəsi. Sabah hər şeyi hazır edib çıxmalıyıq. Çünki 31 dekabr cüt gündü. Əgər 31 dekabrda buradan keçməsək, bir də iki gün sonra şansımız olacaq. Belədə bayramı da evə çata bilməyəcəyik... 30 dekabrda həmin keçmiş istirahət mərkəzində son gecəmizi keçiririk...

### 7-ci epizod

31 dekabr səhəri tezdən sülhməramlıların qapısını kəsdirmişik. "9 tamamdan tez buraxa bilmərik", – deyirlər. "Öncə məruzə edək, sizə zirehli maşın ayıraq, sonra...". Zarafatlaşırıq, söhbət edirik. Narahat olmayın, elə sürətli və tez edəcəyik ki, Yeni il gecəsini evinizə çata biləsiniz.

– Мы же все Кавказцы, зачем нам враждовать? – zabit deyir.

Bəzi fikirlər içimi qıdıqladır. Mustafaya deyirəm ki, soruş gör, onların təminatını ermənilər verir? Ruslar tez etiraz edir: "Yox, hər şey bizə Rusiyadan gəlir. Ermənilərdən heç nə almırıq".

Deyirəm, onlardan siqaret də almırsınız? Rus əsgəri əminliklə siqaretini çıxarır, Rusiya aksiz markası olan nazik "Kent 4".

Bəlkə, dostluq naminə siqaretlərimizi dəyişək... Cibimdən siqareti çıxarmaq istəyirəm, amma qutunun üstündə ermənicə "Akhtamar" yazılıb. Öz-özümə gülürəm: mən ruslara elə deyirəm, özümdə isə erməni siqareti...

Sürücülərimiz yaşlı kişilərdi. Rus zabiti məəttəl baxır. Zabitləmiz isə sovet zarafatını edir: "döyüşə qocalar gedir".

Söhbətdən sonra bizi buraxırlar. Bu dəfə Laçının mərkəzini gündüz görməli oluruq... Saatlar sonra Cəbrayıldayıq. Sənədlərimizi götürürük. Gecə isə artıq Sumqayıtdayam. Amma qafqazlı sülhməramlı zabitinin sözləri ara-sıra qulağımda pıçıldanır:

"Мы же все кавказцы, зачем нам враждовать?".

***Emin PİRİ,***
***Vətən müharibəsi veteranı***

## İDMAN

### Fərid Qayıbov səudiyyəli həmkarı ilə görüşüb



**VI İslam Həmrəyliyi Oyunları çərçivəsində noyabrın 6-da Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov ilə Səudiyyə Ərəbistanı Krallığının idman naziri şahzadə Əbdüləziz bin Turki Əl Feysəl Əl Səud arasında görüş keçirilib.**

Görüşdə iki ölkə arasında gənclər və idman sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Mərasim zamanı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının İdman Nazirliyi arasında gənclər sahəsində əməkdaşlıq üzrə 2026–2027-ci illər üçün İcra Proqramı imzalanıb.

Sənəd iki ölkə arasında gənclər siyasəti, mübadilə proqramları, könüllülük fəaliyyəti və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsini nəzərdə tutur.

### XI turun ilk oyunları



**Dünən Misli Premyer Liqasında XI tura start verilib. İlk oyun günündə "Şamaxı" "İmişli"ni qəbul edib. Şamaxı şəhər stadionunda keçən qarşılaşma meydan sahiblərinin qələbəsi ilə başa çatıb - 1:0. Görüşdə yeganə qolu 78-ci dəqiqədə Karim Rossi vurub.**

Bu nəticədən sonra xallarının sayını 13-ə çatdıran "Şamaxı" 8-ci pilləyə yüksəlib. Qonaqlar 12 xalla 9-cu mövqedədir.

Günün ikinci görüşündə "Qəbələ" öz meydanında "Sumqayıt"la üz-üzə gəlib. Oyun 2:0 hesabı ilə qonaqların xeyrinə başa çatıb. Qolları 55-ci dəqiqədə Rüstəm Əhmədzadə və 82-ci dəqiqədə Alexandre Ramalingom vurublar. Bu qələbədən sonra "Sumqayıt" 20 xalla 3-cü pilləyə yüksəlib. "Qəbələ" isə 5 xalla 10-cu yerdə qərarlaşıb.

Turun digər oyunları noyabrın 8-9-da keçiriləcək.

### Taekvondoçumuzun Avropa gümüşü




**Azərbaycanın Taekvondo Federasiyasından verilən məlumata görə, yeniyetmə taekvondoçu Elmir Səlimov Yunanıstanın Afina şəhərində keçirilən Avropa birinciliyində fəxri kürsüyə qalxıb.**

53 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız gümüş medala layiq görülüb.

Noyabrın 6-da start götürən yarışa noyabrın 8-də yekun vurulacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*✓ 2023-cü il martın 15-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "Medcare Farm " MMC-yə verilmiş EL-202/2023/1 nömrəli xüsusi lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır. VÖEN-1905057721.*

## *HAVA*

### İlıq bir şənbə günü



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-14, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunu, nisbi rütubət isə 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 8-13, gündüz 19-24, dağlarda gecə 0-5, gündüz 8-13 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov və universitetin kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva və kollecin kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2211
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00